Xalqın qəzeti!
# Xalq qəzeti
№ 209 (30903) 30 sentyabr 2025-ci il, çərşənbə axşamı
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan Prezidenti III MDB oyunlarına start verdi

## *Gəncədə III MDB Oyunlarının təntənəli açılışı*

### Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimi izləyiblər



**Sentyabrın 28-də Gəncədə III MDB Oyunlarının təntənəli açılış mərasimi keçirilib.**

Tədbirdən əvvəl Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vətən müharibəsi zamanı Gəncəyə raket hücumları nəticəsində valideynlərini, ailə üzvlərini və yaxın qohumlarını itirmiş, həmçinin xəsarət almış uşaqlarla görüşüblər.

Sonra dövlətimizin başçısı və birinci xanım açılış mərasimini izləyiblər.

Əvvəlcə Azərbaycan Respublikasının üçrəngli Bayrağı arenaya gətirilib və Dövlət Himnimizin sədaları altında ucaldılıb.

Sonra III MDB Oyunlarında iştirak edən ölkələrin idmançılarının təntənəli paradı olub.

Açılış mərasimində Azərbaycan Bayrağını karateçimiz Asiman Qurbanlı və taekvondoçumuz Zemfira Həsənzadə arenaya gətiriblər.

*(ardı 2-ci səhifədə)*

## İrəvanın "yol xəritəsi" Bakının razılığı ilə formalaşır



**Ermənistanın 30 ilə yaxın Qarabağ və Şərqi Zəngəzuru işğal altında saxlaması ölkəni regionda təcrid vəziyyətinə salıb və beynəlxalq aləmlə münasibətlərinə mənfi təsir göstərib. Bəzi dövlətlər bu illər ərzində Ermənistanla diplomatik əlaqələr qurmayıb və ya onu dövlət olaraq tanımayıb. Xüsusilə, türk və müsəlman ölkələri Ermənistanın işğalçı siyasətinə görə diplomatik boykot tətbiq ediblər.**

Bununla belə, son dövrlər İrəvanın Türkiyə, Pakistan, Səudiyyə Ərəbistanı ilə münasibətlərində pozitiv dinamika yaranıb. Bu, Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi, eləcə də Vaşinqtonda sülh sazişinin paraflanması ilə əlaqədardır. Ermənistanın baş naziri Nikol Paşinyan BMT Baş Assambleyasındakı çıxışında ölkəsinin diplomatik əlaqələr sahəsində mühüm addım atdığını açıqlayıb. O, Ermənistanın artıq Pakistan və Səudiyyə Ərəbistanı ilə diplomatik münasibətlər qurduğunu vurğulayıb və bunu regional siyasətdə yeni mərhələ adlandırıb. Paşinyan, həmçinin qeyd edib ki, son illər Ermənistanla Türkiyə arasında görünməmiş dərəcədə pozitiv dialoq formalaşıb: "Prezident Ərdoğanla görüşlərim mütəmadi xarakter daşıyır, etimad səviyyəsi isə davamlı olaraq artır".

*(ardı 5-ci səhifədə)*

## Böyük Türk ailəsinin yeni erası

### *Gələn ay Azərbaycanda keçiriləcək TDT liderlər sammiti bu təqvimə yeni səhifə yazacaq*

**Türk Dövlətləri Təşkilatı (TDT) Türk dünyasının siyasi inteqrasiyası və regional iştirakı baxımdan getdikcə önəmli aktora çevrilir. Təşkilatın ideya və strukturunun formalaşmasında isə Azərbaycanın fəal rolu danılmazdır. Tarixi, mədəni, dil və etnik bağlılıq türk dövlətlərini bir arada saxlayan əsas sütunlardır. Ölkəmiz bu birliyin həm coğrafi, həm strateji, həm də diplomatik baxımdan lokomotividir. Azərbaycanın təşəbbüsləri – xüsusilə Türk dünyasında nəqliyyat və enerji dəhlizlərinin inkişafı, mədəni və humanitar layihələrin genişlənməsi – TDT-nin real əməkdaşlıq platformasına çevrilməsini sürətləndirir.**



Sentyabrın 29-da Bakıda "Türk Dövlətləri Təşkilatı: qlobal nizamsızlıq dövründə regional aktor kimi" mövzusunda panel müzakirə keçirilib. Konfrans TDT-yə üzv dövlətlərin beyin mərkəzlərinin nümayəndələrini bir araya gətirərək müasir qlobal təhlükəsizlik şəraitində təşkilatın rolunu, imkanlarını və qarşıda duran çağırışları analiz etməyə həsr olunub. Panelin əsas gündəliyi siyasi təhlükəsizliyin qeyri-müəyyənliklərinin artdığı bir dövrdə TDT-nin qlobal sülh və sabitliyə necə töhfə verə biləcəyi idi. Mövzu çərçivəsində həm strateji, həm texnoloji, həm də humanitar təhlükələr müzakirə edildi. Konfransda Türkiyə, Qazaxıstan və Qırğızıstandan olan ekspertlər, alimlər, strateji düşüncə institutlarının nümayəndələri iştirak edirdilər.

*(ardı 6-cı səhifədə)*

## Ali Baş Komandanın informasiya savaşı



Səhifə ⇨ 8

## Azərbaycanın investisiya cəlbediciliyi yüksəlir




Səhifə ⇨ 9

## Avropada təhlükəsizliyin strateji prioritetləri



Səhifə ⇨ 5

## Paşinyan Zəngəzur dəhlizinə qarşı çıxırsa...




Səhifə ⇨ 4

## TDT-nin qlobal sülhə və davamlı inkişafa töhfələri



Səhifə ⇨ 5

## "Qarabağ Mixaylosu" Natiq Sumqayıt səhnəsində



Səhifə ⇨ 14

# Gəncədə III MDB Oyunlarının təntənəli açılışı

## *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimi izləyiblər*

(əvvəli 1-ci səhifədə)

**Sonra III MDB Oyunlarının Təşkilat Komitəsinin sədri Samir Şərifov çıxış edərək dedi:**

– Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev.

Zati-aliləri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva.

Hörmətli qonaqlar, atletlər, məşqçilər və idmansevərlər.







Sizi Azərbaycanın qədim diyarı Gəncə şəhərində salamlayır, Müstəqil Dövlətlər Birliyi ölkələrinin III Oyunlarına xoş gəlmisiniz deyirəm.

Bu gündən etibarən Gəncə və daha altı şəhərimiz – Şəki, Qəbələ, Yevlax, Mingəçevir, Göygöl və Xankəndi III MDB Oyunlarına ev sahibliyi edəcək.

On gün davam edəcək yarışlarda Müstəqil Dövlətlər Birliyi ölkələrindən, həmçinin onlara qatılan Türkiyə, Pakistan, Oman, Kuba və Küveytdən 2400 nəfərlik idman nümayəndə heyətləri iştirak edəcək.

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin vətəni, qədim mədəniyyəti və zəngin tarixi olan Gəncə hazırda Müstəqil Dövlətlər Birliyinin idman paytaxtıdır.

Əminik ki, yeni istifadəyə verilən möhtəşəm Gəncə Stadionunda açılışını etdiyimiz bu idman oyunları dostluq, sülh, qarşılıqlı hörmət meyarlarına əsaslanan ədalətli mübarizə meydanı olacaq, ölkələrimiz və xalqlarımız arasında əməkdaşlığın genişlənməsinə, münasibətlərin daha da dərinləşməsinə mühüm töhfə verəcək.

Azərbaycanda idmanın inkişafına böyük əhəmiyyət verilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində ölkəmiz beynəlxalq idman ailəsinin nüfuzlu və etibarlı üzvlərindən birinə çevrilmişdir. Azərbaycan müxtəlif illərdə ən mötəbər beynəlxalq yarışlara ev sahibliyi etməklə bacarıqlı təşkilatçı kimi özünü təsdiq etmişdir. Bakıda 2015-ci ildə Birinci Avropa Oyunları, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları, eləcə də müxtəlif növlər üzrə dünya və qitə çempionatları yüksək səviyyədə keçirilmişdir.

İnanırıq ki, III MDB Oyunları da bu baxımdan əlamətdar olacaq. Oyunların paytaxt Bakıdan kənarda keçirilməsi ölkəmizin regionlarında da güclü infrastrukturun, idmanın inkişafı üçün lazımi şəraitin yaradıldığını göstərir.

İrimiqyaslı idman yarışlarının ölkənin regionlarında təşkilinə göstərdiyi qayğıya və verdiyi dəstəyə görə Azərbaycan Respublikasının Prezidentinə dərin minnətdarlığımızı ifadə edirik.

Təşkilat Komitəsi olaraq bildiririk ki, şəhərlərimiz MDB Oyunlarının keçirilməsinə, idmançıları azərbaycanlılara xas qonaqpərvərliklə qəbul etməyə tam hazırdır.

Əziz idmançılar və qonaqlar, əminik ki, Azərbaycan bu günlər ərzində sizin üçün ikinci eviniz kimi doğma olacaq. Siz gözəl və zəngin təəssürat toplayacaq, yeni dostlar qazanacaqsınız.

Müstəqil Dövlətlər Birliyi ölkələrinin III Oyunlarında iştirak edən bütün atletlərə uğurlar arzulayırıq. Ümidvarıq ki, onların əzmkarlığı layiqincə qiymətləndiriləcək.

Bu idman bayramı ölkələrimiz arasında həmrəyliyin möhkəmlənməsində yeni bir mərhələ açacaq və Oyunların şüarında deyildiyi kimi, hər bir ürəkdə qələbə işığı yandıracaq.

*

**Mərasim iştirakçılarını salamlayan Müstəqil Dövlətlər Birliyinin Baş katibinin müavini Nurlan Seytimov dedi:**

– Axşamınız xeyir, əziz dostlar. İcazə verin, sizi Müstəqil Dövlətlər Birliyinin Baş katibi Sergey Nikolayeviç Lebedevin məktubu ilə tanış edim.

"III MDB Oyunlarının təşkilatçılarına, iştirakçılarına və qonaqlarına.

Müstəqil Dövlətlər Birliyi İcraiyyə Komitəsi adından sizi qonaqpərvər Azərbaycan Respublikasında keçirilən III MDB Oyunlarının açılışı münasibətilə ürəkdən salamlayıram.

Xalqlarımızın idman birliyinin parlaq rəmzinə çevrilən bu möhtəşəm idman hadisəsi yalnız atletlərin ən yüksək peşəkarlığını nümayiş etdirmək üçün bir platforma deyil, həm də MDB ölkələri arasında dostluq əlaqələrinin möhkəmlənməsinə, mədəniyyət və idman sahələrində çoxtərəfli əməkdaşlığın inkişafına xidmət edir.

MDB Oyunları idmanın dövrümüzün ən güclü həmrəylik simvollarından biri olduğunun bariz nümunəsidir. Bir neçə gün ərzində Azərbaycan Respublikasının yeddi şəhəri iştirakçıların və tamaşaçıların zövq alacağı möhtəşəm bir idman bayramına ev sahibliyi edəcək.

Gənclərin çoxsaylı çağırışlarla üz-üzə qaldığı dövrdə idman zamanla sınaqdan keçmiş bir yolu – intizam, məqsədyönlülük və sağlam həyat tərzi yolunu təşviq və təklif edir.

Bu keyfiyyətlər gəncləri yalnız uğurlu idmançılara deyil, həm də istənilən fəaliyyət sahəsində əsl liderlərə çevirir.

Əminəm ki, III MDB Oyunları Birliyin idman hərəkatı tarixində parlaq iz buraxacaq və humanitar əməkdaşlığın daha da möhkəmlənməsinə xidmət edəcək.

Bütün gənc atletlərə idman qələbələri, yeni rekordlar və şəxsi inkişaf arzulayıram. Qoy bu Oyunlar həm idman arenalarında, həm də ölkələrimizin rifahı naminə görülən yaradıcı işlərdə yeni nailiyyətlərə ruhlandırsın.

Müstəqil Dövlətlər Birliyinin Baş katibi Sergey Nikolayeviç Lebedev".

*

Daha sonra idmançıların və onların məşqçilərinin andiçmə mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev III MDB Oyunlarını açıq elan edib.

Tədbir bədii hissə ilə davam edib.

Sonda Gəncə səması al-əlvan atəşfəşanlığa qərq olub.

*

Qeyd edək ki, Gəncə şəhəri III MDB Oyunlarının "İdman Paytaxtı" seçilib. Bu qərar MDB-yə üzv dövlətlərin Bədən Tərbiyəsi və İdman Şurasının Belarusun paytaxtı Minskdə keçirilən iclasında qəbul edilib.

Oktyabrın 8-dək davam edəcək III MDB Oyunlarında yarışlar 12 idman məkanında keçiriləcək və atletlər 23 idman növü üzrə 1694 medal (505 qızıl, 505 gümüş, 684 bürünc) uğrunda mübarizə aparacaqlar. Bundan əlavə, qalib komandaların uğuruna ən çox töhfə verən idmançıların da xüsusi mükafatlarla təltif edilməsi nəzərdə tutulub.

Xatırladaq ki, I MDB Oyunları 2021-ci ildə Rusiyanın Kazan şəhərində, II Oyunlar isə 2023-cü ildə Belarusun paytaxtı Minskdə keçirilib.







# "AzərEnerji"nin Yaponiyada EXPO 2025 təqdimatı

**Xəbər verildiyi kimi, Yaponiyanın Osaka şəhərində keçirilən EXPO 2025 Dünya sərgisində Azərbaycan heyəti Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə qurulan "Azərbaycan" pavilyonu ilə təmsil olunur.**




Qurumdan verilən məlumata görə, sentyabrın 28-də "Azərenerji" ASC-nin nümayəndə heyəti pavilyonda sərginin əsas istiqamətlərindən biri olan BMT-nin 17 Davamlı İnkişaf Məqsədi çərçivəsində görülən işlər barədə təqdimat keçirib.

Təqdimatda xüsusilə üç istiqamət üzrə görülən tədbirlər vurğulanıb: "Münasib və Təmiz Enerji", "Məsuliyyətli İstehlak və İstehsal" və "İqlim Dəyişikliyi ilə Mübarizə". Bu mövzular üzrə "Yaşıl Enerji" zonalarının inkişafı, istehsal güclərində yeni texnologiyaların tətbiqi, bərpaolunan enerji mənbələrinin sistemə inteqrasiyası, eləcə də beynəlxalq enerji dəhlizlərində iştirakla bağlı həyata keçirilən layihələr barədə məlumat verilib.

Təqdimat sərgi iştirakçıları tərəfindən maraqla qarşılanıb və Azərbaycanda enerji sahəsində görülən işlər müsbət qiymətləndirilib.

***Mustafa KAMAL***
***XQ***

# "Azərbaycanda alman izləri" fotoalbomu

**Azərbaycanın Almaniyadakı səfirliyinin təşəbbüsü və dəstəyi ilə tanınmış fotoqraf Etibar Cəfərovun "Azərbaycanda alman izləri" adlı fotoalbomu nəşr olunub.**

Alman və ingilis dillərində işıq üzü görən bu unikal nəşrdə ölkəmizdə almanların zəngin tarixi, mədəniyyəti və töhfələri təsirli görüntülərlə təqdim olunur. Fotokitabın hazırlanmasında alman tarixçisi professor Eva-Maria Aux da yaxından iştirak edib.






Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayevin yazdığı "Ön söz"də qeyd olunub ki, 2017-ci ildə Prezident İlham Əliyevin imzaladığı Sərəncamla Cənubi Qafqazda alman məskənlərinin salınmasının 200 illiyi qeyd olunub. Azərbaycanın təşəbbüsü ilə bu əlamətdar hadisə UNESCO-nun rəsmi yubileylər proqramına daxil edilərək beynəlxalq səviyyədə tanınıb.

***XQ***

# Çin Xalq Respublikasının Sədri Zati-aliləri cənab Si Cinpinə

**Hörmətli cənab Sədr!**

Çin Xalq Respublikasının milli bayramı münasibətilə Sizə və Sizin simanızda dost Çin xalqına öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Sizin liderliyiniz sayəsində iqtisadi, sənaye, hərbi, yüksək texnologiyalar, innovasiya, elm və digər bütün sahələrdə mühüm nailiyyətlər əldə edən Çin dünyanın ən qabaqcıl ölkələri sırasında qərarlaşmış, beynəlxalq aləmdə proseslərə həlledici təsir göstərən güc mərkəzinə çevrilmişdir. Bu il ərzində dost ölkənizə həyata keçirdiyim iki səfər zamanı Sizin qətiyyətli rəhbərliyiniz altında ölkədə aparılan genişmiqyaslı quruculuq işlərini, möhtəşəm inkişafı və nailiyyətləri əyani şəkildə görmək məndə böyük təəssürat oyatdı.

Çin Xalq Respublikası ilə əlaqələrin inkişaf etdirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindəndir. Məmnunluqla qeyd etmək istərdim ki, son dövrdə Azərbaycan-Çin münasibətləri yeni mərhələyə qədəm qoymuşdur. Aramızdakı fəal dialoq, səmimiyyət və qarşılıqlı etimad şəraitində keçən görüşlərimiz, təmaslarımızın intensivliyi Azərbaycan-Çin əlaqələrinin səviyyəsindən və yüksək dinamikasından xəbər verir. Aprel ayında Çinə dövlət səfərim zamanı imzalanmış sənədlər, xüsusilə də “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat” ikitərəfli əlaqələrimizi daha da yüksək pilləyə qaldırmış, dövlətlərarası münasibətlərimizin strateji mahiyyətini gücləndirmişdir.

Bu gün Azərbaycan ilə Çin arasında qarşılıqlı etimad, hörmət və dəstəyə əsaslanan münasibətlərin hərtərəfli strateji tərəfdaşlıq müstəvisində inkişafı məmnunluq doğurur. Siyasi, iqtisadi-ticari, sənaye, enerji, nəqliyyat-kommunikasiya, investisiya, kənd təsərrüfatı, humanitar və digər sahələrdə əməkdaşlığımızın gündən-günə genişlənməsi və yeni məzmunla zənginləşməsi bizi sevindirir. “Kəmər və yol” layihəsinin uğurla icrası, xüsusilə də onun vacib tərkib hissəsi olan Orta Dəhliz vasitəsilə daşımaların artması təqdirəlayiqdir. Eyni zamanda vizasız gediş-gəlişə dair sənədin qüvvəyə minməsinin insanlararası təmasların və turizmin inkişafına, iqtisadi, humanitar və mədəni əlaqələrin dərinləşməsinə mühüm təkan verəcəyinə inanıram.

Hörmətli cənab Sədr,

Əminəm ki, bir-birinə böyük rəğbət bəsləyən xalqlarımızın rifahı naminə mövcud imkanlardan yararlanaraq birgə səylərimizlə Azərbaycan-Çin ənənəvi dostluq əlaqələrinin daha da möhkəmlənməsinə, hərtərəfli strateji tərəfdaşlığımızın daha da dərinləşməsinə nail olacağıq.

Belə bir xoş gündə Sizi bir daha ürəkdən təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Çin xalqına daim əmin-amanlıq, rifah və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 sentyabr 2025-ci il**

# Baş nazir Əli Əsədovun Minskə səfəri

**Sentyabrın 29-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov MDB Hökumət Başçıları Şurasının iclasında iştirak etmək üçün Belarus Respublikasının Baş naziri Aleksandr Turçinin dəvəti ilə Minskə işgüzar səfər edib.**

**Bu barədə Nazirlər Kabinetindən məlumat verilib.**

*XQ*



# Əli Əsədov MDB Hökumət Başçıları Şurasının iclasında iştirak edib




**Sentyabrın 29-da Belarus Respublikasının paytaxtı Minskdə Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının növbəti iclası keçirilib. Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iclasda iştirak edib.**

Məhdud tərkibdə iclasda çıxış edən Baş nazir MDB çərçivəsində müxtəlif səviyyələrdə əməkdaşlığın vacibliyini vurğulayıb.

Azərbaycan hökumətinin başçısı humanitar əlaqələrin, o cümlədən səhiyyə sahəsində əməkdaşlığın əhəmiyyətini qeyd edib. O əlavə edib ki, iclasda 2026-cı ildə “Sağlamlığın qorunması İli”nə hazırlıq və onun keçirilməsinə dair Tədbirlər Planının təsdiq edilməsi nəzərdə tutulub. Onun sözlərinə görə, bu kontekstdə tibb işçilərinin ixtisasının artırılması və səhiyyə sisteminə innovativ texnologiyaların tətbiqi prioritet məsələlərdəndir.

Ə.Əsədov sağlam və dayanıqlı cəmiyyətin yaradılmasında idmanın rolunu xüsusi vurğulayıb. O deyib: “Təsadüfi deyil ki, MDB çərçivəsində müxtəlif idman tədbirlərinin keçirilməsi xüsusi əhəmiyyət daşıyır, əməkdaşlığın mühüm sahəsi kimi çıxış edir”.

Baş nazir bununla bağlı sentyabrın 28-də Azərbaycanın Gəncə şəhərində III MDB Oyunlarının açılmasını diqqətə çatdırıb.

Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib. Ümumilikdə 23 idman növü üzrə 1600-dən çox idmançının mübarizə aparacağı belə böyük idman tədbirinin ilk dəfə olaraq ölkənin regionlarında (7 şəhərdə – Gəncə, Xankəndi, Mingəçevir, Qəbələ, Şəki, Göygöl və Yevlaxda) keçirildiyini vurğulayan Ə.Əsədov III MDB Oyunlarının dostluğu, idman ruhunu gücləndirəcəyinə, həmçinin idman sənayesini və mədəniyyətini inkişaf etdirəcəyinə əminliyini ifadə edib.

Azərbaycanın MDB-yə üzv dövlətlərlə iqtisadi-ticari əlaqələrinin inkişafına toxunan Ə.Əsədov cari ilin 8 ayında qarşılıqlı ticarət həcminin 21 faizdən çox artdığını bildirib.

Baş nazir beynəlxalq ticarət əlaqələrinin gücləndirilməsində müasir nəqliyyat və logistika infrastrukturunun əsas rolunu qeyd edib. “Azərbaycan Avrasiyanın aparıcı nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib və hazırda nəqliyyat infrastrukturunun müasirləşdirilməsi, Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində sistemli iş aparılır”, – deyə o vurğulayıb.

Ə.Əsədov onu da əlavə edib ki, regionda yaranmış yeni reallıqları nəzərə alaraq Azərbaycanın əsas ərazisini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək Zəngəzur dəhlizi üzərində aktiv işlərə başlanılır.

“Yaşıl gündəliy”ə toxunan hökumət başçısı bildirib ki, iqlim dəyişikliyi ilə bağlı qlobal çağırışlar fonunda Azərbaycan “yaşıl enerji” texnologiyalarına, o cümlədən külək və hidroenergetika sahələrinə fəal sərmayələr yatırır.

Baş nazir bu sahədə beynəlxalq əməkdaşlığın inkişaf etdiyini, xüsusilə Mərkəzi Asiya dövlətləri ilə bərpaolunan enerji mənbələri layihələrinin həyata keçirilməsi üzrə sazişlərin imzalandığını vurğulayıb.

Çıxışının sonunda Baş nazir MDB-nin bütün üzv dövlətləri ilə konstruktiv və qarşılıqlı hörmət əsasında dialoqun davam etdirilməsinin vacibliyinə diqqət çəkib.

Daha sonra hökumət başçıları geniş tərkibdə görüşü davam etdirib, onun yekunlarına dair bir sıra sənədlər imzalanıb.

*XQ*

# R.M.Məmmədhəsənovun 2-ci dərəcəli “Əmək” ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Rafiq Musa oğlu Məmmədhəsənov 2-ci dərəcəli “Əmək” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 sentyabr 2025-ci il**

# Birinci vitse-prezident Mehriban Əliyeva Cabir İmanovun vəfatı ilə əlaqədar paylaşım edib



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Əməkdar artist Cabir İmanovun vəfatı ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.**

Paylaşımda deyilir: “Nurlu, səmimi və qeyri-adi istedada malik insan – Cabir İmanovun vəfatı xəbəri məni sarsıtdı. Bütün ailəmiz kədərlənir, onun yaxınlarına və doğmalarına başsağlığı veririk.

**Allah rəhmət eləsin”.**

# TDT qlobal nizamsızlıq dövründə regional gücə çevrilir



**Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin beyin mərkəzlərinin nümayəndələrinin iştirakı ilə sentyabrın 29-da Bakıda keçirilən “Türk Dövlətləri Təşkilatı: qlobal nizamsızlıq dövründə regional aktor kimi” mövzusunda konfrans keçirilib.**

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şafiyev çıxış edərək bildirib ki, Türk Dövlətləri Təşkilatının builki Zirvə görüşü Azərbaycanda keçiriləcək. Təşkilata üzv və müşahidəçi dövlətlərin beyin mərkəzləri olaraq, Zirvə görüşlərindən əvvəl ev sahibi ölkədə öz aramızda mütəmadi görüşlər keçirməyi artıq ənənə halına salmışıq. Hətta bu istiqamətdə beyin mərkəzləri arasında memorandum imzalanıb, TDT Zirvə görüşlərinin yekun bəyannaməsində dövlət və hökumət başçıları tərəfindən bu görüşlərin davam etdirilməsi müvafiq tapşırıq olaraq müəyyən edilib. İndiyədək 10 belə görüş və konfrans təşkil etmişik. Bu gün isə 11-ci konfransı Bakıda keçiririk. 2009-cu ildən etibarən təşkilatlanma mərhələsinə keçən TDT-nin regiondakı nüfuzu daim artan xətt üzrə inkişaf edir.

Türk Dövlətləri Təşkilatının Baş katibinin müavini Ömər Kocaman vurğulayıb ki, bugünkü konfrans bizə TDT-nin regionda və onun hüdudlarından kənarda roluna diqqət yetirmək imkanı verəcək. Dünyada baş verən sürətli dəyişikliklər, qlobal və regional səviyyədə mühüm inkişaf və çağırışlar türk coğrafiyasında əməkdaşlıq və inteqrasiyanı daha da vacib edir. Ortaq tarix, dil, mədəniyyət və ənənələrə əsaslanan qardaş türk dövlətləri arasındakı münasibətlər böyük strateji dəyər və potensial təklif edir.

Fürsətdən istifadə edərək Türk dünyasında əməkdaşlığın gücləndirilməsinə verdiyi əvəzsiz töhfələrə və dönməz dəstəyinə görə Azərbaycanı xüsusi qeyd etmək istəyirəm.

Qazaxıstan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar İnstitutunun direktoru Jandos Şaymardanov çıxışında bildirib ki, ötən illər ərzində TDT-nin inkişaf yolu göstərdi ki, ölkələrimiz təkcə mədəni və sivilizasiyalararası əməkdaşlıq məsələlərində deyil, həm də beynəlxalq arenada Türk dünyasının roluna və yerinə dair ortaq baxış formalaşdırmaq istiqamətində yaxınlaşıb. Qlobal nizam yeni mərhələyə qədəm qoyur və bu mərhələ üç üst-üstə düşən qeyri-müəyyənlik təbəqəsi ilə xarakterizə olunur. Birincisi, geosiyasi rəqabət intensivləşərək çoxtərəfliliyin prinsiplərini parçalayır. Strateji qarşıdurmalar ticarət, təhlükəsizlik və texnologiya müstəvilərini yenidən formalaşdırır və dünyanı az proqnozlaşdırılabilən bir məkana çevirir. İkincisi, qlobal institutlar ciddi təzyiq altındadır. Üçüncüsü isə bir vaxtlar sabitlik dayağı kimi çıxış edən mexanizmlər yeni reallıqlara uyğunlaşmaqda çətinlik çəkir və əməkdaşlığa ən çox ehtiyac duyulan məqamda idarəetmədə boşluqlar yaranır. Həmçinin hibrid və transmilli təhdidlər – kiberhücumlar, dezinformasiya, iqlim dəyişiklikləri və resurs təhlükəsizliyi problemləri – sürətlə çoxalır. Bu çağırışlar sərhəd tanımır, lakin cəmiyyətlərimizin təhlükəsizliyinə, rifahına və birliyinə birbaşa təsir göstərir.

Türkiyə Xarici İşlər Nazirliyinin Strateji Araşdırmalar Mərkəzinin şöbə müdiri Turhan Dilmaç isə bildirib ki, Türk dünyasında inteqrasiya prosesi heç də “blok” kimi qəbul edilməməli, əksinə, daha çox təsirli bir aktor kimi qiymətləndirilməlidir. Bu baxımdan, “regional aktor” ifadəsi daha düzgün seçimdir. Çünki “blok” anlayışı qarşıdurmanı xatırladır və bu, inteqrasiya prosesimizin mahiyyətinə ziddir.

Konfrans panel müzakirələrlə davam edib.

*XQ*

# Azad Qarabağda “yaşıl texnologiya”lar



**İşğaldan azad edilmiş ərazilərdə “yaşıl texnologiya”ların və enerji səmərəliliyi tələblərinin tətbiqi ilə bağlı əlaqələndirmə və monitorinq üzrə işçi qrupun 10-cu iclası keçirilib.**

İşçi qrupunun sədri, energetika naziri Pərviz Şahbazov ölkə Prezidenti İlham Əliyevin tapşırıqlarına müvafiq olaraq işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işlərindən danışıb. Bildirilib ki, ölkəmizin sosial-iqtisadi inkişafının və Böyük Qayıdışın davamlılığının təmin edilməsi məqsədilə hazırlanmaqda olan yeni strateji sənədlərdə “yaşıl texnologiya”ların təşviqi, ərazilərdə enerji səmərəliliyinin artırılması və bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi mühüm istiqamətlər kimi nəzərdə tutulur.

İclasda işçi qrupun əvvəlki iclasında qəbul edilmiş qərarların icrasına dair məlumat verilib, “yaşıl enerji” zonasının yaradılması üzrə görülmüş işlərlə bağlı hesabatlar dinlənilib. Bununla yanaşı, Şuşa, Kəlbəcər və Cəbrayıl şəhərləri, Cəbrayıl rayonunun Şükürbəyli və Horovlu kəndlərində, eləcə də Laçın və Kəlbəcərdə olan su elektrik stansiyalarında aparılmış monitorinqlərin nəticələri nəzərdən keçirilib.

Horovlu kəndində 334 fərdi yaşayış evində damüstü günəş panellərinin şəbəkəyə qoşulması üzrə atılmış addımlar, Şuşa və Laçın şəhərləri, həmçinin Zabux kəndinin əhalisi üçün təşkil edilmiş bərpaolunan enerji mənbələrindən istifadəyə dair praktiki tövsiyələri əhatə edən maarifləndirilmə tədbirləri haqqında məlumat verilib. Binalarda yüksək enerji səmərəliliyini təmin etmək məqsədilə görülmüş tədbirlər, ərazidə quraşdırılmış LED işıqlandırma dirəkləri, günəş əsaslı hibrid işıqlandırma qurğuları, elektrik doldurma məntəqələri, istismar edilən elektrikli avtobuslar və ictimai binalarda quraşdırılmış günəş panellərinin statistikası təqdim edilib.

İclasda işğaldan azad edilmiş ərazilərdə ekoloji baxımdan mütərəqqi həllərin tətbiqi, enerji istehlakında qənaət imkanlarının genişləndirilməsi, pilot layihələrin həyata keçirilməsi, müasir texnologiyaların sınaqdan keçirilməsi, həmçinin monitorinq və uçot mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı qərarlar qəbul edilib.

Toplantıda işçi qrupuna üzv dövlət qurumları ilə yanaşı, işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliklərinin və “Bərpa Tikinti və İdarəetmə Xidməti” publik hüquqi şəxslərin, eləcə də Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, “Azəristiliktəchizat” ASC-nin nümayəndələri iştirak ediblər.

*XQ*

# Paşinyan Zəngəzur dəhlizinə qarşı çıxırsa...

## *Ermənistan "Tramp marşrutu" ilə bağlı öhdəliyini unutmamalıdır*

**Ermənistanın baş naziri Nikol Paşinyan BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışında Prezident İlham Əliyev tərəfindən dilə gətirilən "Zəngəzur dəhlizi" ifadəsinə öz aləmində "ilişib". Nikol bildirib ki, hay düşüncəsinə görə, bu ifadə Ermənistana qarşı ərazi iddiasıdır. Yazımızda baş nazirin dedikləri ilə bağlı bir sıra məqamları vurğulayacaq, son günlər Paşinyanın artıq ikinci dəfədir "Zəngəzur dəhlizi" ifadəsi ilə bağlı əks-reaksiyasının motivlərinə diqqət yetirəcəyik.**

*

Əvvəla, onu deyək ki, "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) bağlantı layihəsi və ya "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" kimi səslənən ifadələr Azərbaycanın, ümumən, hər bir azərbaycanlının, eyni zamanda, beynəlxalq ictimaiyyətin baxışlarında Zəngəzur dəhlizidir. O dəhliz ki, özündə ölkəmizin digər ərazilərini ayrılmaz bölgəmiz olan Naxçıvanla birləşdirmək mahiyyətini daşıyır.

44 günlük müharibəyə son qoyan Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladıqları 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat artıq, demək olar, qüvvəsini tam itirib. Sənəd, faktiki olaraq, qeyri-işlək durumdadır. Bəyanatı əhəmiyyətsiz sənədə çevirən Ermənistan oldu. Rəsmi İrəvan onun bir çox müddəalarını heçə saydı. Ən başlıcası isə erməni iqtidarı uzun müddət Naxçıvana maneəsiz yol vermək istəmədi. Halbuki, üçtərəfli Bəyanatın 9-cu bəndində bildirilir: "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək".

*

Bəli, Ermənistan uzun müddət üçtərəfli Bəyanatın sırf 9-cu bəndi üzrə üzərinə düşən öhdəliyi yerinə yetirmədi. Ölkənin baş naziri Nikol Paşinyan "Dünyanın kəsişməsi" ideyasını ortaya atdı. Həmin ideyaya görə, regional kommunikasiyaların açılmasında Naxçıvana yol əhəmiyyətsizləşdirildi. Məsələn, Nikol elə bu ilin əvvəlində sözügedən ideya çərçivəsində Laçın-Kornidzor-Marqara marşrutunu təklif etdi. Yəni Azərbaycandan hərəkət edən yük avtomobilləri ölkəmizin Laçının rayonundan Ermənistanın Kornidzoruna daxil olacaq, oradan isə Türkiyə ilə sərhəddəki Marqaraya yollanacaq. Nikol, hətta mövzuya dair gülünc fikir də səsləndirdi. Təxminən belə: əgər yük avtomobillərinin azərbaycanlı sürücüləri Ermənistan ərazisində özlərini təhlükəsiz şəraitdə hiss etməyəcəklərsə, onları türkiyəli həmkarları əvəzləyə bilər.

Paşinyanın "Dünyanın kəsişməsi"ndəki digər aspekt Mehri-Yerasx dəmir yolu bağlantısı idi. Onun dediyinə görə, Ermənistanın Mehrisindən Azərbaycanın Naxçıvanına daxil olan yük qatarları oradan yenidən Ermənistan ərazisi Yerasxa yetişməlidirlər. Mövcud trayektoriyada Azərbaycanın digər ərazilərinin Naxçıvanla birləşməsi ən son planda idi. Daha doğrusu, Paşinyan, bir növ, şərt qoyurdu - Naxçıvana yol maneəsizdirsə, Mehridən Yerasxa yol da elə olmalıdır.

Beləliklə, Laçın-Kornidzor-Marqara marşrutu üzərində dayanan Paşinyan dəmir yolu əlaqəsini avtomobil yolu əlaqəsindən ayrı tutmağa çalışır, regional kommunikasiyaların açılması ideyanı sözün hər iki mənasında dağa-daşa salırdı. Nəzərə alaq ki, Laçın-Kornidzor-Marqara marşrutu əsasən dağ massivlərindən ibarətdir və əlverişsizdir. Naxçıvana yolla bağlı söz düşəndə Ermənistanın ərazi bütövlüyü və suverenliyi məntiqini qabartmaq, üstəlik, Mehri-Yerasx marşrutunu, az qala, ön şərt kimi siyasi dövriyyəyə gətirmək isə mətləbdən yayınmaq, aşkar manipulyasiya, Azərbaycanın yaratdığı reallığa qarşı çıxmaq idi.

*

İndi Ermənistan rəhbərliyi "Dünyanın kəsişməsi"nin adını tutmur. Ona görə ki, ortaya atdığı ideya iflasa uğradı. İflasa uğradı və bu il avqustun 8-də "Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş nazirinin Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində keçirilmiş görüşünün nəticələrinə dair Birgə Bəyannamə" imzalandı. Sənədin 3-cü bəndində isə bildirildi: "Biz regionda və onun qonşuluğunda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və yurisdiksiyasına hörmət əsasında sülhün, sabitliyin və rifahın təşviqi üçün iki ölkə arasında ölkədaxili, ikitərəfli və beynəlxalq nəqliyyatın təmini məqsədilə kommunikasiyaların açılmasının əhəmiyyətini bir daha təsdiq etdik. Bu səylər Azərbaycan Respublikasının əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını və Ermənistan Respublikası üçün beynəlxalq və ölkədaxili bağlantılar üzrə qarşılıqlı faydaları ehtiva edir".

Qeyd edək ki, Birgə Bəyannamənin 3-cü bəndi ilə üçtərəfli Bəyanatın əvvəldə diqqətə çatdırdığımız 9-cu bəndi, demək olar, eynidir. Ən böyük eynilik hər iki bənddə Naxçıvana yolun maneəsizliyinin vurğulanmasıdır. Yəni sərhəddə heç bir yoxlanış olmayacaq. Əlbəttə, Paşinyan daxili auditoriya qarşısında bu məqama müxtəlif izahlar verə bilər. Məsələn, Nikol bir müddət öncə ölkə parlamentində ona verilən sualı cavablandırarkən demişdi ki, hazırda müasir texnologiyaların köməyi ilə təmassız yoxlanış aparmaq mümkündür. Ermənistan parlamentinin spikeri Alen Simonyan isə öz aləmində arxayınlıq yaradaraq demişdi ki, ölkə ərazisindən (Zəngəzur dəhlizindən – red.) bomba daşınmayacaq. Guya ki, bomba daşımaq istəyən var idi...



*

Sözümüz ondadır ki, Azərbaycan, hər bir halda, istəyinə çatıb. Ermənistan 2020-ci ildən bəri müqavimət göstərdiyi Naxçıvana maneəsiz yola ikinci dəfə razılıq verib. Birinci dəfə müharibədə rüsvayçılıq yaşayan, ikinci halda diplomatik müstəvidə biabırçılıqla üzləşən tərəf kimi. Zəngəzur dəhlizi ideyasına gəlincə, məsələ Prezident İlham Əliyev tərəfindən gündəmə gətirilib və ötən müddət göstərir ki, bu termin beynəlxalq ictimai rəydə qəbul olunub və kifayət qədər oturuşub. Başqa sözlə desək, Azərbaycan dövləti Zəngəzur dəhlizini xarici aləmdə ümumişlək hala gətirməyi, belə demək mümkünsə, leqallaşdırmağı bacarıb. Güman etmək olar ki, nə vaxtsa "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) bağlantı layihəsi və ya qısaca Tramp marşrutu belə bir statusu qazanacaq. Hələlik isə...

Prezident İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışı zamanı bildirmişdi ki, "regional bağlantılar davamlı sülh istiqamətində baxışlarımızın əsasını təşkil edir. Vaşinqton Sammitinin mühüm nəticələrindən biri də Zəngəzur dəhlizindən maneəsiz keçidi təmin edəcək və regional bağlantıları möhkəmləndirəcək "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"dur". N.Paşinyanın "ilişdiyi" də məhz bu ifadədir. Yeri gəlmişkən, erməni baş nazir dövlətimizin başçısının bu il sentyabrın 1-də Çinin Tiencin şəhərində "ŞƏT plyus" formatında keçirilmiş görüş zamanı dilə gətirdiyi Zəngəzur dəhlizi ifadəsinə də eyni tərzdə münasibət bildirmiş və Vaşinqtonda imzalanmış Birgə Bəyannaməni xatırlatmışdı. Daha doğrusu, sənədin Tramp marşrutu məntiqini. Nikola bəzi məqamları sonda xatırladacağıq...

*

Məsələ budur ki, N.Paşinyanın Zəngəzur dəhlizinin Azərbaycanın Ermənistana qarşı ərazi iddiası formulunu qabartması onun ölkəsindəki müxalif baxışlardan qaynaqlanır. Anlaşılmayan məqam Nikolun nə üçün həmin sərsəm baxışları beynəlxalq tribunalara daşımasıdır. Təsəvvür edin, Paşinyan daxili auditoriya önündə Zəngəzur dəhlizi müstəvisində meydana çıxmış Turan yolu stereotipinin ziyanlı olmadığını, Ermənistanın ərazi bütövlüyü və suverenliyi üçün heç bir təhdid yaratmadığını bəyan edir, amma eyni fikri Zəngəzur dəhlizi ilə bağlı işlətmir, dəhliz məntiqini, bir növ, süngü ilə qarşılayır və bu ritorikasının heç bir fayda verməyəcəyinin fərqinə varmır. Əksinə, baş nazir Azərbaycan-Ermənistan sülh prosesinə mənfi çalar gətirir, etimadsızlıq toxumları səpir. Axı həmin prosesin məğzində hər iki dövlətin bir-birilərinin ərazi bütövlüklərinə və suverenliklərinə hörmət amili ön plandadır və mövcud məqam həm Birgə Bəyannamədə, həm də paraflanmış barış sazişində yer alır.

Bəli, Paşinyan hər kəsin Tramp marşrutunun, əslində, Zəngəzur dəhlizi olduğunu bildiyi halda, beynəlxalq platformalarda özünü, guya, Azərbaycan Prezidentinə qarşı çıxırmış kimi göstərir. Durum kənardan çox cılız görünür, habelə Nikolun davranışı mətləbdən yayınmaq cəhdidir. Mətləb isə budur ki, illərdir Naxçıvana maneəsiz keçidi verməmək üçün hər vasitəyə əl atan və istəyinə çata bilməyən Ermənistan qarşısında yeni öhdəlik var. Prezident İlham Əliyevin avqustun 8-də Vaşinqtonda ölkəmizin media vasitələrinə müsahibəsində dediyi kimi, rəsmi İrəvan ev tapşırığını yerinə yetirməlidir. Ev tapşırığına gəldikdə, ABŞ Prezidenti Donald Trampın şahid imzası ilə təsdiqlənmiş Birgə Bəyannamənin 4-cü bəndində hər şey aydın yazılıb: "Ermənistan Respublikası Ermənistan Respublikasının ərazisində "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) bağlantı layihəsi üçün çərçivənin müəyyən edilməsi məqsədilə Amerika Birləşmiş Ştatları və qarşılıqlı müəyyən edilmiş üçüncü tərəflər ilə əməkdaşlıq edəcəkdir. Biz bu məqsədə ən qısa zamanda nail olmaq üçün xoş niyyətlə səy göstərməyə dair qətiyyətimizi təsdiq edirik".

Ermənistan, hələlik, heç bir qətiyyət göstərməyib. İndilik Tramp marşrutu işlək deyil və Paşinyan Azərbaycanın Ermənistana qarşı ərazi iddiasından danışır, özü də belə bir iddianın olmadığını bilərək. Məgər Nikol anlamır ki, Azərbaycan özünün digər ərazilərini Naxçıvanla birləşdirən 40 kilometrdən bir qədər artıq məsafəni ələ keçirmək istəsəydi, heç bir maneə tanımazdı? Çox yaxşı anlayır və bunu Prezident İlham Əliyev Vaşinqtondakı müsahibəsində də vurğulamışdı, əvvəllər də bu barədə söz açıb.

*

Sonda keçək N.Paşinyan üçün haqqında söz açdığımız xatırlatmalara. Belə bir suala cavab verək: Zəngəzur dəhlizi ideyası nə üçün gündəmə gəlib? Əlbəttə, 44 günlük müharibədən sonra məsələnin iqtisadi və siyasi əsasları meydana çıxıb. Çünki Azərbaycanın müharibədəki inamlı zəfəri regional konfiqurasiyanı dəyişib.

İkincisi, Zəngəzur reallığı ayrıca vurğulanmalı məsələdir. Bu reallıq ona görə yaranıb ki, Ermənistan vaxtilə Zəngəzuru ələ keçirdiyi kimi, Qarabağımızı da işğal etdi. İşğal otuz ilə yaxın çəkdi. Zəngəzur dəhlizi termini mahiyyətcə Ermənistanın Azərbaycana qarşı ərazi iddiasına müqavimət əzmindən yarandı və özündə böyük tarixi həqiqəti əks etdirdi. O tarix ki, heç də uzaq deyil. Qarabağda erməni separatizminin mövcudluğu da həmçinin. Yəni Paşinyan necə bir dövlətə rəhbərlik etdiyini, ölkəsinin üzərindən işğalçı damğasının götürülmədiyini yaddan çıxarmamalıdır.

Üçüncüsü, Ermənistan rəhbərliyi unutmamalıdır ki, Tramp marşrutunun timsalında Naxçıvana yolun maneəsizliyinin təmin olunmadığı, böyük anlamda yanaşsaq, regional kommunikasiyaların işlək hala gəlmədiyi müddətdə Zəngəzur dəhlizinin erməni qavramı hər zaman aktuallığını qoruyacaq. Sadə reallıq var: yollar işləməli, insanlar fayda götürməlidirlər ki, keçmişin ədavəti sıradan çıxsın, yaralar qaysaq bağlasın.

Eyni zamanda, Ermənistanda "Artsax" sərsəmləmələri, yəni Azərbaycana qarşı ərazi iddialarını səsləndirənlər qalmaqdadır. Rəsmi İrəvan bu sərsəmləmələrə qarşı heç nə edə bilmirsə, üstəlik, Bakıda məhkəməsi gedən Qarabağ müharibəsi canilərinin azadlığa çıxmaları məsələsini beynəlxalq tribunalara daşıyırsa, Paşinyan əmin olsun ki, Zəngəzur dəhlizinin onun düşüncəsinə hakim kəsilmiş təsəvvürü həmişə qalacaq.

Nəhayət, rəsmi İrəvan dəhlizin ərazi iddiası məntiqini dəyişmək istəyirsə, Tramp marşrutunun, yəni Naxçıvana maneəsiz yolun işlək hala gəlməsi ilə bağlı üzərinə götürdüyü öhdəliyi tez bir zamanda yerinə yetirməli, Birgə Bəyannaməyə üçtərəfli Bəyanatın aqibətini yaşatmamalıdır. Həm də ona görə yaşatmamalıdır ki, obrazlı desək, Azərbaycan adlı böyük qatar onsuz da yola çıxıb və həmin qatarın vaqonlarını 1989-1991-ci illərdə olduğutək daşa basacaq hansısa qüvvə yoxdur və ola bilməz.

***Ə.CAHANGİROĞLU***
***XQ***

---

# "Gizli kapitulyasiya" da olurmu?

## *Ermənistan baş naziri daxili auditoriyanın başını qatmağa çalışır*

**Biznesdə olduğu kimi, siyasətdə də imici qorumaq, liderlik nüfuzunu, işgüzar markanı daim yüksəkdə saxlamaq olduqca vacib amillərdəndir. Bunlardan hansı birininsə itirilməsi çox ciddi və acınacaqlı nəticələr doğurur. Qəbul etdiyi səhv qərara, atdığı yanlış addıma, yerinə və məqamına düşməyən bir kəlmə sözə, yaxud etiketdən kənar davranış və ya hərəkətə görə bir göz qırpımında nüfuzdan düşən, biznes imperiyası çökən, hakimiyyətdən getməyə məcbur olan o qədər oliqarx, siyasətçi olub ki.**

"2020-ci il noyabrın 10-u Ermənistanın kapitulyasiyası və təqribən, 30 ilə yaxın işğaldan sonra Azərbaycanın ərazi bütövlüyünün bərpası kimi tarixə düşdü". Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışında dilə gətirdi.

İndi, üstündən beş il keçəndən sonra Ermənistan baş naziri Nikol Paşinyan "kapitulyasiya" sözünə etirazını bildirir. Guya 2020-ci il noyabrın 10-da müharibəyə son qoymaqdan ötrü Azərbaycanın irəli sürdüyü bütün şərtləri qəbul edərək üçtərəfli Bəyanatı imzalaması onun təslim aktı ilə razılaşması deyil, başqa bir şey imiş. Məhz həmin gün Ermənistan kapitulyasiya aktına imza atdı, 44 günlük müharibə Azərbaycanın tam qələbəsi və Ermənistanın kapitulyasiyası ilə nəticələndi.

Bu danılmaz həqiqəti hərb elmindən uzaq sıravi vətəndaşlar da görür və bilirdilər: Ermənistan ordusu atəşkəs ərəfəsində artıq vahid komandanlığı olmayan, müqavimət qabiliyyətini itirmiş, on mindən çox fərarisini axtaran başıpozuq dəstələrə çevrilmişdi. Azərbaycan Ordusu isə Qarabağın incisi sayılan Şuşa şəhərini, onun ardınca bir gündə 70-dən artıq kəndi, 8 strateji yüksəkliyi azad etməklə Ermənistanı diz çökdürdü və kapitulyasiyaya məcbur oldu. Əgər Paşinyan iqtidarı bu addımı atmasaydı, hansı fəsadlarla üzləşə biləcəyi hamıya bəlli idi. Yəni hücumu davam etdirən Azərbaycan Ordusu Xankəndini də işğaldan azad edəndən sonra Ermənistan ordusunun təxminən 25-30 minlik tör-töküntüsü mühasirə vəziyyətinə düşəcəkdi. Bunu Zəfərimizdən az sonra parlamentdəki çıxışında baş nazir Nikol Paşinyan özü etiraf etmişdi.

*



Bəli, 10 noyabr Bəyanatı həm hüquqi, həm hərbi-siyasi, həm də məntiqi baxımdan Ermənistanın kapitulyasiya aktı idi. İndi Paşinyanın bu hərbi terminə sinonim axtarışına çıxmasının daxili auditoriyaya hesablanmış gediş olduğu diletanta da məlumdur. Bu məqamda beş əvvələ qayıdıb, dövlətimiz və millətimiz üçün o tarixi anları xatırlatmağımıza ehtiyac var. Yəqin diqqətli oxucuların yadında olar: 2020-ci il noyabrın 9-dan 10-na keçən gecə canlı efirdə məlum Bəyanatı Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin imzaladılar. Sənədi Ermənistan baş nazirinin də imzaladığı bəyan edilsə də, özü teleekranda görünmədi. Bunun səbəbini sonralar Azərbaycan lideri belə açıqlamışdı: "Mən deyirdim ki, Paşinyan canlı formatda, videokonfrans şəklində kapitulyasiya aktını imzalamalıdır. Amma açığını deyim, ondan sonra Rusiya Prezidenti Vladimir Putin məndən xahiş etdi ki, bu məsələdə çox da təkid etməyim. Mən hesab etdim ki, onsuz da Paşinyan kifayət qədər alçaldıldı, öz çirkin əməllərinə görə cəzalandırıldı, faktiki olaraq diz çökdü, mənim bütün şərtlərimi qəbul etdi. İmzalanmış bəyanatda Ağdam, Laçın, Kəlbəcər rayonlarından işğalçı qüvvələrin çıxarılmasının cədvəli də təsdiq olundu. Dedim ki, etiraz etmirəm. Dedim getsin harada istəyir imzalasın, qaranlıq bir otaqda, bir anbarda, kameralardan uzaq bir yerdə imzalasın. Belə də oldu".

Həqiqətən də, məgər bizim üçün Paşinyanın kapitulyasiya aktını harada imzalamasının fərqi vardı? Bu məqam hayların özləri üçün əhəmiyyət kəsb edə bilərdi, necə ki, bəzi siyasətçilər, ekspertlər o zaman məsələni araşdırmağa girişmişdilər. Politoloqlar, siyasətçilər 10 noyabr Bəyanatından danışarkən vaxtaşırı bu məsələni də gündəmə gətirirdilər. İntəhası, "tapmaca" hələ də cavabını gözləyir. Erməni mətbuatı indiyə qədər bu barədə dəqiq məlumat əldə edə bilməyib.

Ermənistan daxilində hökm sürən biabırçı mənzərə, gərgin vəziyyət, iqtidara qarşı cəmiyyətin kütləvi etirazı fonunda hayların baş nazirinin bunkerdə, sığınacaqda gizlənməsini başa düşmək olar, amma üstündən beş il keçəndən sonra onun kapitulyasiyaya deyil, guya, hansısa sövdələşməyə, atəşkəslə bağlı razılaşmaya imza atdığını iddia etməsi absurd və gülüncdür. Məgər onda təkcə Ermənistanda deyil, dünyanın dörd tərəfindən kimin qalib, kimin isə məğlub olduğunu aydın şəkildə görünmürdü?

*

Üçtərəfli Bəyanat imzalanan gün Ermənistanda Paşinyanı bu hərəkətinə görə təhqir edirdilər, alçaldırdılar. Burada təəccüblü heç nə yoxdur. Ermənistanda özlərini "siyasi elita" adlandıranların bəyənmədikləri hökumət başçısına, spikerə qarşı belə davranışları özlərinə adət etdikləri çoxdan məlum idi. Məsələnin maraqlı tərəfi ondan ibarətdir ki, Nikol Paşinyanın kapitulyasiya aktını harada imzaladığı bu günədək qaranlıq qalır. Yəqin parlament seçkiləri öncəsi müxalif düşərgənin hakimiyyətə qarşı təzyiq, şantaj və qarayaxma metodu kimi "qaranlıq otaqda qara pişik axtarışları" daha da intensivləşəcək.

Ermənistan baş nazirinin "ilişdiyi" və onun üçün "strateji" əhəmiyyət kəsb edən Zəngəzur dəhlizi ifadəsidir. Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışında bu söz birləşməsindən tam yerində istifadə elədi. Paşinyan hayların olduqca "ağrılı yeri" olan bu mövzunu gündəmdən birdəfəlik çıxarmaqdan, daxili auditoriyanı ələ almaqdan ötrü Nyu-Yorkdakı çıxışında Zəngəzur dəhlizi yerinə "Tramp marşrutu" kəlməsini işlətdi. Lap yaxşı. Azərbaycandan Naxçıvana və geriyə sərbəst gediş-gəlişi təmin edəcək yolun dəhliz deyil, iki ölkə arasında sülhə nail olan ABŞ Prezidentinin adına marşrut kimi (TRIPP) yazılması, deyilməsi məsələnin mahiyyətində hansı dəyişikliyi edəcək? Yəni Ermənistan baş nazirinin bu söz oyununun daxili auditoriyaya hesablandığı hamıya gün kimi aydındır. Sadəcə, Paşinyan bu zaman əndazəni aşmamalıdır.

Bu gün Hayastan baş nazirinin parlament seçkiləri öncəsi aşağı yuvarlanmış reytinqini yüksəltmək, cəmiyyətin gözündə markasını və nüfuzunu qaldırmaq, siyasi rəqiblərinin gözünü qırmaq, Azərbaycanla sülh sazişinin imzalanmasının vacib və qaçılmaz olduğuna hayları inandırmaq kimi çətin missiyaların öhdəsindən gəlməyə çalışdığının fərqindəyik. Amma əlahəzrət faktın söykəndiyi həqiqətlə manipulyasiya etmək cəhdləri heç kəsə, o cümlədən baş nazirə də əlavə dividend gətirə bilməz.

***İ.HƏSƏNQALA***
***XQ***

# TDT-nin qlobal sülhə və davamlı inkişafa töhfələri

**Bakı şəhəri Türk Dövlətləri Təşkilatının (TDT) üzv dövlətlərinin beyin mərkəzləri konfransına ev sahibliyi edir. Konfrans regional inteqrasiyanın dərinləşdirilməsi, elm, təhlükəsizlik və strateji araşdırmalar sahəsində əməkdaşlığın gücləndirilməsi məqsədini daşıyır. Beyin mərkəzləri toplantıları həm akademik müzakirələr üçün platforma rolunu oynayır, həm də qərarvericilərə strateji tövsiyələr təqdim etməsi baxımından böyük əhəmiyyət kəsb edir.**

2009-cu ildə yaradılan Türk Dövlətləri Təşkilatı əvvəlcə sıralarında Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistanı birləşdirdi. Təşkilatın yaranması regional inteqrasiyanın gücləndirilməsi ilə yanaşı, postsovet məkanında əmələ gəlmiş siyasi və iqtisadi boşluqları doldurmaq, həmçinin regional sabitliyi təmin etmək niyyətini ortaya qoyurdu. Məhz bu baxımdan, TDT üzv dövlətlərin siyasi koordinasiyasını sistemləşdirən və qarşılıqlı anlaşmanı artıran platforma kimi çıxış edir. Təşkilatın sülh təşəbbüsləri elmi və strateji təhlillərə əsaslanaraq qərarverici mexanizmlərə töhfə verir.




Beyin mərkəzlərinin iştirakı ilə aparılan təhlillər münaqişələrin preventiv həllinə yönəlmiş yanaşmaların formalaşmasına imkan yaradır, dövlətlər arasında etimad mühitini gücləndirir və regional risklərin vaxtında müəyyənləşdirilməsinə şərait yaradır. Belə



elmi əsaslı yanaşma TDT-nin fəaliyyətini həm siyasi koordinasiya, həm də davamlı sülhün təminatı baxımından effektiv edir. Xüsusilə, Cənubi Qafqaz, Mərkəzi Asiya və Şərqi Anadolu kimi geosiyasi baxımdan həssas bölgələrdə TDT-nin rolu daha aydın görünməkdədir. Burada təşkilatın fəaliyyəti regional gərginliyi azaltmaq və dövlətlərin qarşılıqlı maraqlarını tarazlaşdırmaqla, uzunmüddətli stabillik və davamlı sülh üçün strateji zəmin yaradır. Təşkilatın bu yanaşması sosial, iqtisadi və geoiqtisadi faktorları nəzərə alan analitik qərarvermə mexanizmləri vasitəsilə regionda davamlı sabitliyin təmin olunmasına xidmət edir.

TDT-nin kollektiv təhlükəsizlik mexanizmləri üzv dövlətlərin yalnız milli maraqlarını deyil, eyni zamanda, regional və qlobal təhlükəsizlik maraqlarını qorumağa yönəlmiş strateji yanaşmaları özündə birləşdirir. Təşkilatın bu sahədəki konkret əməliyyat strategiyaları, kiber və informasiya təhlükəsizliyi, sərhəd nəzarəti və transsərhəd təhdidlərin qarşısının alınması sahəsində praktik mexanizmlərin işlənməsini də əhatə edir. Beyin mərkəzlərinin iştirakı bu prosesi elmi əsaslarla dəstəkləyir, təhlükəsizlik risklərini proqnozlaşdırmaq və üzv dövlətlərin koordinasiyasını optimallaşdırmaq üçün analitik alət rolunu oynayır. Bütün bu mexanizmlər vasitəsilə TDT, beynəlxalq hüquq çərçivəsində kollektiv cavab vermək imkanlarını gücləndirməyə xidmət edir. Həmçinin TDT üzv dövlətləri arasında məlumat mübadiləsinin intensivləşdirilməsi və strateji planlamanın birgə aparılması, təhdidlərin qarşısının effektiv alınmasına imkan yaradır. Nəticədə, təşkilat regional sabitliyi qorumaq və qarşılıqlı etimadı gücləndirmək baxımından daha sistemli və davamlı bir təhlükəsizlik platformasına çevrilir, qlobal təhlükəsizlik dialoqunda isə daha konstruktiv və etibarlı aktor kimi çıxış edir. TDT-nin qlobal diplomatiya və çoxsahəli əlaqələr sahəsində rolu təşkilatın fəaliyyətinin regional maraqlarla məhdudlaşmadığını göstərir. Beynəlxalq səviyyədə TDT üzv dövlətlərin maraqlarını qorumaqla yanaşı, qlobal sülh və təhlükəsizliyin təşviqinə dəstək verir. Təşkilat BMT, İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq platformalarda aktiv iştirak edərək həm regional, həm də qlobal problemlərin həllinə yönəlmiş strateji təşəbbüsləri irəli sürür. Beyin mərkəzlərinin təqdim etdiyi elmi və analitik məlumatlar bu prosesdə həlledici rol oynayır; onlar qərarvericilərə həm məlumat bazası təqdim edir, həm də regional dinamikanın qlobal kontekstdə necə təsir etdiyini dərin təhlillərin sayəsində göstərir. Belə bir yanaşma TDT-nin diplomatik fəaliyyətini daha məqsədyönlü və effektiv edir, üzv dövlətlər arasında siyasi koordinasiyanı gücləndirir və qlobal idarəetmə strukturları ilə əməkdaşlığı möhkəmləndirir. Nəticədə, təşkilat, həm regional münaqişələrin qarşısının alınmasında, həm də qlobal sülh təşəbbüslərinə töhfə verməkdə etibarlı bir tərəfdaş olaraq çıxış edir.

TDT-nin fəaliyyətində elmi-analitik baza təşkilatın strateji qərarvermə mexanizminin təməlini təşkil edir. Beyin mərkəzləri akademik araşdırmalar aparmaqla yanaşı, regional və qlobal prosesləri sistemli şəkildə təhlil edir, potensial riskləri proqnozlaşdırır və üzv dövlətlərin siyasətinə praktik tövsiyələr təqdim edir. Mərkəzlər, həmçinin münaqişələrin preventiv həlli üçün alternativ ssenarilər hazırlayır və qarşılıqlı anlaşmanı gücləndirəcək strateji platformalar qurur. Nəticədə, TDT-nin diplomatik fəaliyyətini uzunmüddətli sabitliyi təmin edən elmi əsaslı model yaranır. Beyin mərkəzlərinin iştirakı təşkilata strateji çevikliyi verir, çünki onlar informasiya və təhlil mexanizmlərini birləşdirərək üzv dövlətlər üçün operativ qərarvermə imkanları təmin edir. Bütün bunları nəzərə alaraq, beyin mərkəzləri TDT-nin fəaliyyətinin həm elmi, həm də diplomatik sütunlarını möhkəmləndirir, təşkilatın uzunmüddətli məqsədlərinə nail olmasını təmin edir. Son olaraq qeyd edək ki, TDT elmi əsaslı strategiyalar və kollektiv təhlükəsizlik mexanizmləri vasitəsilə qlobal sülh və təhlükəsizliyə aktiv töhfə verən etibarlı aktordur.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# İrəvanın "yol xəritəsi" Bakının razılığı ilə formalaşır

**(əvvəli 1-ci səhifədə)**

Paşinyan adını çəkdiyi ölkələri ölkəsinin strateji tərəfdaşı və dostu sayır. Bu da göstərir ki, Ermənistanın diplomatik uğurları birbaşa rəsmi Bakının maraqları ilə bağlıdır. Yəni İrəvanın diplomatik "yol xəritəsi" Bakının razılığı ilə formalaşır.

Məlum olduğu kimi, Pakistan ötən dövr ərzində Ermənistanı dövlət olaraq tanımamışdı. Lakin avqustun 31-də iki ölkənin münasibətlərində yeni səhifə açıldı. Həmin gün Çinin Tiencin şəhərində Ermənistan və Pakistan arasında diplomatik münasibətlərin qurulması haqqında kommunike imzalandı. Sənədi Ermənistan XİN rəhbəri Ararat Mirzoyan və pakistanlı nazir Məhəmməd İshaq Dar imzalayıb. Bəyanata görə, tərəflər BMT Nizamnaməsinə əsaslanaraq suverenlik və ərazi bütövlüyünə hörmət, təcavüz etməmək, daxili işlərə qarışmamaq və qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərini rəhbər tutacaqlar. Pakistan Azərbaycanla məsləhətləşmələrdən sonra Ermənistanla diplomatik əlaqələr qurmağa başlayıb. Azərbaycan, ABŞ və Ermənistan liderlərinin Vaşinqtonda baş tutan görüşündən sonra İslamabadla müzakirələr aparılıb, bundan sonra təşəbbüs razılaşdırılıb.

Eyni zamanda, sentyabrın 26-da İrəvan və Ər-Riyad arasında siyasi məsləhətləşmələr haqqında sənəd imzalanıb. Ermənistan XİN-in yaydığı məlumatda bildirilir ki, BMT Baş Assambleyasının 80-ci sessiyası çərçivəsində Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan və Səudiyyə Ərəbistanının xarici işlər naziri Faysal bin Fərhan Əl Səud "Ermənistan Respublikası Xarici İşlər Nazirliyi



ilə Səudiyyə Ərəbistanı Krallığının Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələr haqqında" Anlaşma Memorandumu imzalayıblar.

Diqqətə çatdıraq ki, Səudiyyə Ərəbistanının da Pakistan kimi Ermənistanla münasibətləri olmayıb. Bunun əsas səbəbi Ermənistanın işğalçılıq siyasəti idi. Səudiyyə Ərəbistanı Azərbaycanla dostluq münasibətlərini nəzərə alaraq, Ermənistanla diplomatik əlaqə qurmaqdan imtina etmişdi. Prezident İlham Əliyev bu barədə deyib: "Səudiyyə Ərəbistanı nadir ölkələrdəndir ki, erməni işğalına görə Ermənistanla ümumiyyətlə, diplomatik əlaqələr qurmamışdır və bu, Azərbaycan xalqına, Azərbaycan dövlətinə göstərilmiş böyük mənəvi dəstəkdir və qardaşlığın əlamətidir. Azərbaycan xalqı bunu yüksək qiymətləndirir".

Qeyd etmək lazımdır ki, iki dövlət arasında diplomatik əlaqələrin yaradılmasında maraqlı məqamlar olub. 2020-ci ildə Livan vasitəsilə Ermənistan Səudiyyə Ərəbistanına yaxınlaşaraq diplomatik münasibətlər qurmaq niyyətində olub. Lakin o dövrdə qanunsuz erməni hərbi dəstələri Qarabağda qalmaqda davam edirdi. Bu səbəbdən Ər-Riyad daha üç il səbir etdi. ABŞ və Fransa bu məqsədlə Səudiyyə Ərəbistanına müraciət etmişdilər. 2023-cü ildən sonra Səudiyyə Ərəbistanı və Ermənistan arasında müəyyən yaxınlaşma barədə məlumatlar ortaya çıxmağa başladı. Ölkə mediasında yayılan xəbərlərə görə, Körfəz dövləti diplomatik əlaqələrin qurulması ilə bağlı dost və qardaş ölkə kimi bu barədə öncədən Azərbaycana məlumat verib. Bunun qarşılığında Azərbaycan Səudiyyə Ərəbistanına 30 il ərzində İslam dünyası üçün nümunəvi və ədalətli mövqeyinə görə təşəkkürünü bildirib. Görünür, Cənubi Qafqazda yaranan yeni reallıqlar səbəbindən rəsmi Bakı buna etiraz etməyib. Krallıq İslamabad və Ankara kimi Bakının maraqlarını nəzərə alır, buna görə Ermənistanla münasibətlərin inkişafı çox ehtiyatla, Azərbaycanın maraqlarına zidd olmadan aparılır.

Uzun illər təcrid vəziyyətdə qalan Ermənistanın Səudiyyə Ərəbistanına yaxınlaşmaq istəməsinin bir neçə əsas səbəbi var. Səudiyyə Ərəbistanı regionda və dünyada nüfuzlu və təsirli dövlət olduğundan, onunla diplomatik əlaqələrin qurulması Ermənistan üçün böyük əhəmiyyət kəsb edir. Eyni zamanda, Körfəz ölkəsi Ermənistana ticarət və sərmayə baxımından geniş imkanlar təqdim edə bilər. Ermənistan məhz enerji, investisiya və biznes sahələrində əməkdaşlığı inkişaf etdirmək məqsədilə Səudiyyə Ərəbistanına yaxınlaşır. Bundan əlavə, bu əlaqələr İrəvan üçün Türkiyə və digər müsəlman ölkələri ilə münasibətlərdə balans yaratmağa da imkan verir.

### Ekspert rəyi



**İlyas HÜSEYNOV,**
**politoloq**

Vətən müharibəsi və lokal xarakterli antiterror tədbirlərindən sonra Ermənistanın Pakistan və Səudiyyə Ərəbistanı ilə diplomatik əlaqələr qurmaq istiqamətində fəaliyyəti diqqət çəkir. Son vaxtlar bu proses genişlənməkdədir. Şübhəsiz, Azərbaycanın suverenliyinin təmin olunması milli maraqlarımızı gücləndirdi və işğal aradan qaldırıldıqdan sonra Ermənistanın Azərbaycanın mövqeyini dəstəkləyən iki böyük müsəlman dövləti – Pakistan və Səudiyyə Ərəbistanı ilə diplomatik əlaqələr qurmasını Bakı izləyir. Eyni zamanda, Türkiyə ilə Ermənistan arasında da təmasların artdığı məlumdur.

Bu proses kommunikasiya kanallarının açılması və diplomatik münasibətlərin inkişafı ilə müşahidə olunur. Baxmayaraq ki, Ermənistanla Pakistan və Səudiyyə Ərəbistanı arasındakı təmaslar genişlənir və bu, regional siyasətə müəyyən qədər təsir göstərir, amma hələ də Azərbaycan və Ermənistan arasında yekun sülh müqaviləsi yoxdur. Ermənistan hələ də Azərbaycanın tələblərini tam yerinə yetirməyib və konstitusiyasında zəruri dəyişikliyi aparmayıb.

Buna baxmayaraq, Azərbaycan Ermənistanın Pakistan və Səudiyyə Ərəbistanı ilə diplomatik əlaqələrinə etiraz etmir. Bu yanaşma regional sabitliyin möhkəmlənməsi, tərəfdaşlıq münasibətlərinin inkişafı və geniş coğrafiyada ticarət-iqtisadi əlaqələrin davamlı olmasına xidmət edir.

Ermənistan Səudiyyə Ərəbistanına yaxınlaşmaqla diplomatik nüfuzunu artırmaq, iqtisadi imkanlar əldə etmək və regional balans yaratmaq istəyir. Bu əlaqələrin davamlılığı İrəvanın sülh prosesinə münasibətindən asılı olacaq. Və bu amil Türkiyə ilə münasibətlərə də aiddir. Son vaxtlar iki ölkə arasında siyasi dialoq intensivləşsə də, Türkiyə XİN rəhbəri son açıqlamasında bəyan edib ki, sülh sazişinə son imzalar atıldıqdan sonra Türkiyə ilə Ermənistan arasındakı normallaşma sürətlənəcək.

***Musa BAĞIRLI***
***XQ***

**Bu günlərdə Avropa Komissiyasının sədri Ursula Fon der Lyayen Avropa İttifaqının (Aİ) "İllik məruzəsini" təqdim edib. "Le Monde" nəşrinin yaydığı məlumata görə, Lyayenin çıxışı daha çox müdafiə və təhlükəsizlik məsələlərinə yönəlib. Gündəlikdə bir neçə mühüm təklif müzakirə olunub ki, bunlara Aİ daxilində müdafiə komissarının təsis edilməsi, sənaye üçün əlavə maliyyələşdirmə və böhranlarla yanaşı, təhlükələrə qarşı Avropanın dayanıqlılığını artırmaq məqsədilə yeni "Hazırlıq İttifaqı"nın yaradılması daxildir. Avrokomissiya sədrinin məruzəsi zamanı pərdəarxası diqqətçəkən təşəbbüslərdən biri "Hazırlıq 2030" (Readiness) planıdır. Bu proqram əvvəlki "ReArm Europe" təşəbbüsünün davamı hesab edilir.**

# Avropada təhlükəsizliyin strateji prioritetləri

## *Aİ müdafiə sənayesi üçün xüsusi maliyyələşmə mexanizmi yaradır*

Ad dəyişikliyi ilk baxışda formal görünsə də, əslində, beynəlxalq aləmə ciddi mesaj verir. Yeri gəlmişkən, "ReArm" militarist çağırış kimi səsləndiyindən bundan öncə bəzi üzv dövlətlərdə narahatlıq doğururdu. Həmin ifadənin militarist çağırış kimi səslənməsinin səbəbləri isə Avropanın tarixi yaddaşı, siyasi mədəniyyəti və ictimai psixologiyası ilə sıx bağlı idi. Termin birbaşa "yenidən silahlanma" mənasını daşımaqla İkinci Dünya müharibəsindən öncə Almaniyanın silahlanma siyasəti ilə əlaqələndirilirdi. Halbuki Avropada bu, aqressiv niyyətlərin, potensial ekspansiyanın və silahlanma yarışının simvolu kimi qəbul edilir. Siyasi müstəvidə də terminin həssaslığı bir çoxlarına bəllidir. Avropa İttifaqında neytral mövqe saxlayan dövlətlər üçün "ReArm" ritorikası müdafiədən çox hücuma hazırlıq mesajı verirdi. Belə çağırışlar ictimai dəstəyin itirilməsi, populist qüvvələrin güclənməsi və hətta daxildə parçalanmaya səbəb ola bilərdi. Hərbi ritorikanın ictimai legitimlik baxımından zəif olması isə Aİ-nin təhlükəsizlik və müdafiə strategiyasını ciddi suallar altında qoyurdu. Bu səbəbdən proqramın adı "Readiness" olaraq dəyişdirildi. "Hazırlıq" anlayışı böhranlara çevik reaksiya vermək qabiliyyətini, təhlükəsizlik və dayanıqlılığın gücləndirilməsini ifadə edir. Bu fakt müdafiə mövzusunun Aİ daxilində hələ də həssas olduğunu təsdiqləyir. Məsələn, ötən il Aİ ölkələrinin ümumi müdafiə xərcləri 326 milyard avroya çatıb ki, bu, son üç il ərzində 100 milyard avrodan çox artım anlamına gəlir. Lakin xərclərdəki kəskin yüksəliş müdafiə qabiliyyətində nəzərəçarpacaq nəticə yaratmayıb.



Dövlətlər öz maraqlarını qorumağa üstünlük verdiyi üçün paralel istehsal xətləri və bir-biri ilə rəqabət aparan sistemlər meydana çıxır. Bu şəraitdə əlavə maliyyələşmə də siyasi iradə və koordinasiya olmadan real dəyişikliklərə yol aça bilmir. Məsələni mürəkkəbləşdirən başqa bir amil isə qərarların qəbuletmə mexanizmidir. Xarici siyasət və təhlükəsizliklə bağlı istənilən qərarı hər bir üzv dövlət bloklaya bilər. Çoxluq səsverməsinə keçid nəzəri baxımdan məntiqli görünsə də, siyasi reallıqda bu variant hələlik əlçatan deyil. Daha praktik alternativ isə irəliləməyə hazır ölkələrin "kiçik koalisiyalar" formatında hərəkət etməsidir. Müqavilələr bu imkanı tanıyır, lakin mexanizmin işə salınması nadir hallarda baş verir. Mərkəzləşdirilmiş bir alıcı ilə vahid Avropa müdafiə bazarının formalaşması isə hələ uzaq perspektiv olaraq qalır. Çünki üzv dövlətlər öz milli sənayelərindən imtina etməyə meyilli deyillər. Bununla belə, ortaq sursat və hava hücumundan müdafiə proqramları real imkanlar yaradır. Bu sahələrdə həm təcili ehtiyac mövcuddur, həm də milli simvolizmin çəkisi nisbətən zəifdir. Burada atılacaq addımlar gələcəkdə daha geniş inteqrasiyanın qapısını aça bilər. Ümumiyyətlə, maliyyələşmə məsələsi müdafiə üçün həlledici rol oynayır. Gecikmiş təhvilvermələrə görə cərimələrin tətbiqi praktiki çətinliklərlə üzləşsə də, çoxillik satınalma zəmanətləri hələ də effektiv mexanizm hesab olunur. Bu yanaşma istehsalçılara sabitlik vəd edir və üzv dövlətlərə daha sərfəli qiymət, təchizat təhlükəsizliyi verir.

Lyayenin məruzəsində texnologiya sahəsində iddiaların böyüklüyü də nəzərə çarpır. Amma konkret strategiyanın hələ formalaşmaması müəyyən əngəllər yaradır. Bundan başqa, süni intellekt mövzusunun geniş müzakirə olunmasına baxmayaraq, tətbiq planları məhduddur. İndiki şəraitdə məqsədəuyğun yanaşma ikili təyinatlı tətbiqlərə – logistika, texniki xidmət və kiber aşkarlama sahələrinə fokuslanmaq ola bilər. Əsas səbəb isə istiqamətlərin daha az mübahisəli olması və sürətli nəticə verə bilməsidir. Ortaq sınaq infrastrukturu innovasiyaları sürətləndirə və xərcləri əhəmiyyətli dərəcədə azalda bilər.

Ən vacib məsələ isə siyasi iradənin mövcudluğudur. Bu gün qurum Ukraynada müharibə, kiberhücumlar, dezinformasiya, enerji və miqrasiya təzyiqləri ilə üz-üzədir. Aİ-nin müdafiə sahəsində kənardan asılılığı hələ də qalır. Əsas məqsəd NATO-dan ayrılmaq yox, təşkilat daxilində daha çox məsuliyyət daşımaqdır. Sursat, hava hücumundan müdafiə, logistika və elektron müharibə sahələrinə qoyulan sərmayələr Avropanın bu prosesdə rolunu gücləndirə və ABŞ-ın yükünü bir növ yüngülləşdirə bilər.

Sonda onu da qeyd edək ki, Avropanı qarşıdakı illər ciddi sınaq gözləyir. Ursula Fon der Lyayenin irəli sürdüyü təşəbbüslər göstərir ki, Aİ real addımlar atmaq niyyətindədir. Lakin çağırışların gerçəkliyə çevrilib-çevrilməyəcəyi üzv dövlətlərin prosesə hazır olub-olmamasından asılıdır. Əks təqdirdə, bütün plan və proqramlar, sadəcə, kağız üzərində qalan vədlərə çevriləcək. Maraqlı sualdır: Aİ daxildə möhkəmləndirəcək, yoxsa yalnız strateji hədəflərlə kifayətlənəcək?

***Nəzrin ELDARQIZI***
***XQ***

### Ekspert rəyi



**Tural İSMAYILOV,**
**politoloq**

Avropa İttifaqı "İllik məruzə"sini təqdim etməklə müdafiə siyasətində yeni dövrün başlandığını göstərdi. Hesabat Avropanın strateji müstəqillik hədəflərini praktik addımlarla dəstəkləməyə yönəlir və yeni müdafiə mexanizmlərini ortaya qoyur. Yeni mexanizmlər Aİ-nin xarici texnologiyalardan asılılığını azaltmaqla yanaşı, Avropanın qlobal geosiyasi mövqeyini möhkəmləndirməyə xidmət edir. Avropa Müdafiə Fondu innovativ hərbi texnologiyaların inkişafını sürətləndirəcək, üzv ölkələr arasında hərbi sənaye əməkdaşlığını gücləndirərək texnologiya transferi və bilik paylaşımını asanlaşdıracaq. Asılılığın azalması həm iqtisadi səmərəliliyi, həm də strateji üstünlüyü artıracaq, yerli istehsal imkanlarının genişləndirilməsi isə müstəqil qərar qəbulunu təmin edəcək.

NATO ilə koordinasiya mexanizmləri də Aİ-nin təhlükəsizlik siyasətinə çeviklik qazandırır. Hərbi planlamada birgə strategiya isə regional sabitliyi möhkəmləndirir. Xarici təsirlərdən asılılığın minimuma endirilməsi Aİ-nin rəqabət qabiliyyətini yüksəldir. Bu çərçivədə kibertəhlükəsizlik və məlumat mühafizəsi sahəsində yeni təşəbbüslər reallaşdırılır, strateji planlaşdırmada çeviklik Avropanın təcili hərbi və texnoloji reaksiyalarını təmin edir. Proaktiv müdafiə siyasəti, öz növbəsində, Avropa ölkələrinin geosiyasi risklərə qarşı mövqeyini gücləndirir. Texnoloji investisiyaların koordinasiyası innovasiya ekosistemini canlandıracaq, startaplar və tədqiqat mərkəzləri yeni müdafiə texnologiyalarının inkişafında mühüm rol oynayacaq.

Hərbi və texnoloji sahədə asılılığın azaldılması həm iqtisadi, həm də sənaye üstünlükləri təmin edir, Avropa Müdafiə Fondunun resursları isə daha səmərəli istifadə olunur. Regional əməkdaşlıq Aİ-nin qlobal diplomatiya və təhlükəsizlik siyasətini gücləndirir, müdafiə resurslarının birləşdirilməsi daxili koordinasiyanı və effektivliyi artırır. Nəticə etibarilə, yeni mexanizmlər Aİ-nin həm geosiyasi, həm iqtisadi, həm də texnoloji müstəqilliyini möhkəmləndirir və Avropanı qlobal səhnədə daha dayanıqlı aktora çevirməyi hədəfləyir.




## IV MƏQALƏ

### Qlobal “fırtınalar” dönəmi

İndi demək olar ki, hər kəs bir qədər qəribə və şişirdilmiş görünən “qlobal fırtınalar” və buna bənzər ifadələri müasir dünyanın “geosiyasi nəbzi” kimi qəbul edir. Dünyanın elə bir regionu yoxdur ki, öncəki dövrlərə nisbətən, doğrudan da fırtına kimi görünməsin. Bunu artıq insan psixologiyası müasir dövrün standart mənzərəsi kimi təsəvvür edir. Türk cəmiyyətləri və Türk Dövlətləri Təşkilatı (TDT) Avrasiyada bu dinamikanın tam ortasındadır.

Birincisi, ona görə ki, türk xalqlarının dövlətləri az deyildir. Onlar coğrafi olaraq vahid məkanda yerləşirlər. Yaxın Şərqdən və Balkanlardan başlamış Uzaq Şərqə qədər çox geniş coğrafiyada mövcuddurlar və həm də həmin ərazi geosiyasi məkan olaraq qiymətləndirilir. Avrasiyada bu sayda və coğrafi sərhədləri geniş olan ikinci etnos yoxdur. Bunu inkar edənlər belə özlərinə inanmırlar. Bu qitədə hansı istiqamətə baxsan türk dövlətçiliyinin, mədəniyyətinin, həyat tərzinin, sosiallığının izini görəcəksən. Təəssüf ki, bu gerçəkliyi ədalətliliklə dəyərləndirməyənlər mövcuddurlar.

İkincisi, Türk cəmiyyətləri, hətta XXI əsrin keşməkeşli həyatında yüksək passionarlıqlarını saxlayırlar. Gənc təbəqənin dinamik və aktiv olması, türk insanının çalışqanlığı, torpağa bağlılığı, adət-ənənəsinə, ədalətə və törəyə sadiqliyi onu digərlərindən fərqləndirir.

Üçüncüsü, Türk coğrafiyası bir neçə dövlətqurucu etnosların əhatəsindədir. Bu da böyük və güclü dövlətlərin həm türklərə marağını, həm də onunla rəqabət hissini artırır.

Dördüncüsü, bir neçə güclü və zəif dövlətlərin siyasi xəritəsi daxilində türk toplumları vardır. Onların hüququ və haqqı məsələsi çox həssas məqama çevrilmişdir.

Beşincisi, Türk dövlətlərində müsəlman əhali mütləq əksəriyyəti təşkil edir. Bu da istər-istəməz türk xalqlarını dini rəqabət meydanına atır.

Altıncısı, türk dövlətləri XXI əsrdə dinamik inkişaf edənlər sırasındadırlar. Açıq-aşkar onların geniş geosiyasi və coğrafi məkana təsirləri hiss olunur. Bunun ən qatı əleyhdarları belə əmindirlər ki, “artıq türklərsiz olmaz”.

Nəhayət, Avrasiya məkanında son 40 ildə yalnız bir türk dövləti – Azərbaycan, ərazi bütövlüyünü təkbaşına siyasi-hərbi yolla bərpa etdi və bununla Cənubi Qafqazın 300 illik geosiyasi tarixində yeni mərhələnin əsasını qoydu!

Bunların fonunda TDT üçün ciddi siyasi və geosiyasi əhəmiyyəti olan bir proses də özünü göstərməkdədir.

### Təşəbbüskar və fəal türk dövləti – Azərbaycan

Ulu öndər Heydər Əliyev keçən əsrin 90-cı illərində “Azərbaycan dünyaya Günəş kimi doğacaq!” dedi, çoxları inanmadı. “Bir millət, iki dövlət” kəlamının fonunda türk dövlətlərini birləşdirməyə başladı, elə də ciddiyə almadılar. Ulu öndər Ki-Vestdə ABŞ başda olmaqla həmsədrlərə və Ermənistana meydan oxudu, bir az təəccübləndilər. Prezident İlham Əliyev enerji strategiyasını dönmədən həyata keçirdi və beynəlxalq tədbirlərdə “Azərbaycan elə və ya belə ərazi bütövlüyünü təmin edəcək” söylədi, yenə də birtəhər qəbul etdilər. Və bütün bu şübhələri, saymazlıqları və “yan baxışları” İlham Əliyevin liderliyi və Ali Baş Komandanlığı ilə cəmi 44 günə Azərbaycan dövləti bədxahlara “yedirtdi”!

2020-ci il Noyabrın 9-u gecə Azərbaycanın dünyaya Günəş kimi parlamasından gözləri qamaşaraq ayıldılar! Lakin onlar üçün artıq gecdi, çünki qarşılarında hər addımını incəliyinə qədər ölçüb-biçən, yanında Türkiyə və Pakistan kimi güclü qardaşları olan, yumruq kimi birləşmiş, xalqına tam güvənən güclü Azərbaycan, onun məharətli, qətiyyətli, yüksək zəkalı Lideri vardı!

### Türk dövlətçiliyi ənənəsinin ikinci nəfəsi

Qlobal geosiyasət baxımından əslində türk dünyasında və ayrıca türk dövlətçilik tarixində nə baş vermişdi? Cənubi Qafqazın Türk dövləti və ərazicə özünün güclü sayanlardan çox kiçik olan Azərbaycan Respublikası özünün milli taleyini dəyişmişdi, bu əsasda regionun taleyini yeniləmişdi və hər iki məqam qlobal geosiyasətə yeni nəfəsi gətirəcəkdi! Bütün bunların təməl faktoru isə faktiki olaraq Azərbaycanın son 300 ildə “nəfəsi daralmış” türk dövlətçiliyinə yeni nəfəs verməsi ilə bağlıydı! Bunu əslində, 2009-cu ildə türk dövlətlərinin Naxçıvan Bəyannaməsinin mətnindən və ruhundan anlamağa başlamışdılar. Vətən müharibəsi onun siyasət, diplomatiya, informasiya və hərb meydanında əyani sübutu oldu.

Buna görə də Mərkəzi Asiya dövlətlərinin İkinci Qarabağ müharibəsindən sonra fəallaşmaları və xüsusilə, Azərbaycana diqqətlərini artırmaları güclü dövlət ənənəsi və inkişafı olan böyük dövlətlərə mənzərəni aydın ifadə edirdi. Bizlərin sırasında hadisənin dövlətçilik baxımından möhtəşəmliyini anlamayanlar ola bilərdi, lakin təcrübəli güclü rəqiblər üçün qaranlıq bir məqam qalmamışdı: Türk dövlətçiliyinə yeni nəfəsi Azərbaycanın qələbəsi verdi!

### Tarixi Bəyannamə

Gözlənildiyi kimi oldu: Azərbaycan və Türkiyə türk dövlətləri inteqrasiyasının ana sütunu olduqlarının hüquqi təsbiti olan Şuşa Bəyannaməsini imzaladılar. Sonrakı mərhələdə Şuşada TDT-nin tarixi zirvəsi və Laçında Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli zirvəsi baş tutdu. Vurğulanan kontekstdə Şuşa Bəynannaməsi “bir millət, iki dövlət” fəlsəfəsinin türk birliyi modelinin siyasi-hüquqi təsbiti və təməl platforması oldu. Bu həqiqət TDT çərçivəsində görülən işlərə qətiyyən kölgə salmır, əksinə, iki qardaş dövlətin münasibətlərini konkret və dəqiq siyasi-hüquqi çərçivədə qurması ilə müstəqil dövlətçilik aspektinə nə qədər yüksək dəyər verdiklərinin əyani ifadəsidir.

Onu çox yaxşı ki, Mərkəzi Asiyadakı qardaş dövlətlərimiz və Pakistan gözəl anladılar. Məhz həmin səbəbdən həm TDT daxilində inteqrasiya, həm də ikitərəfli və üçtərəfli əməkdaşlıq platformaları türk dünyasının sivil əsaslarla birləşmək gücünü ortaya qoydu. Detalları hamı bilir. Yalnız onu vurğulayaq ki, Şuşa Bəyannaməsi olmasaydı, vurğuladığımız faktların heç biri olmayacaqdı.

### Sadə məntiqi nəticə

Adi gözlə belə görünür ki, Türk dünyasının inteqrasiyasının təməlində Azərbaycan-Türkiyə münasibətləri və onun siyasi-hüquqi təmini olan Şuşa Bəyannaməsi dayanır! Əgər bu münasibətləri poza bilsən, bütövlükdə TDT-ni də tarixin arxivinə ata bilərsən. Bunu Azərbaycan və Türkiyə siyasi və informasiya dairələri ilə yanaşı, hər bir türk dövlətinin vətəndaşları da ciddiyyətlə qəbul etməlidirlər. Artıq düşmənlər də həmin həqiqəti qəbul etmədiklərinin siqnallarını açıqca verirlər. Hazırda TDT ətrafında baş verənlərin gizli məntiqi də onu sübut edir. Faktlara baxaq.

### Əliyev–Ərdoğan görüşlərindən sonra informasiya təxribatları

Son illər Azərbaycan və Türkiyə prezidentlərinin elə bir təkbətək görüşü olmamışdır ki, onlardan sonra bir sıra dairələrin “kürkünə birə daraşmasın”! Əlaməti belədir: dərhal KİV və bir sıra “etibarlı diplomatik mənbələr” birbaşa görüşün adını çəkmədən Azərbaycanla Türkiyə arasında bir-birinə inamsızlıq mühiti yaratmağa çalışırlar. Onun da konkret informasiya təzahürü çeşidli olur. Məsələn, Türkiyədə bir sıra siyasi kəsimlər və KİV “etibarlı mənbələrə” və “tutarlı arqumentlərə” istinad edərək Azərbaycanı ittiham edirlər.

Eyni ssenari Azərbaycan informasiya mühitində peyda olur. Ümumi görüntü belə olur: Azərbaycan və Türkiyə informasiya məkanında bir-birinə inamsızlıq, etibarsızlıq əhvali-ruhiyyəsi mövcuddur! Çox təəssüf ki, bu təxribatçı və əsassız təhriklərə bəzən hər iki dövlətin ciddi jurnalistika dairələri də uyurlar və axına qoşulub, kim daha güclü ittiham edə bilər yarışına girişirlər. Adi vətəndaş isə bunlardan çaşa bilər və real mənzərəni görməyə bilərlər.

Ancaq bu şər prosesində maraqlı bir cəhət vardır. Hər iki tərəfdən ciddi arqument gətirəni yoxdur. Məsələn, türkiyəlilər “İsraili müdafiə edirsiniz” kimi absurd xəbər yayırlar (onlar ya qatı dini radikal dairələrə, ya da saxta demokratlara yaxın olanlardırlar), azərbaycanlılar isə “sizin seriallara baxmırıq” və ya filan vaxtı siz niyə belə hərəkət etdiniz” kimi cavablar yazırlar. Olur ki, qərəzlər və sifarişlərlə bir-birini ittiham edən “təhlil məqalələri” dərc edilir.

Təmkinli oxucu bunun əsassız olduğunu görür. Lakin başlıca səbəb ondan ibarətdir ki, iki qardaş dövlətin bir-birinə inamına, sarsılmaz dəstəyinə və strateji birliyinə nə Azərbaycanda, nə də Türkiyədə inanan yoxdur! Ola da bilməz, çünki Azərbaycan və Türkiyə ciddi dövlətlərdirlər və Şuşa Bəyannaməsinə imza atan liderlər dünya miqyasında vədlərinə tam əməl edən siyasətçilər kimi qəbul olunurlar.

Bundan başqa, TDT çərçivəsində aparılan işlər, dünya miqyasında Azərbaycan-Türkiyə tandeminin atdığı addımlar yuxarıda vurğulanan mənfi məqamların cəfəngiyyat olduğunu ortaya qoyur.

Azərbaycan və Türkiyə iki qardaş dövlət olaraq imkan verməzlər ki, kimsə aralarına girə bilsin və bütövlükdə türk birliyinə zərər verilsin. Bu məsuliyyəti hər iki dövlətin rəhbərliyinin tam qəlbdən qəbul etdiklərinə bizlərin zərrə qədər də şübhəsi yoxdur!

### TDT Azərbaycan sammiti öncəsi

Oktyabr ayında Azərbaycanda TDT-nin çox mühüm sammiti gözlənilir. Bu Zirvə görüşünün tarixi olacağına şübhəmiz yoxdur. Türk Dövlətləri Təşkilatı üzərinə düşənləri dəqiq müəyyən edib, uyğun qərarlar verəcək. Azərbaycan və Türkiyənin rəsmi dairələri zaman-zaman bu barədə mediaya informasiyalar verirlər.

Deməli, bütün Türk dünyası və ayrıca TDT üçün tarixi məqam qarşıdadır. Yenə də Əliyev-Ərdoğan görüşünün bəhrələri altında əzilməkdən qorxan bədxah dairələrin müxtəlif informasiya təxribatları meydana gələ bilər. Əslində onların bir qismini sentyabr ayı boyunca hiss etdik. Ancaq bu zavallılar anlamırlar ki, qarşılarında dünyanın şər qüvvələrinə hər sahədə meydan oxuyan iki güclü türk dövləti və onların müdrik liderləri dayanmışdır. İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan nə etdiklərini çox gözəl bilirlər. Nə Türkiyədə fetöçular və saxta demorkatlar, liberallar, “neçəncisə kalonlar”, nə də Azərbaycanda onlara züy tutanlar bu möhtəşəm qardaşlığa zərər verə bilməzlər.

O cümlədən Azərbaycan üçün “Türkiyə, yoxsa İsrail” dixotomiyası kimi əsassız və saxta seçim görüntüsü yaratmağa cəhd edənlər özlərinə cəfa verməsinlər! Çünki İsrail həmişə Azərbaycanın dostu və əməkdaşlıqda tərəfdaşı olmuşdur və daima da olacaq. Bunun nə İrana, nə də Türkiyəyə ziyanı dəyə bilməz. Azərbaycan müstəqil dövlətdir. Türkiyə Azərbaycanın müasir tarixi mərhələdə bənzəri olmayan strateji müttəfiqi və etnik-mədəni baxımdan qardaşıdır. Bu da daima belə olacaq!

İrana gəldikdə isə Azərbaycan dövləti və azərbaycanlılar üçün çox yaxın və qiymətli dəyərdir. Azərbaycandan İrana heç zaman hansısa ziyan dəyə bilməz! Xüsusilə Prezident Məsud Pezeşkianın atdığı müsbət addımlar fonunda bu barədə danışmaq absurddur. Kimlərsə, kənardan məzhəb bəhanəsindən istifadə etməyə çalışar. Lakin azərbaycanlılar məzhəbpərəst olmamışlar və olmayacaqlar da!

Bütün bunlardan ümumi nəticə çıxara bilərik. Azərbaycan cəmiyyətində ən yaxın müttəfiqlərinə, qonşularına və tərəfdaşlarına qarşı təxribatçı informasiyalar yaymağa çalışırlar.

Bizlər çox təmkinli və dövlətçi olmalıyıq. Azərbaycan dövlətinə sadiq olanlar ölkənin heç bir qonşusu ilə pis münasibətdə olmasını istəməz.

Ayrıca, Türkiyə bizim yalnız çox qiymətli qardaşımız deyil, həm də etibarlı və güclü strateji müttəfiqimizdir. Onunla bərabər Pakistan vazkeçilməz qardaşımız və dostumuzdur, Rusiya güclü qonşumuz və strateji müttəfiqimizdir, İran qəlbində bir parçamızı daşıyan mənəvi-mədəni dəyərimiz, dövlətçiliyimizin qədim məkanıdır.

İndi düşünək: kimləri kimlərə dəyişməyi istəyə bilərik? Müdrik Azərbaycan xalqı və dövləti üçün belə bir sual yoxdur – o, seçimini çoxdan etmişdir!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***




# Böyük Türk ailəsinin yeni erası

**(əvvəli 1-ci səhifədə)**

Türk dövlətlərinin yerləşdiyi geniş Avrasiya məkanı – Qafqazdan Mərkəzi Asiyaya, Anadoludan Xəzərin şərq sahillərinə qədər uzanan strateji coğrafiya – nəqliyyat, enerji və mədəni-humanitar əlaqələr üçün misilsiz imkanlar yaradır. Bu coğrafiya dünyanın ən mühüm ticarət marşrutlarının kəsişməsində yerləşir və faktiki olaraq Avropa ilə Asiya arasında körpü rolunu oynayır. Xüsusilə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu və Şərq–Qərb dəhlizi kimi layihələr region dövlətləri arasında diplomatik və siyasi inteqrasiyanın dərinləşməsinə xidmət edir.

Bu layihələr həm də yeni reallıqlar fonunda risklərin kollektiv qiymətləndirilməsini, təhlükəsizlik infrastrukturunun müasirləşdirilməsini tələb edir. Çünki nəqliyyat dəhlizlərinin təhlükəsizliyi yalnız iqtisadi deyil, həm də siyasi məsələdir. Bu baxımdan türk dövlətlərinin birgə hərəkəti vacibdir: logistika zəncirlərinin qorunması üçün birgə monitorinq sistemlərinin yaradılması, sərhəd-keçid prosedurlarının rəqəmsallaşdırılması və təchizat xətlərinin diversifikasiyası prioritetdir.

Sülh təşəbbüsləri də bu strateji xəttin ayrılmaz hissəsidir. Azərbaycan və Ermənistan arasında avqustun 9-da Vaşinqtonda imzalanmış Birgə Bəyannamə region üçün fundamental dönüş nöqtəsi sayılır. Sənəd Cənubi Qafqazda 30 illik münaqişədən sonra ilk dəfə real və davamlı sülh perspektivini təmin edir. Sülhün bərqərar olması nəqliyyat kommunikasiyalarının tam bərpasına, Zəngəzur dəhlizinin (TRIPP) reallaşmasına və Orta Dəhlizin tranzit potensialının 50 faizdən çox artmasına şərait yaradır.

Eyni zamanda, Xəzərdən Avropaya uzanan “yaşıl enerji” kabeli layihəsinin təhlükəsiz icrası üçün sabit mühit təmin edir. Bu isə Avropanın enerji bazarında Azərbaycanın payını əhəmiyyətli dərəcədə yüksəldir.

Konfransda müzakirə olunan bütün mövzular bir məntiqi xətt üzrə göstərdi ki, Türk Dövlətləri Təşkilatı yalnız ideya və ortaq mədəniyyət birliyi deyil, həm də konkret siyasi, iqtisadi və təhlükəsizlik mexanizmləri olan təsirli regional aktordur. Təşkilatın üzv dövlətləri arasında inteqrasiya, həmrəylik və strateji koordinasiya, xüsusilə enerji və nəqliyyat sahələrində həyata keçirilən layihələr, həm iqtisadi inkişaf, həm də siyasi sabitlik üçün mühüm zəmin yaradır. TDT-nin gücü real addımların icrasında, risklərin birgə qiymətləndirilməsində və pilot layihələrin həyata keçirilməsindədir. Təşkilat Mərkəzi Asiyanı, Qafqazı və Anadolunu birləşdirən strateji körpü funksiyasını yerinə yetirir, üzv dövlətlər arasında qarşılıqlı etimadın möhkəmlənməsinə xidmət edir və Türk dünyasının qlobal siyasətdə mövqeyini daha da gücləndirir. Artıq TDT həm regional sabitlik, həm də qlobal əməkdaşlıq baxımından önəmli platformaya çevrilib və gələcəkdə bu rolun daha da genişlənməsi gözlənilir.

Gələn ay Azərbaycanın ev sahibliyi edəcəyi Türk Dövlətləri Təşkilatının liderlər sammiti Türk dünyasının ortaq problemlərini həll etmək baxımından mühüm dayanacaq olacaq. Xatırlatmaq yerinə düşər ki, hələ də türk dövlətləri arasında vahid dil və əlifba yoxdur. İlham Əliyevin öz çıxışlarında dediyi kimi, Türk dünyası bir ailədir. Ailədə isə hamı eyni dildə danışır. Beləliklə, TDT-nin növbəti görüşləri onun ətrafında birləşən ölkələrin birgə hərəkət etməsi üçün platforma rolunu oynayacaq.

***T.ARAZOĞLU***
***XQ***

### Ekspert rəyi



**Fərid ŞƏFİYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi İdarə Heyətinin sədri**

Türk Dövlətləri Təşkilatının (TDT) builki Zirvə görüşünün Azərbaycanda keçirilməsi həm təşkilatın, həm də Azərbaycanın regiondakı artan nüfuzunun bariz göstəricisidir. Bu, TDT-nin beynəlxalq münasibətlər sistemində özünə daha ciddi yer qazandığını nümayiş etdirən mühüm hadisə kimi dəyərləndirilir. TDT-nin ən böyük üstünlüklərindən biri üzv dövlətlər arasında əməkdaşlığın bərabərhüquqluluq prinsipi əsasında qurulmasıdır ki, bu da təşkilatı digər regional platformalardan fərqləndirir və ona daha inklüziv və dayanıqlı xarakter verir.

TDT Zirvə görüşlərindən əvvəl beyin mərkəzlərinin Bakıda toplaşaraq mütəmadi görüşlər keçirməsi artıq ənənəyə çevrilib. Bu görüşlərin davam etdirilməsi təşkilatın Zirvə görüşlərinin yekun bəyannamələrində dövlət və hökumət başçıları tərəfindən rəsmi tapşırıq kimi təsbit olunub. İndiyədək 10 belə görüş və konfrans keçirilib və Bakıda təşkil olunan XI konfrans həm ekspertlərin fikir mübadiləsi aparması, həm də ortaq mövqelərin formalaşdırılması üçün mühüm platforma rolunu oynayır. Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, Türk dünyasının birliyi və inteqrasiyası Azərbaycanın xarici siyasətində xüsusi yer tutur və bu prosesdə fəal mövqe sərgiləmək, mövcud imkanlardan maksimum istifadə edərək ortaq maraqlar ətrafında müzakirələr aparmaq strateji prioritetdir.

Bəzi geosiyasi aktorlar və qüvvələr təşkilatın möhkəmlənməsini və nüfuz qazanmasını istəmir, bu məqsədlə müxtəlif kampaniyalar həyata keçirirlər. Ayrı-ayrı ölkələrin adını çəkmək istəmirəm, amma çox vaxt bu fəaliyyətlər xaricdən koordinasiya olunur. Məqsəd təşkilatın inkişafını ləngitmək, Zirvə görüşlərinin işinə mane olmaq və onun nüfuzuna xələl gətirməkdir. Xüsusilə Azərbaycan hədəfə alınıb, ölkəmizə qarşı dezinformasiya kampaniyaları məqsədyönlü və sistemli şəkildə aparılır. Əvvəllər bu, daha çox Ermənistan–Azərbaycan münaqişəsi kontekstində təqdim olunurdusa, indi Yaxın Şərqdə baş verən hadisələrlə bağlı da ölkəmizə qarşı qarayaxma kampaniyaları təşkil edilir. Biz buna hazır olmalıyıq.

### Ekspert rəyi



**İlham İSMAYILOV,**
**Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzinin sədri**

Türk Dövlətləri Təşkilatı hazırda regional aktordan qlobal aktora çevrilməkdədir. Azərbaycan, Qazaxıstan və Türkmənistan kimi ölkələr zəngin enerji ehtiyatlarına malikdir. Bu resursların dünya bazarına çıxarılmasında TDT üzvləri arasında əməkdaşlıq böyük əhəmiyyət kəsb edir. TANAP, TAP və Bakı-Tbilisi-Ceyhan kimi layihələr məhz bu əməkdaşlığın nəticəsidir. Zəngəzur dəhlizi (TRIPP), Orta Dəhliz, ortaq iqtisadi layihələr, enerji təhlükəsizliyi əməkdaşlığı, rəqəmsal transformasiya və innovasiya sahəsində əməkdaşlıq, təşkilatın beynəlxalq səviyyədə daha nüfuzlu aktora çevrilməsinə imkan verə bilər.

İlk növbədə, Azərbaycan Qafqazda yerləşərək Avrasiya nəqliyyat dəhlizlərinin kəsişməsində duran bir dövlətdir. Zəngəzur dəhlizi (TRIPP) layihəsi həyata keçərsə, Türk dünyasını birləşdirən quru bağlantı mümkün olacaq. Bu, TDT-nin fiziki birliyinin təmin olunmasında ciddi mərhələ sayılır. Bütün bunlar Azərbaycanın həm Qərblə, həm də Türk dövlətləri ilə münasibətlərində vasitəçi və əlaqələndirici rolunu artırır.

Azərbaycanın TDT-də fəal aktor rolu oynamasında dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasət dayanır. Dövlət başçımız TDT çərçivəsində vahid türk mövqeyinin formalaşması, enerji və nəqliyyat birliyi, ortaq media, mədəniyyət və təhsil institutlarının yaradılması kimi təşəbbüslərlə çıxış edir. Məhz Prezidentin uğurlu siyasəti nəticəsində Azərbaycanın BMT, İslam Əməkdaşlıq Təşkilatı və Avropa strukturlarında fəallığı yüksəlib. Bu da Türk dünyasının beynəlxalq səviyyədə təmsil olunmasında faydalıdır. Eyni zamanda, İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan hərbi sahədə təcrübə və imkanlarını artırıb. TDT daxilində ortaq müdafiə və təhlükəsizlik mexanizmləri müzakirə olunarsa, Azərbaycanın hərbi təcrübəsi və modernləşdirilmiş ordusu burada mühüm rol oynaya bilər.

# Paşinyanın diplomatik marafonu

*İrəvan həm Rusiya, həm də Qərb dairələrində möhkəmlənməyə cəhd edir*

**Ermənistan baş naziri Nikol Paşinyanın son günlər diplomatik fəallığı diqqəti cəlb edir. Paşinyanın bu fəaliyyəti ilə həm regional miqyasda, həm də beynəlxalq arenada diqqət mərkəzinə düşüb. Nikol əvvəlcə Moskvada oldu, burada Rusiya rəhbərliyi ilə ikitərəfli münasibətləri müzakirə etdi. Ardınca Rusiya paytaxtından birbaşa Nyu-Yorka uçaraq BMT Baş Assambleyasının 80-ci sessiyasına qatıldı. Yeri gəlmişkən, qeyd edək ki, Paşinyan bu beynəlxalq platformadakı çıxışı ilə Ermənistanın sülh gündəminə dair mövqeyini ortaya qoydu. İndi isə məlum olur ki, Paşinyan Baş Assambleyada iştirakını yekunlaşdıraraq Nyu-Yorkdan Fransanın Strasburq şəhərinə yola düşüb.**



Hayastan baş nazirinin mətbuat xidmətinin yaydığı məlumatda bildirilib ki, N.Paşinyan Avropa Şurası Parlament Assambleyasının payız sessiyasında iştirak etmək üçün sentyabrın 28-dən 30-dək Strasburqda işgüzar səfərdə olacaq. Səfər çərçivəsində Paşinyan sentyabrın 29-da AŞPA prezidenti Teodoros Rusopulos ilə görüşüb. Tərəflər Ermənistan və Avropa Şurası arasında əməkdaşlığın hazırkı vəziyyətini müzakirə ediblər. Paşinyan görüş zamanı Ermənistan hökumətinin Avropa Şurası strukturları ilə səmərəli əməkdaşlığı davam etdirməyə hazır olduğunu vurğulayıb. Həmsöhbətlər vurğulayıblar ki, Ermənistan–Avropa Şurası tərəfdaşlığının dərinləşdirilməsi həm institusional dayanıqlılıq, həm də Avropa hüquq məkanı ilə inteqrasiya prosesləri üçün vacibdir. Görüş zamanı Ermənistan baş naziri və AŞPA prezidenti regional və beynəlxalq məsələlər ətrafında da fikir mübadiləsi aparıblar. Tərəflər avqustun 8-də Vaşinqtonda Ermənistan və Azərbaycan arasında sülh sazişinin paraflandığını vurğulayaraq sülhün bərqərar olunmasının əməkdaşlığın inkişafına və regionda sabitliyin təmin olunmasına yeni və əhəmiyyətli təkan verəcəyinə əminlik ifadə ediblər.

Bundan əlavə, Paşinyan Avropa Şurasının baş katibi Alen Berse, Avropa İnsan Hüquqları Məhkəməsinin sədri Mieda Mattias Qiyomarla görüşüb. O, günün sonuna yaxın jurnalistlərin suallarını cavablandırıb. Nikol bildirib ki, TRIPP (Zəngəzur dəhlizi) məsələsi həm ABŞ, həm də beynəlxalq ictimaiyyətin gündəmində qalmaqda davam edir: "Amerika nümayəndə heyəti bu yaxınlarda Ermənistana səfər edib, müzakirələr başlayıb və davam edəcək. Hazırda konkret razılaşma yoxdur. Məncə, problem Tramp administrasiyasının qlobal gündəliyinə malik olmasındadır. Lakin əmin olun ki, TRIPP həm ABŞ, həm də beynəlxalq ictimaiyyətin diqqət mərkəzində olmaqda davam edir, ona böyük maraq var. Biz hazırda yavaş-yavaş, amma fasiləsiz işləyirik".

Paşinyanın səfər çərçivəsində Avropa Şurasının insan hüquqları üzrə komissarı Maykl O'Flaherti ilə də görüşü planlaşdırılıb. Sentyabrın 30-da Paşinyanın AŞPA-nın payız sessiyasının plenar iclasında çıxış etməsi nəzərdə tutulub.

* * *

Qeyd etdiyimiz kimi, Ermənistan Baş nazirinin son günlərdə nümayiş etdirdiyi diplomatik fəallıq həm regionda, həm də beynəlxalq miqyasda diqqət mərkəzinə düşüb. Son bir həftə ərzində ardıcıl olaraq Moskva, Nyu-York və Strasburq səfərləri edən Paşinyan təkcə Ermənistanın xarici siyasət prioritetlərini ortaya qoymaqla kifayətlənmir, həm də ölkəsinin geosiyasi mövqeyində mümkün dönüşlərə işarə edir. Bu marşrutun özü belə İrəvanın hazırkı vəziyyətində balans axtarışının nə qədər çətin və mürəkkəb olduğunu göstərir. Baş nazirin diplomatik marafonu Moskvadan başladı. Paşinyanın Rusiya rəhbərliyi ilə görüşü bir tərəfdən Ermənistan–Rusiya münasibətlərində son dövrlərdəki gərginliyi yumşaltmaq cəhdi kimi qiymətləndirilə bilər. Moskva səfəri, həmçinin İrəvanın hələ də ənənəvi təhlükəsizlik tərəfdaşını tamamilə itirmək istəmədiyini göstərdi. Lakin bu görüşlərdə diqqətçəkən məqam Paşinyanın Rusiya ilə münasibətlərdə əvvəlki illərin asılılıq ritorikasını deyil, daha çox praqmatik mövqeyi qabartması idi.

Nyu-Yorkdakı çıxışında Paşinyan Ermənistanın sülh gündəliyini vurğulayaraq beynəlxalq platformada ölkəsinin mövqeyini mümkün qədər açıq şəkildə təqdim etməyə çalışdı. Bu, həm avqustun 8-də Vaşinqtonda paraflanmış Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında sazişlə bağlı prosesə beynəlxalq dəstək toplamaq cəhdi, həm də Qərb tərəfdaşları ilə siyasi yaxınlaşma mesajı kimi dəyərləndirilə bilər.

Lakin Paşinyan bununla kifayətlənmədi. BMT sessiyasından sonra onun Strasburqa – Avropa Şurası Parlament Assambleyasının payız sessiyasına üz tutması diplomatik fəallığın növbəti mərhələsi oldu. Buradakı görüşlərdə Paşinyan Ermənistan–Avropa Şurası əməkdaşlığını dərinləşdirməyin vacibliyini önə çəkdi və xüsusilə institusional dayanıqlığın artırılması, Avropa hüquq məkanına inteqrasiya kimi məsələləri qabartdı. Bu, İrəvanın Avropa strukturları ilə yaxınlaşmağa maraqlı olduğuna dair açıq mesaj idi.

Paşinyanın Strasburqdakı çıxışları və görüşləri, həmçinin Ermənistanın beynəlxalq hüquqi və demokratik institutlarla münasibətlərini möhkəmləndirmək cəhdi kimi görünür. Bu, təkcə xarici siyasət jesti deyil, həm də daxili legitimlik qazanmaq və hakimiyyətin sabitliyini təmin etmək üçün atılan addım hesab edilə bilər. Baş nazirin AŞPA prezidenti Teodoros Rusopulos və Avropa Şurasının baş katibi Alen Berse ilə görüşlərində Ermənistan–Azərbaycan sülh sazişinin Vaşinqtonda paraflanmasını xüsusi qeyd etməsi təsadüfi deyildi. Bu vurğular, əslində, Ermənistanın hökumətinin sülh gündəliyinə bağlılığını beynəlxalq tərəfdaşlara göstərmək niyyətindən xəbər verir.

Paşinyanın diplomatik fəallığının intensivləşməsi həm də Ermənistanın geosiyasi mövqeyində yeni reallıqların qəbuluna yönəlmiş addımlar kimi qiymətləndirilir. Moskva–Nyu-York–Strasburq xətti, əslində, Ermənistanın hələ də Rusiya ilə münasibətləri qorumağa çalışsa da, Qərb strukturları ilə əməkdaşlığı genişləndirməyə can atdığını göstərir. Bu siyasət balans axtarışı kimi görünür, lakin əslində, Paşinyanın ölkəsini regional təcriddən çıxarmaq və beynəlxalq hüquq və təhlükəsizlik mühitinə daha sıx bağlamaq cəhdidir.

N.Paşinyanın diplomatik marafonu həm də Ermənistanın daxili siyasi sabitliyinə hesablanmış mesajdır. O, beynəlxalq platformalarda fəallığı ilə həm ölkə daxilindəki tənqidçilərə, həm də xarici tərəfdaşlara göstərmək istəyir ki, Ermənistan müharibədən sonrakı mərhələdə təcrid olunmayıb və tərəfdaşlıq əlaqələri qurmaqda davam edir. Bu yanaşma Paşinyanın liderlik mövqeyini gücləndirmək və ölkəsinin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirmək üçün atılmış strateji addım kimi görünür. Nəticə etibarilə, Paşinyanın ardıcıl diplomatik səfərləri təkcə Ermənistanın xarici siyasətinin dəyişən prioritetlərini deyil, həm də regionda yeni siyasi reallıqların formalaşmasına təsir etmək cəhdini göstərir.

**Ekspert rəyi**



**Ramiyə MƏMMƏDOVA, politoloq**

Nikol Paşinyanın son günlərdəki intensiv diplomatik fəaliyyəti Ermənistanın geosiyasi axtarışlarının yeni mərhələyə qədəm qoyduğunu göstərir. Moskva, Nyu-York və Strasburq səfərləri yalnız protokol ziyarətləri deyil, həm də ölkənin xarici siyasət kursunda balans yaratmaq cəhdlərinin ifadəsidir. Analitiklər qeyd edirlər ki, Paşinyan Rusiya ilə münasibətləri tamamilə kəsmədən Qərb platformalarında möhkəmlənmək istəyir. Bu, xüsusilə sülh sazişinin paraflandığı Vaşinqton görüşündən sonra Ermənistan üçün aktuallaşıb.

Strasburqdakı danışıqlarda Avropa Şurası ilə institusional dayanıqlığın gücləndirilməsi və hüquqi islahatların vurğulanması Ermənistanın Qərb dəyərlərinə yaxınlaşma niyyətini nümayiş etdirdi. Bu isə İrəvanın daxili siyasi legitimlik axtarışının da bir hissəsidir. Ekspertlər hesab edirlər ki, Paşinyanın diplomatik fəallığı həm də ölkənin təcriddən çıxması və beynəlxalq etimad qazanması üçün vacibdir.

Eyni zamanda, bu addımlar Ermənistanın təhlükəsizlik məsələlərindəki ikili asılılığını azaltmaq cəhdi kimi görünür. Paşinyanın diplomatik marşrutu göstərir ki, Ermənistan rəhbərliyi yeni regional balans axtarışındadır və bu istiqamətdə Qərb institutlarının dəstəyini vacib hesab edir. Beləliklə, baş nazirin son səfərləri yalnız xarici siyasət gedişi deyil, həm də ölkənin strateji seçimlərinə dair mesaj kimi qiymətləndirilir.

*Səxavət HƏMİD*
*XQ*

---

# Manasyanın subliminal, "Armenpress"in açıq mesajı

*Rəsmi İrəvan insan hüquqlarını alətə çevirməkdən uzaq durmalıdır*

**Ermənistanın İnsan hüquqları müdafiəçisi, Ombudsman Anahit Manasyan 44 günlük müharibə ilə bağlı özünün sosial şəbəkə hesabında paylaşım edib və bildirib ki, savaş zamanı və ondan sonra baş vermiş kütləvi insan hüquqları pozuntuları minlərlə insanın taleyində dərin iz buraxıb. Əslində, Manasyanın yazdıqlarına əhəmiyyət verməmək olardı. Aydındır ki, o, gündəmə uyğun açıqlama vermək istəyib. Amma...**

"Əmma"sını sonda bildirəcəyik. Hələlik isə deyək ki, erməni ombudsman müharibədən zərər çəkmiş fərdlərin və ailələrin hüquqlarının ardıcıl müdafiəsinə sadiqliyini vurğulayıb. O, həmçinin mandatının bütün alətlərindən istifadə etməklə, insan hüquqlarının aliliyini, ləyaqətli həyat şəraitini, sülh və təhlükəsizlik içində gələcəyin təmin edilməsini mühüm məqsəd kimi qarşıya qoyduğunu açıqlayıb.

Məsələ ondadır ki, Manasyanın toxunduğu mövzu, həqiqətən, həssasdır. Yəni insan hüquq və azadlıqları spesifik mövzudur. Amma məsələni sırf 44 günlük müharibə müstəvisində gündəmə gətirmək, yumşaq desək, yolverilməzdir. Axı müharibə müharibədir və onun dəhşətləri var. Ermənistan o dəhşəti iki və beş il əvvəl yaşadı. Azərbaycan isə...

İki il əvvəl Azərbaycan dövləti Silahlı Qüvvələrimizin keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra Qarabağda yaşayan ermənilərin öz evlərində qalmalarının mümkünlüyünü bəyan etdi. Əlbəttə ki, Azərbaycan vətəndaşı olaraq. Amma rəsmi İrəvan bununla razılaşmadı və nəticədə həmin ermənilərin Ermənistana kütləvi köçü başlandı.

Qarabağ ermənilərinin bu gün də normal yaşam təminatları yoxdur. Halbuki, Azərbaycan dövləti, şəxsən Prezident İlham Əliyev belə bir təminatı verdiyini açıqlamışdı. Dövlətimizin başçısı antiterror tədbirlərindən dərhal sonra xalqa müraciətində məsələyə ətraflı toxunmuşdu. Ermənistan dövləti isə avantüranı nisgilə çevirməyə qərar vermiş, nəticədə ölkəyə xaricdən Qarabağ ermənilərinə yardım adı ilə maliyyə axını olmuşdu. Yəni erməni iqtidarı insanlığı deyil, ambisiyanı seçmişdi. Görəsən, həmin vaxt Ermənistanın Ombudsmen institutu hara baxırdı?

Manasyanın bilavasitə 44 günlük müharibədə insan hüquq və azadlıqlarının pozulması iddiasına gəlincə, onun, yəni Ermənistan dövlətinin təmsilçisi olan bir şəxsin bu haqda danışmağa əsla haqqı yoxdur. Çünki erməni əsgəri suveren Azərbaycan ərazisində ölmüş və ya öldürülmüşdü. İtkin düşənlər də həmçinin. Yeri gəlmişkən, onların bir qrupunun valideynləri və qohumları dünən Ermənistanın Müdafiə Nazirliyinin önündə



aksiya keçirib, övladları barədə məlumat tələb ediblər. Haqlıdırlar. Haqlı olmayan isə saxta sentimentalizmi və populizmi isə salan Manasyandır.

Azərbaycanın müharibə dəhşəti yaşantısına gəlincə, bəli, 44 günlük müharibədə şəhidlərimiz oldu, neçə-neçə vətən övladı sağlamlığını itirdi, yəni bəşəri hüquqlarından məhrum oldu. Niyə? Ona görə ki, Ermənistan işğal həyata keçirmişdi və onlar işğala son qoymaq üçün silaha sarılmışdılar. Manasyan isə gərək sussun, çünki ölkəsinin üzərində işğalçı damğası var. Böyük həqiqət budur.

Böyük və acı həqiqət bir milyona yaxın azərbaycanlının təməl hüquqlarından məhrum olaraq, öz yurd-yuvasından zorla qovulması, çadır şəhərciklərində, vaqonlarda ömür sürməsi, yurd həsrəti ilə canını tapşırmasıdır. Acı həqiqət, obrazlı desək, insan arzularının ölümüdür. Çadır şəhərciklərində, vaqonlarda təkcə insanlarımız yox, onların ümidləri də canını tapşırdı. Neçə-neçə tale puç oldu. Üstəlik, işğal və məhrumiyyət otuz ilə yaxın davam etdi.

İndi erməni ombudsman durub 44 günlük müharibədə insan hüquqlarının pozulmasından danışırsa, yada düşən budur: utanmayasan, oynamağa nə var ki? Əlbəttə, Manasyan paylaşımında Azərbaycanın adını çəkmir, ölkəmizə ittiham yağdırmır, ümumi şəkildə fikir bildirir. Qeyd edək ki, belə yanaşma, erməni iqtidarının son illərdəki tərzidir.

Erməni ombudsman təmsil olunduğu komandadakı digərləri kimi, öz növbəsində subliminal mesaj verir. Diqqəti Azərbaycanın 44 günlük müharibədəki üstünlüyünə yönəldir. Axı tipik erməni düşüncəsinə görə, üstün tərəf əzmelidir. Halbuki, ölkəmiz 44 günlük müharibəni beynəlxalq humanitar hüququn bütün şərtlərini yerinə yetirərək apardı. Ermənistan isə Gəncəni, Bərdəni və Tərtəri, o cümlədən bilavasitə döyüş əməliyyatlarının getmədiyi rayonlarımızı, həmin rayonlardakı mülki obyektləri hədəfə götürdü, dinc əhali içərisində tələfat törətdi. Hələ müharibədən sonra 400-ə yaxın vətəndaşımıza zərər vurmuş mina terroru da var. Görəsən, Manasyan bunlardan danışarmı? Axı insan hüquqları ümumbəşəri mövzu olduğundan, gərək danışsın. Amma sadələvh deyilik, sualımız ritorikdir.

Sonda gələk haqqında söz açdığımız "əmma"ya. Deməli, erməni ombudsman 44 günlük müharibə və insan hüquqları mövzusunu açmaqla, subliminal şəkildə anti-Azərbaycan mesajı verirsə, Ermənistan dövlət informasiya agentliyi olan "Armenpress" Manasyanın sosial şəbəkə paylaşımına arayış olaraq Azərbaycanın 2020-ci il sentyabrın 27-də "Dağlıq Qarabağa qarşı genişmiqyaslı hücuma başlamasından" yazır. "Armenpress", həmçinin bildirir ki, "Ermənistan Respublikasının İstintaq Komitəsinin 2022-ci ilin martında dərc etdiyi məlumatlara görə, Azərbaycanın başladığı təcavüz nəticəsində Dağlıq Qarabağda və Ermənistan Respublikasında 3822 hərbi qulluqçu və mülki şəxs həlak olub".

Yaxın "Azərbaycanın başladığı təcavüz" və "Dağlıq Qarabağ" ifadələrinə diqqət yetirdiniz. Bu fikri tirajlayan Ermənistanın dövlət agentliyidirsə, istər baş nazir Nikol Paşinyanın, istərsə də ölkənin digər rəsmilərinin Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tanınmasına dair bəyanatları əhəmiyyətini itirir. Belə çıxır ki, həmin bəyanatlar riyakarlıqdan başqa bir şey deyil. Rəsmi İrəvan bu cür riyakarlıq əməllərinin Cənubi Qafqazda sülh gündəminə zərər vurduğunu anlamalıdır.

Erməni iqtidarının təmsilçiləri, ən azından, ölkələrində revanşizmə və şovinizmə köklənmiş xəstə kəsimin mövcudluğunu ciddi nəzərə almalıdırlar. Onu da nəzərə almalıdırlar ki, "Armenpress" kimi media orqanlarının arayış olaraq ötəri diqqətə çatdırdıqları məqamlar xəstə kəsim üçün "qida" mənbəyidir. Söhbət gələn ilin parlament seçkilərində Paşinyan administrasiyasını tarixin arxivinə göndərməkdən dəm vuran radikal kəsimdən gedir. Xanım Manasyan əmin olsun ki, bu hadisə baş verəcəyi təqdirdə, nəinki hüquqlarını qoruyan, onu heç insan yerinə qoyan da tapılmayacaq.

*Ə.RÜSTƏMOV*
*XQ*

---

*Bakı İqlim Fəaliyyəti Həftəsi*

# Qlobal tərəfdaşlığın regional platforması



**COP29-dan sonra paytaxtımız Bakı İqlim Fəaliyyəti Həftəsinin (BCAW2025) ikinci toplantısına ev sahibliyi edir. Ötən il formalaşan güclü təməl üzərində qurulan bu təşəbbüs beynəlxalq əməkdaşlıq, bilik mübadiləsi, innovasiyalar və praktiki iqlim həllərinin müzakirəsi üçün mühüm platforma rolunu davam etdirir. İqlim Fəaliyyəti Həftəsinin ilk tədbiri bu dəfə də London İqlim Fəaliyyəti Həftəsi ilə tərəfdaşlıq çərçivəsində təşkil olunur. BCAW2025 COP29-un yaratdığı müsbət dinamikanı gücləndirməklə, Bakını regionda iqlim həlləri üzrə əsas platformaya çevirir.**

Ümumiyyətlə, dünyanın müxtəlif yerlərində keçirilən iqlim həftələri beynəlxalq iqlim diplomatiyasına yeni nəfəs verir, həm də regional səviyyədə iqlim fəaliyyətinə diqqəti artırır. Bu baxımdan, COP29 Azərbaycan üçün mühüm diplomatik və ekoloji dönüş nöqtəsi oldu. Konfransda ilk dəfə olaraq qlobal iqlim maliyyələşməsinin artırılması ilə bağlı razılaşma əldə edildi və bu istiqamətdə "Bakı Xəritəsi"nin hazırlanması elan olundu.

COP29 nəticəsində 2030-cu ilədək iqlim maliyyələşməsinin artırılması üçün beynəlxalq öhdəliklər təsdiqləndi, inkişaf etməkdə olan ölkələrin dəstəklənməsi üçün yeni maliyyə mexanizmləri yaradıldı, adaptasiya və texnoloji innovasiyalara yönəlik qlobal əməkdaşlıq planı qəbul olundu. Azərbaycanın təşəbbüsü ilə qlobal iqlim həmrəyliyi və "ədalətli keçid" anlayışı beynəlxalq gündəliyə daha güclü şəkildə daxil edildi. Beləliklə, Azərbaycan COP29 vasitəsilə özünü qlobal miqyasda etibarlı tərəfdaş və iqlim diplomatiyasında mərkəzi oyunçu kimi təsdiqlədi.

COP29-un prezidenti, Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə xüsusi nümayəndəsi Muxtar Babayev BCAW2025-də çıxış edərək vurğuladı ki, yeni iqlim həftələri Azərbaycanda mütəmadi keçiriləcək və bu tədbirlər qlobal əməkdaşlığa xidmət edəcək. O bildirdi ki, COP29 Azərbaycanın qlobal miqyasda nüfuzunu artırdı və bütün tərəfləri həmrəyliyə gətirdi.

Baş prokuror Kamran Əliyev çıxışında ətraf mühitin qorunmasında hüquq-mühafizə orqanlarının roluna diqqət çəkərək, transmilli ekoloji problemlərin yalnız birgə səylərlə həll oluna biləcəyini diqqətə çatdırdı.

KOBİA sədri Orxan Məmmədov isə kiçik və orta bizneslərin "yaşıl keçid"də mühüm rolunu vurğuladı və onların tullantıların azaldılmasına, iş yerlərinin yaradılmasına və məsuliyyətli istehlakçı davranışına ciddi təsir göstərə biləcəyini qeyd etdi.

Ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva da Azərbaycanın iqlim adaptasiyası planını təqdim edərək, ekosistemə əsaslanan hədəflərin önəmini vurğuladı və Xəzəryanı ölkələrin birgə fəaliyyətinin vacibliyini önə çəkdi.

BMT Baş Assambleyasının 73-cü sessiyasının prezidenti Maria Fernanda Espinosa çıxışında "ədalətli keçid"in yoxsulluğun aradan qaldırılması və əmək bazarının inkişafı ilə paralel aparılmasının vacibliyini xatırlatdı. Ali beynəlxalq təşkilatın Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva isə 2026–2030-cu illəri əhatə edən yeni əməkdaşlıq proqramının imzalanacağını açıqladı.

Ümumilikdə, Bakı İqlim Fəaliyyəti Həftəsində 46-dan çox sessiyanın keçirilməsi nəzərdə tutulur. COP29-un yüksək səviyyəli çempionu Nigar Arpadarai bildirdi ki, bu tədbirlər COP30 ilə əməkdaşlıq çərçivəsində "Bakı–Belem yol xəritəsi"nə töhfə verəcək.

Xarici işlər nazirinin müavini Yalçın Rəfiyev isə vurğuladı ki, Azərbaycan Afrika ilə münasibətlərdə yeni strategiya qurmuşdur və diplomatik təmsilçiliyini genişləndirməklə qitədə mövqelərini gücləndirməyi hədəfləyir.

Beləliklə, Bakı İqlim Fəaliyyəti Həftəsi Azərbaycanın COP29-dakı uğurları üzərində qurularaq beynəlxalq iqlim diplomatiyasının mərkəzlərindən birinə çevrilir və ölkənin həm regional, həm də qlobal miqyasda nüfuzunu möhkəmləndirir.

*Səbuhi MƏMMƏDOV,*
*Rauf İBRAHİMOV (foto)*
*XQ*



# Ali Baş Komandanın informasiya savaşı

## *“Rossiya-1” telekanalına müsahibə Vətən müharibəsinin məramını dünyaya çatdırdı*

**Vətən müharibəsindən əvvəl olduğu kimi, 44 günlük savaşın gedişində də Ermənistan öz şərəfsiz, insanlığa sığmayan əməllərindən əl çəkmədi. Belə ki, düşmən ordusu beynəlxalq qanunlarla qadağan olunmuş silahlarla döyüş zonalarından çox uzaqda yerləşən şəhər və kəndlərimizin dinc sakinlərinə atəş açdı, çox sayda insan qətlə yetirdi. Məqsəd bu yolla Azərbaycanı Ermənistandakı mülki obyektlərə zərbə endirməyə təhrik etmək və beləliklə, Rusiyanı bu münaqişəyə qoşmaq idi. İşğalçının terrora üstünlük verməsi, dinc insanları hədəfə alması həm də Azərbaycan xalqı arasında vahimə yaratmaq, əhalinin müharibəyə etirazını formalaşdırmaq və əməliyyatların qarşısını bu yolla almaq məqsədi daşıyırdı.**

Prezident İlham Əliyev Vətən müharibəsinin ilk günlərində – 2020-ci il sentyabrın 29-da “Rossiya-1” telekanalının “60 dəqiqə” proqramında aparıcının suallarını cavablandırarkən bu barədə bildirdi: “Ermənilərin sentyabrın 27-də səhər başladıqları hərbi təxribat nəticəsində Azərbaycanın yaşayış məntəqələri və bizim döyüş mövqelərimiz şiddətli artilleriya atəşinə məruz qalıb. Bu təcavüz nəticəsində Azərbaycanın 11 dinc sakini, o cümlədən 2 uşaq həlak olub, hərbi qulluqçular arasında da həlak olanlar var. Biz təcavüzkara adekvat cavab verməyə və beləliklə, öz xalqımızı, öz adamlarımızı və torpağımızı müdafiə etməyə məcbur idik…”.

Aparıcının bu müharibədə Türkiyənin rolu ilə bağlı sualına cavabında isə bildirdi ki, qardaş ölkənin fəaliyyəti regionda sabitləşdirici xarakter daşıyır. Türkiyə bizim müttəfiqimizdir. Ermənistanın Azərbaycana hücum etməsini dünya ictimaiyyətinin bildiyi ilk saatdan etibarən Türkiyə dövlət başçısı və digər rəhbərlər səviyyəsində birmənalı olaraq Azərbaycanı və beynəlxalq hüququ dəstəklədiyini bildirib. Ona görə ki, Ermənistan 30 ilə yaxın müddətdə Azərbaycan ərazisini işğalda saxlamaqla beynəlxalq hüququ kobud şəkildə pozub. Türkiyənin rolu, əslində, məhz bundan ibarətdir, başqa heç bir rolu yoxdur.

Həqiqətən, Vətən müharibəsində Türkiyə Azərbaycana mənəvi dəstək göstərdi. Türkiyənin münaqişə tərəfi kimi iştirak etməsi barədə erməni tərəfin yaydığı bütün şayiələr isə əslində, təxribat xarakteri daşıyırdı, bu, feyk-nyus idi. Türkiyənin münaqişədə iştirakına heç bir zəruri ehtiyac duyulmurdu, çünki Azərbaycan Ordusu öz xalqının və ərazisinin müdafiəsini gerçəkləşdirmək üçün kifayət qədər hazırlıqlı idi.

Prezident İlham Əliyevin Türkiyə Hərbi Hava Qüvvələrinin F-16 təyyarələrinin döyüş əməliyyatlarında iştirakı barədə sualına cavabı da diqqət çəkirdi. Dövlətimizin başçısı müsahibədə qardaş ölkənin bu tip təyyarələrinin savaşda iştirakını qəti şəkildə təkzib etdi: “Bu gün müasir texnologiyaları nəzərə alsaq nəyisə gizlətmək çox çətindir. Çünki obyektiv müşahidə formaları var, peyk müşahidələri var və ona görə də bunun növbəti təxribat olmasını yoxlamaq çox asandır. Erməni tərəfin bu cür yalan xəbərlər yaratmaqda məqsədi bizə aydındır. Əvvəla, öz ərazi bütövlüyünün bərpası vəzifəsini hazırda şərəflə yerinə yetirən Azərbaycan Ordusunun döyüş qabiliyyətini süni şəkildə azaltmaq, həmçinin belə təsəvvür yaratmaq ki, münaqişə genişlənir, ona üçüncü ölkələr qoşulur və beləliklə, öz təxribatına haqq qazandırmaq üçün mümkün qədər çox ölkə cəlb etməyə çalışmaq. Buna görə sizə məsuliyyətlə bəyan edirəm ki, Türkiyə münaqişə tərəfi deyil, münaqişədə heç bir şəkildə iştirak etmir və buna zərurət yoxdur”.

Dövlətimizin başçısı müsahibədə aparıcının “30 il ərzində Qarabağ münaqişəsinin gah alovlanması, gah da közərməsi şəraitində necə dönüş etməli” sualına cavabında isə Azərbaycanın danışıqlarda həmişə konstruktivlik nümayiş etdirdiyini, Minsk qrupunun və onun həmsədrlərinin danışıqlar prosesi üçün əsas hesab olunan nizamlama prinsiplərinə sadiqlik göstərdiyini, Ermənistanın isə məsələnin həllini getdikcə çətinləşdirdiyini, işğalçı ölkənin baş nazirinin “Qarabağ Ermənistandır və nöqtə” kimi heç bir əndazəyə sığmayan çağırışlar səsləndirdiyini bildirərək dedi: “Belə olan halda hansı danışıqlar prosesindən söhbət gedə bilər. Axı, ATƏT-in Minsk qrupu tərəfindən işlənib hazırlanmış prinsiplərin mahiyyəti ondan ibarətdir ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ətrafındakı ərazilər Azərbaycana verilməlidir. Lakin Ermənistanın baş naziri deyir ki, “Qarabağ Ermənistandır” və üstəlik, deyir ki, biz danışıqları Dağlıq Qarabağın oyuncaq rejimi ilə aparmalıyıq”.

Dövlətimizin başçısının vurğuladığı kimi, Ermənistan danışıqların uzun illər mövcud olan formatını dəyişməyə çalışır, bilərəkdən danışıqlar prosesini pozur, qəbuledilməz tələblər irəli sürür və təxribatlar törədirdi. 2020-ci il avqustun 23-də Ermənistanın təxribat qrupu başçısının təmas xəttində saxlanılması, sentyabrın 27-də, bundan əvvəl isə iyulun 12-də törədilən təxribatlar da bunun bariz ifadəsi idi. Bütün bunlar Azərbaycanı təqsirləndirmək, sonra üçüncü tərəfləri cəlb etmək və beləliklə, danışıqlar prosesini pozmaq məqsədi daşıyırdı. Erməni tərəfi, eyni zamanda, status-kvonu da saxlamaq istəyirdi.

Prezident müsahibədə Ermənistan tərəfindən müharibənin başlanması barədə danışarkən işğalçı ölkənin bir neçə ay ərzində savaşa hazırlaşdığını diqqətə çatdırdı. Bu, işğalçının hərəkətlərinin və bəyanatlarının xronologiyasının izlənilməsi ilə müşahidə edilirdi. Prezident İlham Əliyev həmin ərəfədə BMT Baş Assambleyasının tribunasından çıxış edərkən bu barədə bəyanat da vermişdi. Açıq şəkildə Ermənistanın müharibəyə hazırlaşdığını və onu dayandırmağın zəruriliyini diqqətə çatdırmışdı. İyul ayında işğalçının münaqişə zonasından uzaq, Azərbaycanın dövlət sərhədindəki yaşayış məntəqələrinə silahlı hücum etməsi, dinc sakin və bir neçə hərbi qulluqçumuzu öldürməsi də bunun bariz ifadəsi idi.

Həmin vaxt döyüşlər dörd gün davam etmişdi və Ermənistan ərazisində Azərbaycanın heç bir hərbi hədəfi yox idi. Buna görə də Ermənistan silahlı qüvvələri ölkəmizin ərazidən çıxarılandan dərhal sonra qarşılıqlı razılaşmaya əsasən atəş dayandırılmışdı. Daha sonra yuxarıda vurğulandığı kimi, təxribat qrupu respublikamızın ərazisinə soxuldu və həmin qrup neytrallaşdırıldı.

Bu zaman Ermənistanın həyasızlığı o həddə çatmışdı ki, erməni tərəfi açıq-aşkar, nümayişkaranə şəkildə əslən Livandan olan ermənilərin Azərbaycanın işğal edilmiş ərazilərində və qədim Şuşa şəhərində məskunlaşdırılmasını elan edirdi. Bu isə müharibə cinayəti idi. Bu, eyni zamanda, Cenevrə Konvensiyasının pozulması demək idi. Bu nümayişkaranə şəkildə bildirilirdi. Həmin dövrdə qəsbkar ölkə Şuşada – Azərbaycan mədəniyyətinin qədim incisində cinayətkar keçmiş Dağlıq Qarabağ rejiminin qondarma başçısının qondarma inaqurasiyasını keçirdi. Bütün bunlar Azərbaycana qarşı şüurlu təxribatlar, ölkəmizi münaqişəyə qoşmaq və cavab hərəkətlərinə təhrik etmək idi. Azərbaycan isə təmkin, konstruktivlik və sağlam düşüncə nümayiş etdirdi, lakin onların niyyətləri baş tutmayanda respublikamıza qarşı müharibə cəhdi göstərildi.

Beləliklə, Prezident İlham Əliyev 2003-cü ildə qarşıya qoyduğu və bəyan etdiyi strateji hədəfləri gerçəkləşdirmək üçün ötən müddətdə istər beynəlxalq miqyasda, istərsə də ölkə daxilində məqsədyönlü, ardıcıl, düşünülmüş siyasət həyata keçirdi və “güclü dövlət” konsepsiyasını reallaşdırmağa nail oldu. Bununla da dövlətimizin başçısı qurucu, birləşdirici, Azərbaycan xalqının bütün istək və arzularını reallaşdıran, öz fəaliyyətində Azərbaycan dövlətinin maraqlarını ən ali məqsəd kimi görən və bütün qüvvəsini bu istiqamətə yönəldən, xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi liderə çevrildi.

***Vaqif BAYRAMOV***
***XQ***

# *Vətən müharibəsinin xronikası: 29–30 sentyabr*

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Bu Vətən müharibəsi otuzillik işğala son qoyan şanlı Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər yürüşü Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

## Zəfər marafonunun 3-cü günü

– Müdafiə Nazirliyinin yaydığı məlumatda vurğulanıb ki, Ermənistan silahlı qüvvələri cəbhənin Füzuli-Cəbrayıl və Ağdərə-Tərtər istiqamətlərində itirdikləri mövqeləri geri qaytarmaq üçün bir neçə dəfə əks-hücum cəhdi göstərib. Azərbaycan Ordusunun bu istiqamətlərdə yerləşən bölmələri uğurla müdafiə olunaraq düşmənin bütün cəhdlərinin qarşısını dərhal alıb.

– Gecə döyüşlərində cəbhənin Ağdərə istiqamətində düşmənin Madagizdən hərəkət edən zirehli və avtomobil texnikasından ibarət qarışıq kolonu və onların hərəkətinə atəş dəstəyi verən artilleriya batareyası Azərbaycan Hərbi Hava Qüvvələrinin aviasiya vasitələri və cəbhənin bu istiqamətdə yerləşən qoşunlarımız tərəfindən məhv edilib.



– Səhər saatlarında cəbhənin Füzuli-Cəbrayıl istiqamətində yerdəyişmə etmək istəyən düşmənin 1 tankı, 1 avtomobil texnikası və 10 nəfərədək şəxsi heyəti artilleriya zərbəsi ilə məhv edilib.

– Almaniya Kansleri Angela Merkel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Angela Merkel Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurmanın baş verməsi ilə bağlı ölkəsinin narahatlığını ifadə edib və hadisələrin gedişi ilə maraqlanıb. Dövlətimizin başçısı bildirib ki, bundan əvvəl də iyul-avqust aylarında Ermənistan tərəfindən ölkəmizə qarşı hərbi təxribatlar törədilib və bunların nəticəsində hərbçilərimiz və mülki şəxslərimiz həlak olub.

Prezident İlham Əliyev bu təxribatların Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinin davamı olduğunu vurğulayıb. Ermənistanın hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyət Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür, Azərbaycan Ordusu öz torpaqlarında vuruşur və Ermənistan ordusu Azərbaycan torpaqlarında olmamalıdır.

– Prezident İlham Əliyev “COVID-19 dövrü və sonrakı dönəmdə Dayanıqlı İnkişaf Məqsədlərinin 2030-cu il Gündəliyinin maliyyələşdirilməsi” mövzusunda dövlət və hökumət başçılarının toplantısında videoformatda çıxış edib.

– Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi “Instagram” səhifəsində paylaşım edib. Paylaşımda qeyd olunub: “Azərbaycan dövləti heç vaxt başqasının torpaqlarına iddialı olmayıb, heç zaman insanlığa qarşı cinayət törətməyib. Azərbaycan Ordusu başqa dövlətin torpaqlarına ayaq basmayıb, o, doğma torpağını qoruyur və onun uğrunda döyüşür! Ermənistanın növbəti silahlı təxribatına cavab verildi! Azərbaycan Ordusu öz Vətənini müdafiə edərək, uğurlu əks-hücum əməliyyatı keçirir və Azərbaycanın işğal altında olan ərazilərini azad edir.

Azərbaycan dövlətinə və xalqına dəstək olaraq öz prinsipial və ədalətli mövqeyini nümayiş etdirən bütün insanlara, təşkilatlara və dövlətlərə dərin təşəkkürümü bildirirəm. İlk növbədə, qardaş Türkiyə xalqına və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğana minnətdaram. Onların həmrəyliyi və mənəvi dəstəyi bu gün hər bir azərbaycanlıya qürur hissi yaşadır. Azərbaycanın bütün əsgərlərinin, zabitlərinin həyatı və sağlamlığı üçün dua edirəm!

Bu gün biz azərbaycanlılar niyyətimizlə, hərəkət və dualarımızla misli görülməmiş birlik göstəririk. Ulu Tanrı Azərbaycan xalqına onun müqəddəs mübarizəsində yar olsun! Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin! Allah şəhidlərimizə rəhmət etsin! Qəbirləri nurla dolsun!”

– Azərbaycan Prezidenti İlham Əliyev “Rossiya-1” telekanalının “60 dəqiqə” proqramında Vətən müharibəsi ilə bağlı sualları cavablandırıb. Prezident İlham Əliyev cavablarında bildirib ki, cəbhədə vəziyyət gərgindir. Ermənilərin sentyabrın 27-də səhər başladıqları hərbi təxribat nəticəsində Azərbaycanın yaşayış məntəqələri və bizim döyüş mövqelərimiz şiddətli artilleriya atəşinə məruz qalıb. Biz təcavüzkara adekvat cavab verməyə və beləliklə, öz xalqımızı, öz adamlarımızı və torpağımızı müdafiə etməyə məcbur idik. Beləliklə, artıq üçüncü sutkadır ki, şiddətli döyüşlər gedir, bu döyüşlər nəticəsində Azərbaycan Ordusu bir sıra yaşayış məntəqələrini işğaldan azad edib, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəklikləri tutub.

Bu gün vəziyyət elədir ki, fəal döyüş əməliyyatları aparılır. Hesab edirəm ki, Türkiyənin rolu regionda sabitləşdirici xarakter daşıyır. Türkiyə bizə qardaş ölkə və bizim müttəfiqimizdir. Ermənistanın Azərbaycana hücum etməsini dünya ictimaiyyətinin bildiyi ilk saatdan etibarən Türkiyə dövlət başçısı və digər rəhbərlər səviyyəsində birmənalı olaraq Azərbaycanı dəstəklədiyini, beynəlxalq hüququ dəstəklədiyini bildirib.

– Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib ki, Ermənistanın hərbi-siyasi rəhbərliyinin göstərişi ilə düşmənin silahlı qüvvələrinin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində hazırkı vaxtadək mülki əhalidən, ümumilikdə, 12 nəfər həlak olub, 35 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilib. Təcavüzkar Ermənistanın mülki obyektləri atəşə tutması nəticəsində 66 yaşayış evi, 8 mülki obyekt yararsız vəziyyətə düşüb, çoxsaylı xırda və iribuynuzlu heyvanlar tələf olub. Prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq əməliyyat tədbirləri həyata keçirilir, o cümlədən yaralananların aldıqları xəsarətlərin ağırlıq dərəcəsini, eləcə də mülki infrastruktur obyektlərinə dəymiş ziyanın məbləğini müəyyən etmək məqsədilə müvafiq ekspertizalar təyin olunub.

– Döyüş əməliyyatları uğurla davam edir.

## Zəfər marafonunun 4-cü günü

– Sentyabrın 29-dan 30-na keçən gecə, saat 00:20 radələrində Azərbaycan Ordusunun İsrail istehsalı “Harop” dağıdıcı dronu vasitəsilə dəqiq zərbəsi nəticəsində yüksəkrütbəli erməni zabitlərinin toplaşdığı bunker dağıdılıb. Bunkerdə Ermənistan silahlı qüvvələrinin bir generalı, bir neçə polkovniki və digər yüksəkrütbəlilərinin olduğu bildirilib.

– Sosial şəbəkələrdə İran ərazisindən Ermənistana aparılan silah-sursat, hərbi texnika yüklü maşınların yandırılmasına aid görüntülər yayılıb. Nəqliyyat vasitələrinin Cənubi Azərbaycanlılar tərəfindən Azərbaycana dəstək məqsədilə yandırıldığı və görüntülərinin paylaşıldığı iddia olunur.

– Azərbaycan Müdafiə Nazirliyi Cəbrayıl rayonu ərazisindəki tanklar da daxil olmaqla, bir neçə erməni hərbi texnikasının məhv edildiyini göstərən görüntülər yayımlayıb.

– Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın sentyabrın 27-dən başlayan hərbi təxribatı zamanı yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşüblər. Prezident İlham Əliyev görüşdə bildirib: “Allah şəfa versin. Əziz uşaqlar, siz Vətən uğrunda gedən döyüşlərdə müxtəlif xəsarətlər almısınız, yaralanmısınız. Həkimlər sizə yaxşı baxırlar. Əminəm, həkimlər əllərindən gələni edəcəklər ki, siz tezliklə sağalıb normal həyata qayıdasınız. Mənə verilən məlumata görə, bizim bütün yaralı əsgər və zabitlərimiz bir arzu ilə yaşayırlar ki, tezliklə sağalıb yenə də döyüş bölgələrinə getsinlər, Vətən uğrunda haqlı savaşını davam etdirsinlər.

Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Uzun illər ərzində məcburi köçkün kimi yaşayan soydaşlarımız da öz doğma dədə-baba torpaqlarına qayıdacaqlar”.

– Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan Prezidenti İlham Əliyevə telefonla zəng edib. Bu barədə Prezidentin Mətbuat Xidmətindən məlumat verilib. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel təmas xəttində hərbi əməliyyatların başlamasından narahatlığını ifadə edib və münaqişənin sülh yolu ilə nizamlanmasının zəruri olduğunu bildirib. Dövlətimizin başçısı vurğulayıb ki, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərinə başqa ölkələrdən xarici vətəndaşların qanunsuz məskunlaşmasını həyata keçirir ki, bu da Cenevrə Konvensiyasına görə beynəlxalq hüququn ciddi pozulmasıdır, hərbi cinayətdir.

Prezident İlham Əliyev bildirib ki, Ermənistan baş naziri hələ sentyabrın 27-si hərbi toqquşmalar baş verməzdən əvvəl on minlərlə könüllüdən ibarət hərbi birləşmələrin yaradılması barədə qərar vermişdi. Bu, Ermənistanın növbəti təcavüzə hazırlaşması mənası daşıyırdı.

– Azərbaycan Müdafiə Nazirliyindən bildirilib ki, bir müddət əvvəl Ermənistan silahlı qüvvələri “Toçka-U” taktiki raket kompleksini tətbiq edib. Düşmənə məxsus hərbi texnikanın köhnə və keyfiyyətsiz olması səbəbindən atılan raketlərdən üçü partlamayıb.

– Ermənistan silahlı qüvvələrinin Tərtər rayonunun Həsənqaya yaşayış məntəqəsi yaxınlığındakı 5-ci motoatıcı alayının 1-ci taboru və Talış istiqamətində yerləşən 6-cı motoatıcı alayının 1-ci taborunun mövqeləri dağıdılıb. Düşmənin cəbhənin Cəbrayıl rayonu istiqamətində döyüş texnikaları məhv edilib.

– Ermənistan silahlı bölmələrinin Füzuli istiqamətində yerləşən 4-cü taboru ağır artilleriya atəşinə tutulub. Həmçinin 18-ci motoatıcı diviziyasının 41-ci əlahiddə alayının komanda məntəqəsinə atəş zərbəsi endirilib. Qoşunların idarə edilməsi tam pozulub. Bundan başqa, Ermənistanın 1-ci ümumqoşun ordusunun 10-cu dağatıcı diviziyasının Tonaşendə yerləşən 7-ci dağatıcı alayının 2-ci taborunun şəxsi heyəti ağır itkilərə məruz qalaraq müdafiə mövqelərini özbaşına tərk edərək qaçıb. Həmin diviziyanın Ağdərə yaşayış məntəqəsində yerləşən 5-ci dağatıcı alayının qərargahına zərbə endirilib.

– Düşmənin artilleriya atəşi nəticəsində Horadiz şəhərində bir mülki şəxs həlak olub, üç nəfər isə xəsarət alıb. Bununla da Ermənistan silahlı qüvvələrinin xain hücumları zamanı həlak olan mülki şəxslərin sayı 15-ə, xəsarət alanların sayı isə 49-a çatıb. Bu barədə Azərbaycan Baş Prokurorluğu məlumat yayıb.

– Təhsil naziri Emin Əmrullayev keçirdiyi mətbuat konfransında deyib ki, Azərbaycanda 420 məktəb öz fəaliyyətini müvəqqəti məhdudlaşdırıb və dayandırıb. Əminik ki, ordumuz qısa müddətdə torpaqlarımızı işğaldan azad edəcək və həmin ərazilərdə tədris bərpa olunacaq. Erməni təxribatı nəticəsində 14 mülki şəxs ölüb, 46 nəfər xəsarət alıb. Düşmən zərbələri nəticəsində Azərbaycanda 9 məktəb zədə alıb.

– Cəbhənin Ağdərə–Tərtər istiqamətində mühasirəyə alınan Ermənistan silahlı qüvvələri bölmələrinin artilleriya vasitələri ilə məhv edilməsi və ərazinin təmizlənməsi əməliyyatı davam edib. Canlı qüvvə və döyüş texnikası baxımından ağır itkilərə məruz qalan düşmən ölən və yaralıların təxliyəsini təşkil etməkdə aciz qalıb.

– Azərbaycan Müdafiə Nazirliyi cəbhənin Ağdərə–Tərtər istiqamətində mühasirəyə alınan erməni qüvvələrinin artilleriya vasitələri ilə məhv edilməsi və ərazinin təmizlənməsi əməliyyatı keçirilməsi barədə məlumat yayımlayıb.

– Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, cəbhənin müxtəlif istiqamətlərində Ermənistan Silahlı Qüvvələrinin 1 ədəd “Uraqan” yaylım atəşli reaktiv sistemi, 2 ədəd "9K33 Osa" zenit-raket kompleksi, 4 ədəd BM-21 “Qrad" yaylım atəşli reaktiv sistemi, 1 ədəd piyadanın döyüş maşını, 4 ədəd D-20 haubitsa-topu, 16 ədəd tank və şəxsi heyətlə 2 ədəd yük maşını məhv edilib.

– Ağdərə istiqamətində gedən döyüşlər zamanı Ermənistan ordusunun darmadağın edilən 6-cı dağatıcı alayına köməyə gələn 193-cü əlahiddə həmlə taborunun döyüş bayrağı və sənədləri ələ keçirilmişdir. Azərbaycan Ordusunun bölmələrinin axşam saatlarında keçirdiyi döyüş əməliyyatları nəticəsində Ermənistan ordusunun 8 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi məhv edilib.

***Mustfi K AMAL***
***XQ***

# Azərbaycanın investisiya cəlbediciliyi yüksəlir

**Hazırda dünyada sabitlik məkanı kimi tanınan Azərbaycanda yaradılmış əlverişli investisiya mühiti əksər ölkələr və bir sıra nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən bəyənilir, təqdir edilir. Elə dünyanın tanınmış maliyyə qurumlarının da son illər dərc etdikləri hesabatlarda Azərbaycanın cəlbedici investisiya ölkəsi kimi təqdim olunması da bunu təsdiqləyir.**



Təsadüfi deyil ki, Prezident İlham Əliyevin Bakıda keçirilən Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun iştirakçılarına müraciətində bildirib: "Azərbaycanda həyata keçirilmiş sosial-iqtisadi islahatlar və qlobal iqtisadiyyata inteqrasiya aparıcı beynəlxalq şirkətlər üçün ölkəmizdə geniş və əlverişli imkanlar yaratmışdır. Məhz bu səbəbdən 2004-2024-cü illər ərzində iqtisadiyyatımıza 344,4 milyard ABŞ dolları həcmində sərmayə qoyulmuş, bunun əhəmiyyətli hissəsi və ya 213,2 milyard ABŞ dolları qeyri-neft sektorunun inkişafına yönəlmişdir. Bu, xarici investorların Azərbaycana olan etimadı, ölkəmizdə hökm sürən təhlükəsizlik və sabitlik mühitinin bariz göstəricisidir".

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2025-ci ilin yanvar-avqust aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 11 milyard 374,5 milyon manat investisiya yönəldilib. Bu ilin 8 ayında ölkənin neft-qaz sektoruna 3 milyard 159,5 milyon manat sərf edilib. Hesabat dövründə qeyri-neft qaz sektorunun inkişafına 8 milyard 215 milyon manat vəsait xərclənib ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 8 faiz çoxdur. Həmin vəsaitin isə 1 milyard 494,4 milyon manatı və ya 13,1 faizi qeyri-neft-qaz sənayesi sahələrinin inkişafına xərclənib.

Yanvar-avqust aylarında ölkə üzrə sərf olunmuş ümumi sərmayənin 5 milyard 800,2 milyon manatı və ya 52 faizi məhsul istehsalı sahələrinə, 3 milyard 819,9 milyon manatı və ya 33,6 faizi xidmət sahələrinə, 1 milyard 754,4 milyon manatı və ya 15,4 faiz yaşayış evlərinin tikintisinə yönəldilib.

Cari ilin 8 ayında ölkə iqtisadiyyatına sərf olunmuş investisiyaların 52,3 faizi dövlət, 47,7 faizi isə qeyri-dövlət sektorunu təmsil edən sərmayədarların payına düşüb. Hesabat dövründə daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitin həcmi ümumi investisiyanın 77 faizini təşkil edib. İnvestisiyaların 40,9 faizi sənaye, 24 faizi tikinti, 22,8 faizi nəqliyyat və anbar təsərrüfatı, 2 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, hər biri 1,8 faiz olmaqla informasiya və rabitə, təhsil, 1,5 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, hər biri 1,3 faiz olmaqla maliyyə və sığorta, istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət, 1 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 0,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 0,5 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 0,3 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 0,1 faizi peşə, elmi və texniki fəaliyyət sahələrinə sərf edilib.

Yanvar-avqust aylarında tikinti müəssisələri tərəfindən (fərdi sahibkarlar nəzərə alınmaqla) yerinə yetirilmiş inşaat işlərinin 82,8 faizini inşa, yenidənqurma və bərpa, 8 faizini əsaslı təmir, 5,6 faizini cari təmir, 3,6 faizini isə sair tikinti işləri təşkil edib. Ümumi inşaat işlərinin 89 faizi qeyri-dövlət tikinti müəssisələri tərəfindən yerinə yetirilib.

Əsaslı kapital qoyuluşu hesabına Bakı şəhərində Dövlət Gömrük Komitəsinin yeni inzibati binası, qəlyanaltı məhsullarının istehsalı zavodu, Özbəkistan səfirliyinin yeni binası, Mingəçevir şəhərində "8 Noyabr" Elektrik Stansiyası, Sumqayıt şəhərində tikinti kimyəvilərinin istehsalı zavodu, yük və xüsusi təyinatlı avtomobil istehsalı zavodu, Goranboy rayonunda tikinti materialları istehsalı müəssisəsi, İsmayıllı rayonunda "Talıstan liseyi, "Coca-cola" istehsalı müəssisəsi, Yevlax rayonunda 110/35/10 kilovoltluq qovşaq yarımstansiyası, Regional Təlim-Tədris və Laboratoriya Mərkəzi, Mərkəzi Aran Regional SCADA İdarəetmə Mərkəzi, pilot aqroparkı və s. mühüm əhəmiyyətli obyektlər istifadəyə verilib.




İlin əvvəlindən Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa-quruculuq sürətlə davam etdirilib. Yanvar-avqust aylarında kapital qoyuluşu hesabına Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bir nəhəng tikinti-quraşdırma işləri həyata keçirilib. Ötən 8 ayda Xankəndi şəhərində Biznes və Konqres mərkəzləri, Ağdam rayonunda Regional Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksi, tütün məmulatlarının istehsalı müəssisəsi, Sarıcalı, Kəngərli və Xıdırlı kəndlərinin birinci mərhələsi, Kəngərli kənd tam orta məktəbi və körpələr evi-uşaq bağçası, 1 nömrəli tam orta məktəb və 1 nömrəli körpələr evi-uşaq bağçası, Dəmir Yolu və Avtovağzal Kompleksi, Ağdam Muğam Mərkəzi, Ağdərə rayonunda məscid, Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolu, Xocalı rayonunda yarımstansiya və Rəqəmsal İdarəetmə Mərkəzi, heyvandarlıq kompleksi, kərpic zavodu, Kəlbəcər rayonunda "Aşağı Vəng", "Nadirxanlı" və "Çaykənd" kiçik su elektrik stansiyaları, Laçın rayonunda tikiş və ayaqqabı fabrikləri, "Aşağı Malıbəy" və "Mirik" su elektrik stansiyaları, İstirahət Kompleksi, Rəqəmsal İdarəetmə Mərkəzi, Beynəlxalq Hava Limanı, Şuşa rayonunda Daşaltı kənd məscidi, Şuşa Müalicə-Sağlamlıq Mərkəzi istifadəyə verilib.

Cari ilin 8 ayında ölkə iqtisadiyyatına birbaşa xarici investisiya qoyuluşu da davam edib. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2025-ci ilin yanvar-avqust aylarında xarici ölkələr və beynəlxalq təşkilatlar tərəfindən Azərbaycan iqtisadiyyatına yönəldilən ümumi investisiyanın 2 milyard 554,4 manatı və ya 97,4 faizi Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Birləşmiş Ərəb Əmirlikləri, Türkiyə, Rusiya Federasiyası, İsveçrə, Yaponiya, İran İslam Respublikası, Macarıstan, Fransa və Hindistan sərmayədarlarına məxsus olub.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Bakıda Mərkəzi Avrasiya investisiya dialoqu




**Sentyabrın 28-də Bakıda "PAŞA Holdinq" MMC və Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) birgə təşkilatçılığı ilə "INMerge" İnvestisiya Forumu keçirilib. Özəl kapital liderlərininin bir araya gəldiyi toplantı Mərkəzi Avrasiya ilə Yaxın Şərqdə sərhədlərarası investisiya dialoqu üçün yeni platforma yaradıb.**

Forumda 18 ölkədən 90-dan çox təşkilatı təmsil edən 160-dan artıq iştirakçı, ümumilikdə, 4 trilyon ABŞ dolları dəyərində idarə olunan aktivlərlə bir araya gəlib. İştirakçılar arasında aparıcı məhdud tərəfdaşlar, ümumi tərəfdaşlar, eləcə də, "CCA", "CEE", "GCC" və "SEA" regionlarından olan siyasətçilər yer alıb.

Yüksək təsirli və diqqətlə seçilmiş proqrama uyğun keçirilən forumun məqsədi regionun qlobal özəl kapital bazarındakı rolunu gücləndirmək və Azərbaycanın etibarlı qapı kimi rolunu möhkəmləndirməkdir. Gündəliyin əsas mövzuları "Qlobal investisiya meyillərində Mərkəzi Avrasiyanın rolu", "Məhdud tərəfdaşlara dair mandatının transformasiyası – ənənəvi aktivlərdən alternativlərə keçid", "Yüksək nəticə göstərən fondun qurulmasından öyrənilən dərslər" olub.

Forum Bakının aparıcı investisiya tədbirləri məkanı kimi mövqelənməsi üçün zəmin yaradıb. Bu baxımdan, forumun gələcəkdə daha geniş miqyasda inkişaf etdirilməsi planlaşdırılır.

***XQ***

# Pambıq ipliyi 23 faiz artıb



**Bu ilin yanvar–avqust aylarında Azərbaycanda 13,23 min ton pambıq ipliyi istehsal edilib.**

Dövlət Statistika Komitəsindən bildirilib ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 23,5 faiz çoxdur.

Bu il sentyabr ayının 1-nə ölkədə 4,76 min ton hazır məhsul ehtiyatı olub. 2024-cü ildə Azərbaycanda 18,45 min ton pambıq ipliyi istehsal edilib ki, bu da 2023-cü illə müqayisədə 41,5 faiz çoxdur.

***XQ***

# Daşkəsənin "dəmir" gələcəyi

**Daşkəsən dəmir filizinin işlənməsi sahəsində irəli sürülən layihə ölkə üçün iqtisadi və sosial dividendlər vəd edir. "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimovun I Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində açıqladığı məlumatlara əsaslanaraq layihənin miqyası, qoyulacaq investisiyalar və onun iqtisadi təsirləri ictimaiyyətə təqdim olundu.**



## Yeni layihəni gerçəkləşdirməyə 700 milyon dollar tələb olunur

Əldə edilmiş ilkin geoloji tədqiqatlar göstərir ki, yataqlarda 70 milyon ton əlavə ehtiyat aşkar olunub və ümumi hesabla yerin təkində 187,3 milyon ton dəmir filizi ehtiyatı təsdiqlənib. Bu ehtiyat həcmi yataqların gələcəkdə, təxminən, 15 il müddətinə əlavə istismarını təmin etmək potensialına malikdir. Belə geoloji təminat layihənin uzunmüddətli perspektivə hesablandığını və sənaye investisiyalarının dayanıqlı gəlir verdiyini sübut edir.

Layihənin məhz ilkin mərhələsi üçün ümumi investisiya tələb olunur ki, bu da, təqribən, 700 milyon ABŞ dolları səviyyəsində qiymətləndirilir. Bu investisiyanın əsas hissəsinin icrası məqsədilə Qazaxıstanın "Fonte GreenMet Investments Fund" investisiya şirkəti ilə strateji əməkdaşlıq qurulub. Əməkdaşlıq nəticəsində "Daşkəsən Dəmir Filiz" MMC və "Fonte GreenMet Investments Fund" birgə olaraq "Azerbaijan Metal Company" MMC-nin təsisini həyata keçiriblər. Bu struktur investorların bilavasitə cəlb edilməsi və texnologiya transferi üçün əlverişli mexanizm yaradır.

Layihənin sənaye komponenti çərçivəsində Azərbaycan ərazisində illik 2 milyon ton istehsal gücünə malik İsti Briketlənmiş Dəmir zavodunun (İBD) təşkil edilməsi nəzərdə tutulur. Bu tip zavodun fəaliyyəti yerli sənaye zəncirinin formalaşmasına xidmət edəcək. Xammalın dəyər zəncirində daha yüksək mərhələyə keçirilməsi, əlavə emal müəssisələrinin yaradılması və logistika infrastrukturunun genişləndirilməsi üçün zəmin yaradacaq.

Strateji hesablamalara görə, layihənin ölkə ÜDM-nə illik təxminən 694 milyon ABŞ dolları həcmində töhfə verməsi gözlənilir. Bu rəqəm həm birbaşa istehsalın gətirdiyi dəyər, həm də əlaqəli sahələrdə yarana biləcək çoxsaylı iqtisadi effektləri əhatə edir. Regionda məşğulluğun artırılması da layihənin mühüm komponentidir: layihə çərçivəsində 1 600-ə qədər yerli mütəxəssisin işlə təmin olunması planlaşdırılır ki, bu da regionun sosial-iqtisadi stabilliyinə müsbət təsir göstərəcək.

"Daşkəsən Dəmir Filiz" MMC-nin baş direktoru Ceyhun Əliyev isə bildirib ki, iri zavodun ünvanı Şəmkir rayonu olacaq. Onun sözlərinə görə, müəssisənin 2029-cu ilin əvvəlində fəaliyyətə başlaması nəzərdə tutulur. Zavodun istehsal prosesi tamamilə müasir texnologiyalar əsasında qurulacaq, ekoloji baxımdan təhlükəsiz və dayanıqlı üsullar tətbiq ediləcək.

Burada prioritet həm də ekoloji məsuliyyəti təmin etməkdir. Ətraf mühitə mümkün zərərləri minimuma endirmək, təhlükəsiz və müasir texnologiyalardan istifadə etmək bizim əsas iş prinsiplərimizdəndir.

"Fonte GreenMet Investments Fund" ilə əməkdaşlıq xarici kapitalın və müasir istehsal texnologiyalarının ölkəyə gətirilməsi, həmçinin beynəlxalq təcrübənin yerli istehsalata inteqrasiyası üçün imkan yaradır. İBD və metal emalı müəssisələrinin işə düşməsi ilə məhsulun əlavə dəyər qatan mərhələlərdə emalı təmin olunacaq və nəticədə ixrac potensialı güclənəcək. Bu, uzunmüddətli dövrdə valyuta gəlirlərinin artmasına, tədiyyə balansının möhkəmlənməsinə yardım edəcək.

Böyük miqyaslı mədənçilik və metallurgiya layihələri ətraf mühitin qorunması, tullantıların idarə edilməsi və enerji effektivliyi baxımından ciddi nəzarət tələb edir. Layihənin uğurla icrası üçün beynəlxalq standartlara uyğun ətraf mühit qiymətləndirilmələri, müasir tullantı emalı texnologiyalarının tətbiqi və yerli icmalarla davamlı dialoq vacibdir. Belə tədbirlər həm ekoloji riskləri azaldar, həm də layihənin sosial lisenziyasını təmin edər.

Yeri gəlmişkən, ötən gün Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində təşkil edilən panel sessiyada birbaşa xarici investisiya cəlb etmək istəyən ölkələrin qarşısında duran çağırışlar, Azərbaycanda sənayenin və innovasiyaların inkişafı üçün atılan addımlar barədə müzakirələr aparılıb. Nazirliyin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin icraçı direktoru Fariz Cəfərov qurumun fəaliyyət istiqamətləri barədə məlumat verib. "Sənaye 4.0 hazırlıq proqramı", insan kapitalının inkişafı istiqamətində görülən işlər qeyd edilib. Bildirilib ki, "Sənaye 4.0 hazırlıq proqramı" çərçivəsində müəssisələrin beynəlxalq metodologiya əsasında texnoloji hazırlıq səviyyəsi qiymətləndirilir, onların spesifik ehtiyaclarına uyğun texnoloji transformasiya üzrə yol xəritələri hazırlanır.

Ümumiyyətlə, Daşkəsən dəmir filizi yataqlarının işlənməsi layihəsi ölkənin sənaye və mədənçilik sektorunda strateji dönüş yarada bilər. Təqribən 700 milyon ABŞ dolları səviyyəsində planlaşdırılan investisiya, illik 2 milyon ton gücündə İBD, 187,3 milyon ton təsdiqlənmiş ehtiyat, illik 694 milyon ABŞ dolları ÜDM töhfəsi və 1 600 iş yeri layihənin həm milli, həm də regional iqtisadiyyat üçün əhəmiyyətini açıq şəkildə göstərir. Layihənin uğurlu reallaşması üçün şəffaf idarəetmə, ətraf mühit tələblərinə riayət və davamlı strateji tərəfdaşlıqların saxlanılması zəruridir. Bu amillər təmin edildikdə, Daşkəsən layihəsi Azərbaycanın sənaye potensialını yeni bir mərhələyə daşıya bilər.

***Nurlan ABDALOV***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 270**

**Bakı şəhəri, 17 sentyabr 2025-ci il**

**“Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, “Sosial sığorta haqqında”, “Əhalinin sağlamlığının qorunması haqqında”, “Uşaq hüquqları haqqında”, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında”, “Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında”, “Dövlət rüsumu haqqında”, “İcra haqqında”, “Ünvanlı dövlət sosial yardımı haqqında”, “Sosial müavinətlər haqqında”, “Əmək pensiyaları haqqında”, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiyaya qoşulmaq barəsində”, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” və “Məşğulluq haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 172-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 aprel tarixli 378 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, “Sosial sığorta haqqında”, “Əhalinin sağlamlığının qorunması haqqında”, “Uşaq hüquqları haqqında”, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında”, “Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında”, “Dövlət rüsumu haqqında”, “İcra haqqında”, “Ünvanlı dövlət sosial yardımı haqqında”, “Sosial müavinətlər haqqında”, “Əmək pensiyaları haqqında”, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiyaya qoşulmaq barəsində”, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” və “Məşğulluq haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 172-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 aprel tarixli 378 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 10 may tarixli 185 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 1, maddə 79, № 9, maddə 1067; 2025, № 2, maddə 187) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında əlilliyi olan şəxslərin problemləri üzrə kompleks Proqram”da aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5.1-ci bəndin “Tədbirlər” sütunu üzrə:

1.1.1. səkkizinci abzasa “təhsili olan” sözlərindən sonra “gözdən əlilliyinin müəyyən edilməsinə görə” sözləri əlavə edilsin və həmin abzasda “funksiyalarının 61-100 faiz pozulmasına görə və ya 18 yaşınadək gözdən əlilliyi müəyyən edilmiş vətəndaşların” sözləri “funksiyaları 61-100 faiz pozulmuş şəxslərin və ya əlilliyi olan uşaqların” sözləri ilə əvəz edilsin;

1.1.2. doqquzuncu abzasa “bitirmiş” sözündən sonra “gözdən əlilliyinin müəyyən edilməsinə görə” sözləri əlavə edilsin və həmin abzasda “funksiyalarının 61-100 faiz pozulmasına görə və ya 18 yaşınadək gözdən əlilliyi müəyyən edilmiş gənclərin” sözləri “funksiyaları 61-100 faiz pozulmuş və ya əlilliyi olan gənclərin” sözləri ilə əvəz edilsin;

1.2. 5.4-cü bəndin dördüncü abzasının “Tədbirlər” sütununda (hər iki halda) “və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin” sözləri “əlilliyi müəyyən edilmiş şəxslərin və ya əlilliyi olan uşaqların” sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 596 (Cild I); 2024, № 3, maddə 335, № 9, maddə 1067; 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş “Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə”nin 16-cı hissəsinin üçüncü və dördüncü abzaslarında “18 yaşınadək əlilliyi müəyyən edilmiş” sözləri “əlilliyi olan” sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 4 yanvar tarixli 4 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 53 (Cild I); 2024, № 7, maddə 930; 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş “Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.9-cu bəndin birinci abzasında “18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər” sözləri “əlilliyi olan uşaqlar” sözləri ilə əvəz edilsin;

3.2. 1.13-cü bəndin birinci abzasında “18 yaşınadək əlilliyi müəyyən edilmiş” sözləri “əlilliyi olan uşağa” sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 15 sentyabr tarixli 149 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 629 (Cild I); 2024, № 5 (II kitab), maddə 579; 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş “Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslərin əmək haqqının ödənilməsi Qaydası”nın 5.2-ci bəndində “və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş məhkumlar” sözləri “əlilliyi müəyyən edilmiş məhkumlar və ya əlilliyi olan məhkum uşaqlar” sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 25 sentyabr tarixli 154 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 634 (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə – “Cəzaçəkmə müəssisələrində saxlanılan məhkumların gündəlik ərzaq normaları”nın “Qeyd” hissəsinin 2-ci bəndində “, 18 yaşınadək əlilliyi müəyyən edilmiş məhkumlara” sözləri “məhkumlara, əlilliyi olan məhkum uşaqlara” sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 22 noyabr tarixli 213 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1073 (Cild I); 2024, № 3, maddə 311; 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş “Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər üçün kvota tətbiq edilməsi Qaydası”nın 1.3-cü bəndinin üçüncü abzasında “18 yaşınadək əlilliyi müəyyən edilmiş” sözləri “əlilliyi olan” sözləri ilə əvəz edilsin.

**7.** “Bakı-Naxçıvan və Naxçıvan-Bakı hava xətti ilə uçan şəxslərə güzəştlərin edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 27 dekabr tarixli 210 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 12, maddə 1345 (Cild I) 2-ci hissəsində “, 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə” sözləri “şəxslərə, əlilliyi olan uşaqlara” sözləri ilə əvəz edilsin.

**8.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 18 aprel tarixli 91 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 4, maddə 311 (Cild I) ilə təsdiq edilmiş “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin manevr fondu yaşayış sahəsi ilə təmin olunma qaydası və həmin müvəqqəti yaşayış yerlərində yaşamaq müddətinin artırılmasının müstəsna halları”nın 9.4-cü bəndində “18 yaşınadək əlilliyi müəyyən edilmiş” sözləri “əlilliyi olan” sözləri ilə əvəz edilsin.

**9.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 5 fevral tarixli 22 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 145 (Cild I); 2024, № 1, maddə 111, № 5 (II kitab), maddə 612; 2025, № 1, maddə 90, № 3, maddə 282) ilə təsdiq edilmiş “Avtovağzal və avtostansiya haqqında Əsasnamə”nin 6.3-cü bəndinin birinci cümləsində və 6.4-cü bəndində “18 yaşınadək əlilliyi müəyyən edilmiş” sözləri “əlilliyi olan” sözləri ilə əvəz edilsin.

**10.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 31 yanvar tarixli 17 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 1, maddə 76 (Cild I) ilə təsdiq edilmiş “Evdə (səyyar) sosial xidmətin göstərilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

10.1. 3.2.2-ci yarımbənddə “18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə” sözləri “əlilliyi olan uşaqlara” sözləri ilə əvəz edilsin;

10.2. 3.2.4-3.2.6-cı və 3.2.8-ci yarımbəndlərdə “18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin” sözləri “əlilliyi olan uşaqların” sözləri ilə əvəz edilsin.

**11.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 10 iyun tarixli 111 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 6, maddə 725 (Cild I); 2024, №2, maddə 204, №3, maddə 314) ilə təsdiq edilmiş “Çətin həyat şəraitində hesab edilmənin əsasları üzrə şəxsin (ailənin) çətin həyat şəraitində olmasını təsdiq edən sənədlərin siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

11.1. 3-cü hissənin adında “18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər” sözləri “Əlilliyi olan uşaqlar” sözləri ilə əvəz edilsin;

11.2. 3.1-ci bənddə “18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsin” sözləri “Əlilliyi olan uşağın” sözləri ilə əvəz edilsin.

**12.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 5 noyabr tarixli 320 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 11, maddə 1457 (Cild I); 2024, № 1, maddə 110, № 7, maddə 931, № 9, maddə 1100) ilə təsdiq edilmiş “Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

12.1. 1.3-cü bənddə “18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə” sözləri “əlilliyi olan uşaqlara” sözləri ilə əvəz edilsin;

12.2. 2.2-ci bənddə “18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər” sözləri “Əlilliyi olan uşaqlar” sözləri ilə əvəz edilsin;

12.3. 2.2.1-ci və 2.2.2-ci yarımbəndlərdə “18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər” sözləri “əlilliyi olan uşaqlar” sözləri ilə əvəz edilsin.

**13.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 aprel tarixli 108 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 452 (Cild I); 2024, № 7, maddə 916) ilə təsdiq edilmiş “Çətin həyat şəraitində olan şəxslərə (ailələrə) dövlət büdcəsinin vəsaiti hesabına göstərilən sosial xidmətin zəmanət verilmiş həcmi”nin 1.2-ci, 2.2-ci və 3.2-ci bəndlərində “18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər” sözləri “Əlilliyi olan uşaqlar” sözləri ilə əvəz edilsin.

**14.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 37 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 379 (Cild I); 2024, № 2, maddə 229, № 3, maddə 320, № 12 (II kitab), maddə 1431; 2025, № 3, maddə 304; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 2 iyul tarixli 192 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

14.1. 1.2.2-ci yarımbənddə “18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsə” sözləri “əlilliyi olan uşağa” sözləri ilə əvəz edilsin;

14.2. 5.22-ci bənddə “18 yaşınadək əlilliyi müəyyən edilmiş” sözləri “əlilliyi olan uşağı” sözləri ilə əvəz edilsin.

**15.** “Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 8 iyul tarixli 202 nömrəli, 15 iyul tarixli 210, 212 nömrəli və 1 avqust tarixli 228 nömrəli qərarları) aşağıdakı dəyişikliklər edilsin:

15.1. həmin Qərarla təsdiq edilmiş “Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatına əlavə”nin 1.2.1.4-cü yarımbəndində “, həmçinin 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər” sözləri “şəxslər və əlilliyi olan uşaqlar” sözləri ilə əvəz edilsin;

15.2. həmin Qərarla təsdiq edilmiş “Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatına əlavə” üzrə:

15.2.1. “270000. “Sosial ödənişlər” bölməsinin ikinci cümləsində “18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə” sözləri “əlilliyi olan uşaqlara” sözləri ilə əvəz edilsin;

15.2.2. “271923. “Əlilliyi olan şəxslərə maddi və texniki yardımın təşkili” yarımmaddəsində “18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin” sözləri “əlilliyi olan uşaqların” sözləri ilə əvəz edilsin.

**16.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 mart tarixli 97 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 358 (Cild I); 2024, № 3, maddə 314, № 9, maddə 1104; 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş “Sosial müəssisələrin Standartları”nın 3.2.1-ci yarımbəndində “18 yaşınadək əlilliyi müəyyən edilmiş” sözləri “əlilliyi olan” sözləri ilə əvəz edilsin.

**17.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 oktyabr tarixli 398 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1286 (Cild I); 2024, № 3, maddə 330; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 1 avqust tarixli 230 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Ödənişsiz psixoloji yardımın göstərilməsi Qaydası və Şərtləri”nin 4.11-ci bəndinin ikinci cümləsində “18 yaşınadək əlilliyi müəyyən edilmiş” sözləri “əlilliyi olan” sözləri ilə əvəz edilsin.

**18.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 18 dekabr tarixli 501 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1602 (Cild I); 2024, № 1, maddə 109, № 6 (II kitab), maddə 727) ilə təsdiq edilmiş “Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

18.1. 2.7-2-ci bənddə “18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsin” sözləri “əlilliyi olan uşağın” sözləri ilə əvəz edilsin;

18.2. 3.16-1-ci bənddə “18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsə” sözləri “Əlilliyi olan uşağa” sözləri ilə əvəz edilsin.;

18.3. “Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası”na əlavə - “Əlilliyi olan şəxslərə reabilitasiya vasitələrinin verilməsinə dair tibbi göstərişlər, əks-göstərişlər, reabilitasiya vasitələrinin istifadə, təminat, hazırlanma, təmir və ya dəyişdirilmə müddətləri”nin 1.1.1-ci, 1.1.2-ci, 1.1.3-cü, 1.1.4-cü, 1.1.5-ci, 1.1.6-cı, 1.2.4-cü, 1.3.1-ci, 1.3.2-ci, 1.3.3-cü, 1.3.4-cü, 1.3.5-ci, 1.4.10-cu, 1.5.1-ci, 1.5.2-ci, 1.6.1-ci, 1.6.2-ci, 1.6.3-cü, 1.7.1-ci, 1.8.1-ci, 1.8.2-ci, 1.8.3-cü, 1.9.1-ci, 1.9.2-ci, 1.9.3-cü, 1.9.4-cü, 1.10.1-ci, 1.10.2-ci, 1.10.4-cü, 1.10.5-ci, 1.15.5-ci yarımbəndlərinin “İstifadə müddəti” sütununda “18 yaşadək şəxslərin” sözləri “uşaqların” sözü ilə əvəz edilsin.

**19.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 dekabr tarixli 519 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1620 (Cild I) ilə təsdiq edilmiş “Fərdi Reabilitasiya Proqramının hazırlanması, təsdiq edilməsi və həyata keçirilməsi Qaydası”nın 2.10-cu bəndində və həmin Qaydaya 1 nömrəli əlavə - “Fərdi Reabilitasiya Proqramı”nın 27-ci bəndinin cədvəlinin “Psixoloji-pedaqoji reabilitasiya tədbirlərinin adı” sütununun dördüncü sətrində “18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə” sözləri “əlilliyi olan uşaqlara” sözləri ilə əvəz edilsin.

**20.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 dekabr tarixli 521 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1622 (Cild I) ilə təsdiq edilmiş “Əlilliyi olan şəxslərin abilitasiyası Qaydası”nın 2.6-cı bəndində “18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə” sözləri “əlilliyi olan uşaqlara” sözləri ilə əvəz edilsin.

**21.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 aprel tarixli 111 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 414 (Cild I); 2024, № 1, maddə 110, № 4, maddələr 478, 479, № 5 (II kitab), maddə 611, № 9, maddə 1067) ilə təsdiq edilmiş “Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evlərinə qəbulu, qrup evlərini tərk etməsi, qrup evlərində xidmətin təşkili, həmçinin qrup evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar”ın 1.1-ci bəndində və 4.5-ci bəndinin ikinci cümləsində “18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər” sözləri “əlilliyi olan uşaqlar” sözləri ilə əvəz edilsin.

**22.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 24 iyul tarixli 226 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 7, maddə 887 (Cild I); 2024, № 5 (II kitab), maddə 588) ilə təsdiq edilmiş “Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına təhsil tələbə kreditlərinin verilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

22.1. 3.2.7-ci yarımbənddə “və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə” sözləri “əlilliyi müəyyən edilmiş şəxslərə və ya əlilliyi olan uşaqlara” sözləri ilə əvəz edilsin;

22.2. 7.6.5-ci yarımbənddə “və 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə” sözləri “əlilliyi müəyyən edilmiş şəxslərə və əlilliyi olan uşaqlara” sözləri ilə əvəz edilsin.

**23.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 23 dekabr tarixli 406 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1530 (Cild I); 2024, № 3, maddə 314, № 5 (II kitab), maddələr 611, 617) ilə təsdiq edilmiş “Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

23.1. 1.1-ci bənddən “, o cümlədən 18 yaşınadək sağlamlıq imkanları məhdud uşaqların (bundan sonra – əlilliyi olan şəxslər)” sözləri çıxarılsın;

23.2. 4.6-cı bənddə “sağlamlıq imkanları məhdud 18 yaşınadək” sözləri “əlilliyi olan” sözləri ilə əvəz edilsin;

23.3. 4.8-ci bənd üzrə:

23.3.1. birinci cümlədə “I dərəcə əlilliyi olan şəxsin və ya 18 yaşınadək sağlamlıq imkanları məhdud” sözləri “Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxsin və ya əlilliyi olan” sözləri ilə əvəz edilsin;

23.3.2. ikinci cümlədə “I dərəcə əlilliyi olan şəxsləri və ya 18 yaşınadək sağlamlıq imkanları məhdud” sözləri “Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxsləri və ya əlilliyi olan” sözləri ilə əvəz edilsin və həmin cümlədən “və 18 yaşınadək sağlamlıq imkanları məhdud uşaqların” sözləri çıxarılsın.

**24.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 30 iyul tarixli 368 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 929; 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş “Sosial ödənişlərin təyin edilməsi, ödənilməsi, ödənişinin dayandırılması və sosial ödəniş işlərinin mühafizəsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

24.1. 1.2-ci bənddə (hər iki halda) “və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə” sözləri “əlilliyi müəyyən edilmiş şəxslərə və ya əlilliyi olan uşaqlara” sözləri ilə əvəz edilsin;

24.2. 3.2-ci və 3.3-cü bəndlərdə, 4.1.12-ci yarımbənddə “18 yaşınadək əlilliyi müəyyən edilmiş” sözləri “əlilliyi olan” sözləri ilə əvəz edilsin;

24.3. 4.1.3-cü və 4.1.4-cü yarımbəndlərdə “əlilliyi müəyyən edilmiş” sözləri “əlilliyi olan” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 273**

**Bakı şəhəri, 18 sentyabr 2025-ci il**

**“Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 151-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 1 aprel tarixli 359 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 151-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 1 aprel tarixli 359 nömrəli Fərmanının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirləri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 7 noyabr tarixli 179 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 11, maddə 719 (Cild I); 2024, № 1, maddə 123, № 4, maddə 479; 2025, № 7, maddə 696) 2-ci hissəsinin üçüncü abzası aşağıdakı redaksiyada verilsin:

“valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər ümumi təhsil, peşə təhsili, orta ixtisas təhsili və ali təhsil müəssisələrini bitirdikləri zaman müvafiq təhsil müəssisəsinin xərclər smetası hesabına “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 151-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 1 aprel tarixli 359 nömrəli Fərmanının 2-ci hissəsinə uyğun olaraq 2600 (iki min altı yüz) manat məbləğində birdəfəlik müavinətlə təmin edilsinlər;”.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 iyun tarixli 103 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 549 (Cild I); 2024, № 6 (II kitab), maddə 721) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları”nın 15.2-ci bəndinin ikinci cümləsində “qanunvericilikdə nəzərdə tutulmuş qaydada mövsümi paltar və ayaqqabıdan əlavə, yataq ləvazimatı və müəyyən edilmiş məbləğdə birdəfəlik pul vəsaiti” sözləri “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirləri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 7 noyabr tarixli 179 nömrəli Qərarına uyğun olaraq birdəfəlik müavinət” sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 37 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 379 (Cild I); 2024, № 2, maddə 229, № 3, maddə 320, № 12 (II kitab), maddə 1431; 2025, № 3, maddə 304, № 7, maddə 696) ilə təsdiq edilmiş “Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları”nın 5.24.3-cü yarımbəndinə “olan şəxslərə” sözlərindən sonra “ümumi təhsil, peşə təhsili, orta ixtisas təhsili və ali təhsil müəssisələrini bitirdikləri zaman ödənilən birdəfəlik müavinət, həmçinin” sözləri əlavə edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 8 fevral tarixli 75 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 2, maddə 207; 2025, № 4 (I kitab), maddə 403, № 7, maddə 699) ilə təsdiq edilmiş “Sağlamlıq imkanları məhdud olan şəxslərin təhsili üçün xüsusi təhsilin dövlət standartları”nın 7.37-ci bəndi aşağıdakı redaksiyada verilsin:

“7.37. İnternat tipli xüsusi ümumi təhsil məktəblərini, inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəbini bitirən şagirdlərə istifadələrində olan paltar və ayaqqabını özləri ilə aparmalarına icazə verilir. İnternat tipli xüsusi ümumi təhsil məktəblərinin və inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəbinin valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş məzunlarına “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirləri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 7 noyabr tarixli 179 nömrəli Qərarına uyğun olaraq birdəfəlik müavinət verilir.”.

**5.** Keçid müddəalar

5.1. Bu Qərarın 1-ci hissəsi 2025-ci il aprelin 1-dək ümumi təhsil, peşə təhsili, orta ixtisas təhsili, ali təhsil müəssisələrini bitirmiş valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara, habelə onların arasından olan şəxslərə şamil edilmir.

5.2. 2025-ci il aprelin 1-dək ümumi təhsil, peşə təhsili, orta ixtisas təhsili, ali təhsil müəssisələrini bitirmiş valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslərə münasibətdə “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirləri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 7 noyabr tarixli 179 nömrəli Qərarının 2-ci hissəsinin üçüncü abzasının bu dəyişiklikdən əvvəlki redaksiyası tətbiq olunur.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 279** **Bakı şəhəri, 22 sentyabr 2025-ci il**

**Azərbaycan Respublikası Prezidentinin "Antiinhisar və istehlak bazarına nəzarət sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2024-cü il 27 avqust tarixli 190 nömrəli və "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2025-ci il 12 fevral tarixli 327 nömrəli fərmanlarının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Antiinhisar və istehlak bazarına nəzarət sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2024-cü il 27 avqust tarixli 190 nömrəli və "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2025-ci il 12 fevral tarixli 327 nömrəli fərmanlarının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan Respublikasında bəzi tünd spirtli içkilərin istehsalına və satışına dövlət nəzarətinin gücləndirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 7 aprel tarixli 71 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 279 (Cild I) 3-cü hissəsinə "Dövlət Gömrük Komitəsinə" sözlərindən sonra "və Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə" sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 21 avqust tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 558 (Cild I); 2024, № 3, maddə 338) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında telekommunikasiya vasitələri və qurğularının sertifikatlaşdırılması Qaydaları"nın mətni üzrə ismin müvafiq hallarında "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti" sözləri ismin müvafiq hallarında "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 oktyabr tarixli 205 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 626 (Cild I) ilə təsdiq edilmiş "Hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə ölçmə vasitələrinin yoxlanılması və məlumatların sertifikatlaşdırılması Qaydası"nın 2-ci, 3-cü, 5-ci və 8-ci hissələrində "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**4.** "Nəqliyyat vasitələrinə texniki xidmət göstərilməsi haqqında nümunəvi Əsasnamənin, Nəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki-təmir sahələri haqqında nümunəvi Əsasnamənin və Nəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki-təmir stansiyaları haqqında nümunəvi Əsaanmənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 oktyabr tarixli 163 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 10, maddə 597 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

4.1. həmin Qərarla təsdiq edilmiş "Nəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki-təmir sahələri haqqında Nümunəvi Əsasnamə"nin 2.3-2-ci bəndində "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin;

4.2. həmin Qərarla təsdiq edilmiş "Nəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki-təmir stansiyaları haqqında Nümunəvi Əsasnamə"nin 2.4-2-ci bəndində "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 8 noyabr tarixli 174 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 11, maddə 649 (Cild I) ilə təsdiq edilmiş "Kököstə buraxılan oduncaq və ikinci dərəcəli meşə ehtiyatlarının məcburi sertifikatlaşdırılmasının təşkili və aparılması Qaydası"nın 6-cı hissəsində "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**6.** "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin fəaliyyətinin təşkili və "Malın mənşəyi haqqında sertifikat" formasının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 5 dekabr tarixli 211 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 12, maddə 862 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

6.1. adında və 4-cü hissəsində "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin;

6.2. 6-cı hissənin birinci abzasında "İqtisadiyyat Nazirliyi" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin, dördüncü abzasından "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti" sözləri çıxarılsın.

**7.** "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 8 iyul tarixli 102 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 7, maddə 442 (Cild I) ilə təsdiq edilmiş "Təhlükə potensiallı obyektlərdə istehsal və istifadə olunan texniki qurğulara və avadanlıqlara sertifikatın verilmə Qaydaları"nın 2.7-ci bəndində "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**8.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 17 oktyabr tarixli 159 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 642 (Cild I) ilə təsdiq edilmiş "Yanacağın, texniki qurğuların, texnoloji proseslərin, mühərriklərin, nəqliyyat və digər səyyar vasitələrin, avadanlıqların atmosfer havasının mühafizəsinə dair tələblərə uyğun olmasını təsdiq edən sertifikatlaşdırmanın Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

8.1. 1.6-cı bənddə, 2.1-ci bəndin ikinci, 2.2-ci bəndin birinci, 2.5-ci bəndin beşinci, 3.1-ci bəndin ikinci və onuncu abzaslarında ismin müvafiq hallarında "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti" sözləri ismin müvafiq hallarında "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin;

8.2. 1.7-ci bənd ləğv edilsin.

**9.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 22 noyabr tarixli 185 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 11, maddə 687 (Cild I) ilə təsdiq edilmiş "Tütünün və tütün məmulatının keyfiyyətinə və dövriyyəsinə dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nın I bölməsinin 2-ci hissəsinə "Komitəsi," sözündən sonra "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi," və II bölməsinin 2-ci hissəsinə "Komitəsi" sözündən sonra ", Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri əlavə edilsin.

**10.** "Atmosfer havasına atılan zərərli maddələrin stasionar mənbələri, habelə atmosfer havasının çirklənmə mənbəyi olan nəqliyyat, digər səyyar vasitələri və qurğuların növləri üçün atılmanın texniki normativlərinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 18 dekabr tarixli 198 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 12, maddə 750 (Cild I) 3-cü hissəsində "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə" sözləri ilə əvəz edilsin.

**11.** "Obyektlərdə elektrik, qaz və su sayğaclarının quraşdırılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 27 iyul tarixli 101 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 592 (Cild I); 2024, № 2, maddə 229) 7-ci və 8-ci hissələrində "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə" sözləri ilə əvəz edilsin.

**12.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 2 fevral tarixli 18 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 121 (Cild I); 2024, № 1, maddə 116, № 4, maddə 471, № 10, maddə 1180, № 11, maddə 1253, № 12 (II kitab), maddə 1461) ilə təsdiq edilmiş "Elektrik enerjisindən istifadə Qaydaları"nın 7.15-ci bəndinin birinci abzasında, 7.16-cı bənddə, 8.7-ci bəndin üçüncü abzasının beşinci cümləsində, 8.15-ci bəndin üçüncü cümləsində və 12.6-cı bəndin dördüncü abzasının beşinci cümləsində "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin.

**13.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 136 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 861 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddə 467, № 9, maddələr 1090, 1100; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 1 avqust tarixli 230 nömrəli Qərarı) ilə təsdiq edilmiş "İnzibati orqanların Təsnifatı"nın II bölməsində aşağıdakı dəyişikliklər edilsin:

13.1. 6.2-ci və 6.5-ci bəndlər ləğv edilsin;

13.2. aşağıdakı məzmunda 29-2-ci hissə əlavə edilsin:

29-2. Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi

29-2.1. Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin regional bölmələri

**14.** "Şəhərsalma fəaliyyətini tənzimləyən norma və qaydaların təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 18 sentyabr tarixli 217 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 9, maddə 864 (Cild I) 1.2-ci bəndində "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**15.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 dekabr tarixli 277 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 12, maddə 1115 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddələr 437, 449, 467, № 9, maddə 1100) ilə təsdiq edilmiş "Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları"nda aşağıdakı dəyişikliklər edilsin:

15.1. "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin yanında" qrafasının ikinci abzasından "Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin Aparatı" sözləri, "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində olan regional bölmələr" qrafasının ikinci abzasından "Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin regional bölmələri" sözləri çıxarılsın;

15.2. "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Aparatı" sözlərindən sonra "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Aparatı" sözləri, "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ASAN xidmət" mərkəzləri" sözlərindən sonra "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin regional bölmələri" sözləri əlavə edilsin.

**16.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 8 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 1, maddə 26 (Cild I) ilə təsdiq edilmiş "Ekoloji təmiz kənd təsərrüfatı və qida məhsullarının istehsalı Qaydaları, habelə ekoloji təmiz kənd təsərrüfatında istifadəsinə icazə verilən təbii və qeyri-təbii vasitələrin siyahısı"nın 3.1-ci bəndində "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**17.** "Azərbaycan Respublikasının ərazisində dövriyyəyə buraxılan (idxal və Azərbaycan Respublikasında istehsal edilən) avtonəqliyyat vasitələrindən atmosfer havasına atılan zərərli maddələrə dair tələblərin Avropa standartlarına uyğunlaşdırılması tədbirləri barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 mart tarixli 45 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 3, maddə 256 (Cild I) 3-cü hissəsində "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə" sözləri ilə əvəz edilsin.

**18.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 452 (Cild I); 2024, № 3, maddə 336) ilə təsdiq edilmiş "Qazdan istifadə Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

18.1. 3.2.13-cü yarımbənddə "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin (bundan sonra – Xidmət)" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (bundan sonra – Agentlik)" sözləri ilə əvəz edilsin;

18.2. 4.1-ci, 4.3-cü bəndlərdə və 6.1.3-cü yarımbənddə "Xidmət" sözü "Agentlik" sözü ilə əvəz edilsin;

18.3. 4.6-cı bənddə "Xidmətin" sözü "Agentliyin" sözü ilə əvəz edilsin;

18.4. həmin Qaydalara 2 nömrəli əlavə - "Qaz paylayıcısı ilə məişət qaz qurğusu istifadəçisi arasında qazın alqı-satqısı Müqaviləsi"nin 2.2.6.3-cü yarımbəndində və həmin Qaydalara 3 nömrəli əlavə - "Qaz paylayıcısı ilə sənaye qaz qurğusu istifadəçisi arasında qazın alqı-satqı Müqaviləsi"nin 2.2.7.3-cü yarımbəndində "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin.

**19.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 747 (Cild I); 2024, № 1, maddə 101, № 3, maddə 310, № 4, maddə 449, № 5 (II kitab), maddələr 572, 607, № 7, maddələr 895, 915, № 12 (II kitab), maddə 1428) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)"nin 35-ci hissəsinin "Orqanın adı" sütununda "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**20.** "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 13 noyabr tarixli 259 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 11, maddə 1198 (Cild I); 2024, № 4, maddə 437, № 6 (II kitab), maddə 736, № 9, maddə 1106) aşağıdakı dəyişikliklər edilsin:

20.1. 13-cü hissədə "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin;

20.2. həmin Qərarla təsdiq edilmiş 5 nömrəli əlavə - "Ölkə daxilində genetik modifikasiya olunmuş bitkilərin mövcudluğu və yayılma zonasının aşkarlanması Qaydası"nın 2.1-ci bəndində "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə" sözləri ilə, 2.3-cü, 2.5-ci bəndlərində, 2.6-cı bəndinin birinci cümləsində və 2.8.1-ci yarımbəndində "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin;

20.3. həmin Qərarla təsdiq edilmiş 7 nömrəli əlavə - "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi üzrə idarəetmə sisteminə daxil olan Elmi-Texniki Şuranın Əsasnaməsi"nin 1.2-ci və 3.4-cü bəndlərində "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**21.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 11 dekabr tarixli 291 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1355 (Cild I) ilə təsdiq edilmiş "Ölkə daxilində aşkarlanan genetik modifikasiya olunmuş bitkilərdən yarana biləcək təhlükənin təyin edilməsi Qaydası"nın 2.2-ci, 2.6-cı bəndlərində və 2.7-ci bəndinin ikinci cümləsində "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin.

**22.** "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 23 may tarixli 166 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 590 (Cild I) 1-ci hissəsinin "Kollegiyanın üzvləri" bölməsindən "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi." sözləri çıxarılsın.

**23.** "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 13 iyun tarixli 686-IVQ nömrəli Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 9 iyun tarixli 187 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 741 (Cild I); 2024, № 9, maddə 1090) aşağıdakı dəyişikliklər edilsin:

23.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə – "Ölçmələrin vəhdətinin təmin edilməsinin dövlət tənzimlənməsinə aid olan ölçmə metodikalarının (metodlarının) attestasiyası və tətbiqi Qaydası"nın 1.3.5-ci yarımbəndində "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti (bundan sonra – Xidmət)" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (bundan sonra – Agentlik)" sözləri ilə, 3.4.1-ci yarımbəndinin ikinci cümləsində "Xidmət" sözü "Agentlik" sözü ilə əvəz edilsin;

23.2. həmin Qərarla təsdiq edilmiş 4 nömrəli əlavə - "Texniki vasitələrin ölçmə vasitələrinə aid edilməsi Qaydası"nın 2.1-ci bəndində "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti (bundan sonra – Xidmət)" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (bundan sonra – Agentlik)" sözləri ilə, 2.2-ci, 2.3-cü bəndlərində, 2.5-ci bəndinin birinci cümləsində, 2.7-ci və 2.8-ci bəndlərində ismin müvafiq hallarında "Xidmət" sözü ismin müvafiq hallarında "Agentlik" sözü ilə əvəz edilsin;

23.3. həmin Qərarla təsdiq edilmiş 5 nömrəli əlavədə "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin;

23.4. həmin Qərarla təsdiq edilmiş 6 nömrəli əlavə – "Tipi təsdiq edilmiş standart nümunələrin və ölçmə vasitələrinin dövlət reyestrinin aparılması Qaydası"nın 1.2-ci bəndində "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti (bundan sonra – Xidmət)" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (bundan sonra – Agentlik)" sözləri ilə, 2.1.7-ci və 2.2.6-cı yarımbəndlərində, 2.3-cü bəndində, 3.1.2-ci və 3.1.3-cü yarımbəndlərində (hər iki halda), 4.2-ci (hər iki halda) və 5.1-ci bəndlərində, 5.2.1.4-cü yarımbəndində, 6.1-ci və 6.2-ci (hər iki halda) bəndlərində, həmin Qaydaya əlavənin "Ölçmə vasitələrinin dövlət reyestri kitabının forması" cədvəlinin 8-ci və "Standart nümunələrin dövlət reyestri kitabının forması" cədvəlinin 7-ci sütununda "Xidmətin" sözü ismin müvafiq hallarında "Agentlik" sözü ilə əvəz edilsin;

23.5. həmin Qərarla təsdiq edilmiş 7 nömrəli əlavə – "Standart nümunələrin və ya ölçmə vasitələrinin tipinin təsdiqi məqsədi ilə sınaqların keçirilməsi, standart nümunələrin və ya ölçmə vasitələrinin tipinin təsdiqi, bu barədə sertifikatın verilməsi, ölçmə vasitələrinin yoxlamalararası intervalının müəyyən edilməsi və dəyişdirilməsi qaydası, standart nümunələrin və ölçmə vasitələrinin tipini təsdiq edən nişanlara dair tələblər və həmin nişanların vurulma Qaydası"nın 1.4-cü bəndinin birinci cümləsində "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti (bundan sonra – Xidmət)" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (bundan sonra – Agentlik)" sözləri ilə, 1.5-ci bəndində, 3.1-ci bəndinin birinci və ikinci cümlələrində, 4.3-cü və 6.1-ci bəndlərində ismin müvafiq hallarında "Xidmət" sözü ismin müvafiq hallarında "Agentlik" sözü ilə əvəz edilsin;

23.6. həmin Qərarla təsdiq edilmiş 8 nömrəli əlavə - "Layihə-konstruktor və texnoloji sənədlərin məcburi metroloji ekspertizasının keçirilməsi Qaydası"nın 3.1-ci bəndinin birinci cümləsində "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti (bundan sonra – Xidmət)" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə (bundan sonra – Agentlik)" sözləri ilə, ikinci, üçüncü cümlələrində və 3.2-ci bəndində ismin müvafiq hallarında "Xidmət" sözü ismin müvafiq hallarında "Agentlik" sözü ilə əvəz edilsin;

23.7. həmin Qərarla təsdiq edilmiş 10 nömrəli əlavə - "Ölçmələrin vəhdətinin təmin edilməsi üzrə dövlət məlumat fondunun təşkili və aparılması, məlumatların fonda verilməsi, fonddan sənədlərin və məlumatların təqdim edilməsi Qaydası"nın 1.3-cü bəndində "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti (bundan sonra – Xidmət)" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (bundan sonra – Agentlik)" sözləri ilə, 2.2-ci bəndinin birinci cümləsində, 2.4-cü bəndinin ikinci cümləsində, 2.5-ci və 2.7-ci bəndlərində ismin müvafiq hallarında "Xidmət" sözü ismin müvafiq hallarında "Agentlik" sözü ilə əvəz edilsin;

23.8. həmin Qərarla təsdiq edilmiş 11 nömrəli əlavə - "Ölçmə vasitələrinin kalibrlənməsi işlərini yerinə yetirmək, kalibrlənmə haqqında sertifikat vermək və ya kalibrlənmə nişanını vurmaq hüququnun verilməsi Qaydası və kalibrlənmə işlərinin yerinə yetirilməsinə dair Tələblər"in 1.4-cü bəndində "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti (bundan sonra – Xidmət)" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (bundan sonra – Agentlik)" sözləri ilə, 2.1-ci və 2.2-ci bəndlərində, 3.4.3-cü yarımbəndinin ikinci cümləsində ismin müvafiq hallarında "Xidmət" sözü ismin müvafiq hallarında "Agentliyin" sözü ilə əvəz edilsin.

**24.** "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən metroloji qayda və normalara riayət olunmasına dövlət nəzarəti aparılarkən, iradnamə və tələbnamələrin verilməsi Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 9 iyun tarixli 188 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 742 (Cild I); 2024, № 1, maddə 116) aşağıdakı dəyişikliklər edilsin:

24.1. adında və ikinci abzasda "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin;

24.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən metroloji qayda və normalara riayət olunmasına dövlət nəzarəti aparılarkən, iradnamə və tələbnamələrin verilməsi Qaydası"nın adında, 1.1-ci bəndində və həmin Qaydanın 1, 3, 4 və 5 nömrəli əlavələrinin yuxarı sağ küncündə və mətnində "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**25.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 iyul tarixli 215 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 905 (Cild I) ilə təsdiq edilmiş "Dövlətin müdafiəsi və təhlükəsizliyi sahəsində fəaliyyətin həyata keçirilməsi məqsədi ilə ölçmələrin vəhdətinin təmin edilməsinin xüsusiyyətləri"nin 1.4-cü, 1.5-ci, 1.9-cu, 1.10-cu və 1.11-ci bəndlərində "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**26.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 17 iyul tarixli 262 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 950 (Cild I); 2024, № 2, maddə 229, № 3, maddə 336, № 9, maddə 1048; 2025, № 4 (I kitab), maddə 398) ilə təsdiq edilmiş "Sudan istifadə Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

26.1. 6.1-ci bənddə "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti (bundan sonra – Xidmət)" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (bundan sonra – Agentlik)" sözləri ilə və həmin bənddə "Xidmətin" sözü "Agentliyin" sözü ilə əvəz edilsin;

26.2. 6.6-cı, 6.15-ci bəndlərdə və 6.15.2-ci yarımbənddə "Xidmətin" sözü "Agentliyin" sözü ilə əvəz edilsin.

**27.** "Dövlət ilkin kəmiyyət vahidləri etalonlarının təsdiqi, saxlanılması, tutuşdurulması və tətbiqi, kəmiyyət vahidinin dövlət etalonundan ötürülməsi, kəmiyyət vahidləri etalonlarından istifadə qaydaları, kəmiyyət vahidi etalonlarına dair məcburi tələblər və bu tələblərə uyğunluğun qiymətləndirilməsi Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 16 dekabr tarixli 392 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 12, maddə 1669 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

27.1. həmin Qərarla təsdiq edilmiş "Dövlət ilkin kəmiyyət vahidləri etalonlarının təsdiqi, saxlanılması, tutuşdurulması və tətbiqi, kəmiyyət vahidinin dövlət etalonundan ötürülməsi, kəmiyyət vahidləri etalonlarından istifadə qaydaları, kəmiyyət vahidi etalonlarına dair məcburi tələblər və bu tələblərə uyğunluğun qiymətləndirilməsi Qaydası"nın 1.3-cü bəndində "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti (bundan sonra – Xidmət)" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (bundan sonra – Agentlik)" sözləri ilə və mətn üzrə ismin müvafiq hallarında "Xidmət" sözü ismin müvafiq hallarında "Agentlik" sözü ilə əvəz edilsin;

*(ardı 12-ci səhifədə)*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

*(əvvəli 11-ci səhifədə)*

27.2. həmin Qərarla təsdiq edilmiş Qaydaya əlavədə "AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ YANINDA ANTİİNHİSAR VƏ İSTEHLAK BAZARINA NƏZARƏT DÖVLƏT XİDMƏTİ" sözləri "AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ANTİİNHİSAR VƏ İSTEHLAK BAZARINA NƏZARƏT DÖVLƏT AGENTLİYİ" sözləri ilə əvəz edilsin.

**8** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 16 dekabr tarixli 394 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 12, maddə 1671 (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Ölçmə vasitələrinin yoxlanılması Qaydası və yoxlama nişanına dair Tələblər"in 1.3-cü bəndində "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti (bundan sonra – Xidmət)" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (bundan sonra – Agentlik)" sözləri ilə və mətn üzrə ismin müvafiq hallarında "Xidmət" sözü ismin müvafiq hallarında "Agentlik" sözü ilə əvəz edilsin.

**9** "Dövlət ilkin kəmiyyət vahidi etalonlarından kəmiyyət vahidlərinin ötürülməsinə görə xidmət haqqının məbləğinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 437 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2152 (Cild I); 2024, № 3, maddə 341) 2-ci hissəsində "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**0.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 8 iyul tarixli 202 nömrəli, 15 iyul tarixli 210 və 212 nömrəli, 1 avqust tarixli 228 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı" üzrə:

30.1. 42-ci hissə ləğv edilsin və aşağıdakı məzmunda 128-1-ci hissə əlavə edilsin:

128-1. Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi 1278

30.2. 198-ci və 217-ci hissələrdə "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin.

**1.** "Uyğunluğu qiymətləndirən qurumların akkreditasiyasının həyata keçirilməsinə görə xidmət haqqının məbləği"nin və "Uyğunluğu qiymətləndirən qurumların akkreditasiyasının həyata keçirilməsi üçün planlaşdırılan iş həcminin xüsusiyyətləri"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 13 iyun tarixli 271 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1160 (Cild I); 2024, № 3, maddə 341) 3-cü hissəsində "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**2** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 1 avqust tarixli 338 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1445 (Cild I); 2024, № 1, maddə 122, № 2, maddə 200, № 3, maddə 359, № 7, maddə 930) ilə təsdiq edilmiş "Nəzarət-kassa aparatlarının istismarı Qaydaları"nın 1.3.6-cı yarımbəndinə "Respublikasının" sözündən sonra "Prezidenti yanında" sözləri əlavə edilsin.

**3** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 oktyabr tarixli 323 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1190 (Cild I) ilə təsdiq edilmiş "Məlumat mərkəzinin yaradılması və fəaliyyət Qaydası"nın 1.2-ci bəndində "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (bundan sonra – Nazirlik)" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" (bundan sonra – Agentlik)" sözləri ilə, 2.1-ci, 5.2-ci və 6.1-ci bəndlərində "Nazirliyin" sözü "Agentliyin" sözü ilə əvəz edilsin.

**4** "Enerji istehlak edən və ya enerji istehlakına təsir edən məhsullar üzrə ekoloji dizayn tələbləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 63 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 326 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

34.1. 2-ci hissədə "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin;

34.2. həmin Qərarla təsdiq edilmiş "Enerji istehlak edən və ya enerji istehlakına təsir edən məhsullar üzrə ekoloji dizayn tələbləri"nin 2.2-ci bəndinin birinci abzasında "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (bundan sonra – Nazirlik)" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" (bundan sonra – Agentlik)" sözləri ilə, 2.3-cü bəndində isə "Nazirliyə" sözü "Agentliyə" sözü ilə əvəz edilsin.

**5** "Malların risk qruplarının təyin edilməsi meyarları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 31 yanvar tarixli 63 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 1, maddə 130) 2-ci hissəsində "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**6** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 27 may tarixli 284 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 621) ilə təsdiq edilmiş "Standartlaşdırma sahəsində normativ sənədlərin hazırlanması, razılaşdırılması, ekspertizası, qəbul edilməsi, dövlət reyestrinə və fonduna daxil edilməsi, dəyişiklik edilməsi və nəşri Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

36.1. 1.2.1-ci yarımbənddə "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin (bundan sonra - AİBNDX)" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin (bundan sonra – ARPAİBNDA)" sözləri ilə əvəz edilsin;

36.2. 4.3.6-cı yarımbənddə "AİBNDX" akronimi "ARPAİBNDA" akronimi ilə əvəz edilsin.

**7** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 27 may tarixli 285 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 622) ilə təsdiq edilmiş "Milli standartlaşdırma proqramının formalaşdırılması və onda dəyişiklik edilməsi Qaydası"nın 1.2.1-ci yarımbəndində "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin.

**8** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 3 iyun tarixli 294 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 6 (II kitab), maddə 714) ilə təsdiq edilmiş "Standartlaşdırma üzrə texniki komitələrin yaradılması və fəaliyyətinin təşkili Qaydaları"nın 1.2.1-ci yarımbəndində "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin (bundan sonra - AİBNDX)" sözləri "Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Milli dövlətçiliyin konseptual əsasları

## *Konstitusiya suveren idarəçiliyin əsas qanunu, müstəqilliyin pasportudur*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən cari ilin "Konstitusiya və Suverenlik İli" elan olunması strateji məna daşıyan tarixi qərardır. Bu addım Azərbaycan dövlətçiliyinin ən mühüm iki sütununun – 1995-ci ildə qəbul olunmuş Konstitusiyanın 30 illiyinin və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünün qeyd edilməsi ilə bağlıdır. Hər iki hadisə ölkəmizin siyasi, hüquqi və ideoloji əsaslarının formalaşmasında həlledici rol oynamışdır.**

Azərbaycan Respublikasının müstəqilliyinin qorunması və suverenliyinin təmin olunmasında ümummilli lider Heydər Əliyevin rolu müasir tariximizin ən mühüm mərhələlərindən biridir. XX əsrin 90-cı illərinin əvvəllərində dövlətçiliyimiz həssas mərhələdən keçirdi, siyasi sabitlik, iqtisadi idarəçilik və hərbi təhlükəsizlik tamamilə sarsılmış vəziyyətdə idi.

1991-ci ildə müstəqilliyin bərpa olunmasından sonra daxili-siyasi çəkişmələr, hakimiyyət böhranı, iqtisadi iflic vəziyyəti, vətəndaş müharibəsi təhlükəsi ölkəni parçalanma həddinə gətirmişdi. Ermənistanın təcavüzkar siyasəti nəticəsində Azərbaycan torpaqlarının böyük bir hissəsi işğal edilmiş, əhali fəlakətlə üz-üzə qalmışdı. Məhz belə bir mürəkkəb şəraitdə xalqın təkidli tələbi ilə 1993-cü ilin iyununda Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycan tarixində dönüş nöqtəsinə çevrildi. Ulu öndərin qətiyyəti, siyasi müdrikliyi və idarəçilik təcrübəsi sayəsində dövlət dağılmaqdan xilas edildi, ölkədə sabitlik təmin olundu və dövlətçiliyin təməli möhkəmləndirildi.

Heydər Əliyev üçün müstəqillik anlayışı milli ideologiyanın əsası, xalqın kimliyinin təməl ifadəsi idi. Ulu öndərin "Bizim ən böyük sərvətimiz müstəqilliyimizdir" fikri həm onun şəxsi siyasi fəlsəfəsini, həm də Azərbaycan dövlətçiliyinin strateji yol xəritəsinin ifadəsi idi. Ümummilli lider Heydər Əliyev 1995-ci il mayın 27-də Respublika Günü münasibətilə keçirilən təntənəli yığıncaqda deyirdi: "Ən böyük nailiyyət, tariximizə yazılmış qızıl səhifə ondan ibarətdir ki, çoxəsrlik tariximizdə ilk dəfə Azərbaycan xalqı dövlət müstəqilliyini əldə edə bilmişdir, müstəqillik əhval-ruhiyyəsini hiss edə, dərk edə bilmişdir, müstəqil yaşamaq, öz taleyinin sahibi olmaq duyğularını dərk edə bilmişdir".

1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul olunan Azərbaycan Respublikasının Konstitusiyası Heydər Əliyevin təşəbbüsü ilə hazırlanmış və ölkənin gələcək inkişafının hüquqi bazasını formalaşdırmışdır. Hələ 1995-ci il iyunun 5-də yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın ilk iclasında çıxış edən Ulu öndər demişdir: "Konstitusiya birinci növbədə dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü qanunvericilik, ali icra, məhkəmə hakimiyyətləri - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır. Dövlət xalqın işi olmalıdır. Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır və bu prinsiplər Konstitusiyamızın əsasını təşkil etməlidir". Qəbul olunan Konstitusiya dövlətin suverenliyini və ərazi bütövlüyünü, xalqın suveren iradəsini ali siyasi dəyər kimi qəbul etdi, insan və vətəndaş hüquq və azadlıqlarını ən yüksək səviyyədə təminat altına aldı, hakimiyyət bölgüsü, qanunun aliliyi prinsiplərini möhkəmləndirdi, müasir idarəçilik modelini müəyyənləşdirdi.

Heydər Əliyev dövründə müstəqillik anlayışı real siyasi məzmunla zənginləşdi. Azərbaycanın beynəlxalq münasibətlər sisteminə inteqrasiyası sürətləndi, ölkə böyük transmilli layihələrin mərkəzinə çevrildi. 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" iqtisadi müstəqilliyin təmin olunmasında dönüş nöqtəsi oldu. Paralel olaraq, ordunun gücləndirilməsi, hüquqi islahatlar, diplomatik əlaqələrin genişləndirilməsi Azərbaycanın suverenliyini möhkəmləndirdi. Ümummilli liderin müəyyən etdiyi müstəqillik fəlsəfəsi bu gün də Azərbaycan dövlətinin ideoloji dayaqlarını təşkil edir.

1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul olunan Azərbaycan Respublikasının Konstitusiyası ölkənin siyasi və hüquqi həyatında dönüş nöqtəsi oldu. Konstitusiya milli dövlətçiliyin hüquqi əsaslarını müəyyənləşdirərək insan və vətəndaş hüquq və azadlıqlarını ən ali dəyər kimi təsbit etdi. Əsas Qanun həm də hakimiyyət bölgüsü, qanunun aliliyi, demokratik idarəçilik prinsiplərinin möhkəmləndirilməsi baxımından müasir dövlət quruculuğu üçün etibarlı zəmin yaratdı. Azərbaycan Respublikasının Konstitusiyasının I maddəsində qeyd olunur ki, dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Bu prinsip demokratik dövlət quruculuğunun təməl sütunudur. Hakimiyyətin xalqdan qaynaqlanması Azərbaycan dövlətçiliyinin bütün siyasi-hüquqi institutlarının fəaliyyətinə istiqamət verir. Əsas Qanunun II maddəsi isə xalqın öz müqəddəratını sərbəst və müstəqil şəkildə həll etmək, dövlət idarəetmə formasını müəyyən etmək hüququnu təsbit edir. Azərbaycan Respublikası Konstitutsiyasının 12-ci maddəsində isə yazılmışdır: "I. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir.

II. Bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir".

Konstitusiyada "insan" anlayışı universal məna daşıyır, yəni Azərbaycan dövlətinin ərazisində yaşayan, hansı vətəndaşlığa mənsub olmasından asılı olmayaraq, hər bir insanın hüquq və azadlıqlarının qorunması təmin edilir. Bu, dövlətin humanist dəyərlərə əsaslandığını və öz hüquqi sistemini ümumbəşəri prinsiplərlə uzlaşdırdığını göstərir. "Vətəndaş" anlayışı isə konkret olaraq Azərbaycan Respublikasının hüquqi-siyasi sisteminə bağlı olan şəxsi nəzərdə tutur. Burada artıq insanın dövlətlə qarşılıqlı hüquq və öhdəlikləri hüquqi müstəviyə daşınır. Beləliklə, insan hüquqlarının universallığı və vətəndaş hüquqlarının spesifikliyi birlikdə dövlətin həm daxili, həm də xarici siyasətində mühüm prinsipial baza yaradır.

Azərbaycan Respublikasının daxili suverenliyi vətəndaş-hakimiyyət münasibətlərinin hüquqi əsasda tənzimlənməsinə söykənir. Dövlət öz vətəndaşlarının hüquq və azadlıqlarını qorumaqla cəmiyyətin milli-mənəvi dəyərlər sistemini möhkəmləndirir. Vətəndaşın hüquq və azadlıqları dövlətin legitimliyinin mühüm meyarıdır. Bu baxımdan Konstitusiyada hüquq və azadlıqların əsas vəzifə kimi təsbit olunması hüquqi dövlət quruculuğunun zəruri şərtidir. İnsan hüquq və azadlıqlarına təminat vermək də Azərbaycanın xarici suverenliyinin mühüm elementlərindəndir. Burada dövlətin beynəlxalq hüququn norma və prinsiplərinə sadiqliyi ön plana çıxır. İnsan hüquqlarına hörmət Azərbaycanın beynəlxalq aləmdə müasir, humanist və




demokratik dövlət imicinin möhkəmlənməsinə xidmət edir. Bu, həm də Azərbaycanın BMT, ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatlarla əməkdaşlığında fundamental prinsiplərdən biridir. Bu barədə Ulu öndər deyirdi: "Azərbaycanın tarixi keçmişi, bugünkü reallıqlarını və gələcək perspektivlərini əks etdirməsi, ümumbəşəri və milli dəyərlərə söykənməsi Konstitusiyamızı səciyyələndirən əsas cəhətlərdir. Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda, ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik"!.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı il fevralın 6-da imzalanmış Sərəncama əsasən, noyabrın 12-si Azərbaycanda Konstitusiya Günü elan olundu. Bu tarixi qərar Konstitusiyanın dövlət və cəmiyyət həyatındakı əvəzolunmaz rolunun təsdiqi idi. Hər il noyabrın 12-də qeyd edilən Konstitusiya Günü vətəndaşlarımız üçün hüquqi dövlətçilik ənənələrinin təbliği, konstitusion mədəniyyətin gücləndirilməsi və milli müstəqillik ideyalarının möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Son 30 ildə isə Azərbaycan yalnız müstəqilliyini qorumaqla kifayətlənməmiş, həm də regionun lider dövlətlərindən birinə çevrilmişdir. Cari ilin "Konstitusiya və Suverenlik İli" elan olunması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında qeyd edilmişdir: "Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir".

Azərbaycan Respublikasının müasir tarixi XX əsrin sonlarından başlayaraq milli azadlıq mübarizəsinin, dövlət müstəqilliyinin bərpasının və suverenliyin qorunması uğrunda aparılan mücadilələrin ardıcıl mərhələləri ilə zəngindir. Xalqımızın çoxəsrlik arzusu olan torpaqlarımızın işğaldan azad olunması, dövlət sərhədlərimizin birmənalı şəkildə təsbit edilməsi və Konstitusiyamızın bütün ərazilərdə bərqərar olması isə yalnız 2020–2023-cü illərdə həyata keçirilən uğurlu hərbi-siyasi addımlar nəticəsində mümkün olmuşdur. 2020-ci il sentyabrın 27-də Ermənistanın törətdiyi növbəti təxribatlara cavab olaraq Azərbaycan Ordusu Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əks-hücum əməliyyatlarına başladı. 44 gün davam edən Vətən müharibəsi müasir hərb tarixində az rast gəlinən əməliyyatlar silsiləsi idi. Azərbaycan Ordusu yüksək peşəkarlıq, texnoloji üstünlük və milli birlik sayəsində düşmənin illərlə möhkəmləndirdiyi müdafiə xətlərini yararaq əzəli torpaqlarımızı azad etdi.

Bu müharibə regionda yeni geosiyasi reallıq yaratdı. Ermənistanın kapitulyasiya aktını imzalaması ilə nəticələnən 2020-ci il 9 noyabr üçtərəfli Bəyanatı beynəlxalq hüququn prinsiplərinə əsaslanan yeni status-kvonun hüquqi-siyasi təməlini qoydu. Lakin ölkəmizin suverenliyi üzərində hələ də müəyyən məhdudiyyətlər qalmaqda idi. Qarabağın bir hissəsində Ermənistan silahlı birləşmələrinin mövcudluğu, separatçı rejimin hərbi ünsürlərinin fəaliyyəti və Ermənistanda revanşist qüvvələrin güclənməsi yeni təhdidlər formalaşdırırdı. Ali Baş Komandan belə şəraitdə milli təhlükəsizliyi təmin etmək üçün qabaqlayıcı tədbirlər görməli idi. Bu məqsədlə 2023-cü il sentyabrın 19–20-də həyata keçirilən lokal antiterror tədbirləri nəticəsində ölkəmizin ərazisindəki bütün qanunsuz hərbi mövcudluğa son qoyuldu, separatçı rejim birdəfəlik ləğv edildi və Azərbaycanın suverenliyi tam bərpa olundu.

Antiterror əməliyyatlarının uğurlu nəticəsi ilə Azərbaycan Respublikasının Konstitusiyası bütün ərazilərdə tam hüquqi qüvvəyə mindi. Bununla ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində dövlət suverenliyi birmənalı olaraq təmin olundu. Bu, ölkə tarixində yeni mərhələnin başlanğıcı idi – müstəqillikdən sonra ilk dəfə olaraq dövlətin tam suveren idarəçiliyi ölkənin bütün ərazilərində bərqərar edildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2024-cü il 19 sentyabr tarixli Sərəncamı ilə sentyabrın 20-si Dövlət Suverenliyi Günü elan edildi. Bu qərar xalqımızın əsrlərlə davam edən mübarizəsinin məntiqi nəticəsinin dövlət bayramı statusunda təsdiqi oldu. Dövlət Suverenliyi Günü Azərbaycanın müstəqil dövlət kimi tam formalaşmasının və gələcək inkişaf strategiyasının əsas ideoloji dayaqlarından birinə çevrildi.

2023-cü il oktyabrın 15-də Prezident İlham Əliyevin Xankəndidə xalqa müraciəti və Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldaraq ölkənin tam suverenliyini elan etməsi milli dövlətçilik tariximizin dönüş nöqtəsi olmuşdur. Bu addım yalnız siyasi-ideoloji mahiyyət daşımır, eyni zamanda, konstitusion suverenliyin bütövlükdə ölkə ərazisində bərpa olunduğunu hüquqi-siyasi müstəvidə təsdiq edir. Azərbaycan Respublikasının Konstitusiyası ölkə ərazisinin vahidliyini, dövlət hakimiyyətinin isə bölünməzliyini təsbit edir. Uzun illər işğal altında olan ərazilərdə hüquqi qüvvənin tam tətbiqi mümkün deyildi. Xankəndidə Dövlət Bayrağının ucaldılması göstərdi ki, Konstitusiyanın hüquqi qüvvəsi artıq bütün ərazilərdə bərpa edilmişdir. Bu, dövlətin yalnız siyasi deyil, həm də hüquqi müstəvidə tam suverenliyinin təsdiqi deməkdir.

İşğaldan azad olunmuş ərazilərdə seçki institutunun bərpası Azərbaycan dövlətçiliyinin ən mühüm nailiyyətlərindən biridir. 2024-cü il növbədənkənar prezident seçkilərində dövlət başçısı İlham Əliyevin ailəsi ilə birlikdə məhz Xankəndidə səs verməsi suverenliyin ən yüksək təzahürü kimi qiymətləndirilir. Çünki seçkilər konstitusion hüququn icrasıdır.

2025-ci il isə Azərbaycan tarixində xüsusi əhəmiyyətə malikdir. Bu il həm müasir dövlətçiliyimizin hüquqi əsası olan Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsinin 30-cu ildönümü, həm də Vətən müharibəsində parlaq Qələbəmizin 5-ci ildönümü ilə səciyyələnir. Bu iki mühüm hadisənin vəhdəti milli inkişaf yolumuzun konseptual mahiyyətini aydın göstərir. "Azərbaycan Respublikasında 2025-ci ilin 'Konstitusiya və Suverenlik İli' elan edilməsi haqqında" Prezidentin Sərəncamı dövlətçilik ənənələrimizin, milli maraqlarımızın və strateji hədəflərimizin sintezini ifadə edir. Bu sərəncam Konstitusiyamızın 30 il ərzində formalaşdırdığı hüquqi və siyasi təməlin dəyərləndirilməsi, suveren dövlət olaraq gələcəyə baxışımızın konseptual ifadəsidir.

***Şahin İMANOV,***
***Daşkəsən rayon prokuroru,***
***baş ədliyyə müşaviri***

## Vətən müharibəsi qəhrəmanları

# "Qlobus" yüksəkliyinin fatehi

**Əfqan Ağasəf oğlu Abdurahmanov 1976-cı ildə Bakı şəhərində dünyaya göz açıb. Ermənilərin Dağlıq Qarabağı işğal etməsi ilə heç cür barışmadığı üçün hərbçi olub torpaqlarımızı qorumaq onun başlıca məramı olub. Buna görə də həqiqi hərbi xidmətdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub.**

Ali hərbi təhsil alan Əfqan Abdurahmanov Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində də təcrübə keçərək bir zabit kimi peşakarlıq səviyyəsini yüksəldib, daha müasir hərbi peşə bacarıqlarına və vərdişlərə yiyələnib. Sonra Gəncədəki "N" saylı hərbi hissədə xidmətə başlayıb.

Ömür-gün dostu Rəqinə xanım deyir ki, Əfqan məzuniyyətdə olanda da xidməti işindən ayrılmır, hərbçi dostları ilə zəngləşir, vəziyyətlə maraqlanır, hər biri ilə hal-əhval tuturdu. Qulluq etdiyi müddətdə Türkiyə, Çexiya və Çində təşkil olunan beynəlxalq səviyyəli kurslara, hərbi təlimlərə həvəslə qatılırdı. Təsadüfi deyil ki, 2-ci dərəcəli "Qüsürsuz xidmətə görə" medalı ilə təltif edilmişdi.

Məlum Aprel döyüşlərində ön cəbhədə olanlardan biri də Əfqan Abdurahmanov idi. Dostu – polkovnik Murad Mirzəyevin ölümü ona çox pis təsir etsə də, ümumilikdə ermənilərə əməlli-başlı dərs verilməsinə sevinirdi. Lələtəpənin, Cocuq Mərcanlı, Gülüstan kəndlərinin düşməndən təmizlənməsi, Qazaxlar və Madagiz istiqamətində yolların ələ keçirilməsi onu şair Məmməd İsmayılın "Bu yolların son ucunda – Qələbə!" misrası qədər qanadlandırmışdı.

Vətən müharibəsi başlananda böyük ruh yüksəkliyi ilə ön xəttə yollanan polkovnik-leytenant Əfqan Abdurahmanov ilk tapşırıq olaraq Murov dağı silsiləsindəki zirvələrdən birinin alınmasına rəhbərlik edir. Əməliyyat keçirilən zaman hərbiçilərimiz qatı sis-dümana düşür. Duman o qədər sıx olur ki, bir addım irəlini görmək olmur. Ərazi qayalı, yarğanlı bir yer olduğundan adi bir yanlış addım ölümlə, səhv istiqamətə getmək isə düşmən mühasirəsinə düşmək və ya döyüş əməliyyatının pozulması demək idi. Odur ki, əsgərlərinə deyir: "Sıraya düzülün, öndə mən gedəcəyəm, bir-birinizin kəmərindən tutun və ardımca gəlin".

Əfqan Abdurahmanovun relyefi düzgün qiymətləndirməsi, ən çətin anda doğru qərar verə bilmək bacarığı sayəsində hərbçilərimiz sağ-salamat döyüş mövqeyinə çıxır, Murovun əlçatmaz zirvəsinin alınmasında qəhrəmanlıq göstərir və oraya Azərbaycan bayrağını sancırlar. Bu fakt ordumuzda psixoloji baxımdan özünəinam hissini daha da gücləndirən amillərdən biri olub.

Hərbi-taktiki baxımdan isə Azərbaycanın işğal olunmuş ərazilərini Ermənistanla birləşdirən mühüm əhəmiyyətli Vardenis–Ağdərə avtomobil yolu vizual, eləcə də atıcı silahların və artilleriya vasitələrinin atəş nöqtələri nəzarətə götürülüb. Əldə edilən hərbi üstünlük nəticəsində Ermənistandan əlavə hərbi yüklərin Kəlbəcər və Ağdərə istiqamətindəki marşrutla daşınmasının qarşısı alınıb. Əməliyyatın uğurlu keçməsində Əfqan Abdurəhmanov və onun döyüşçülərinin aşkar hünəri idi.



Daha sonra Suqovuşana kimi olan kəndlər azad edildi. Suqovuşana çatmazdan əvvəl cəsur polkovnikin dəstəsi mühasirəyə düşmək təhlükəsi ilə qarşılaşıb. Amma Allahın lütfü, hərbçilərin peşəkarcasına çevik hərəkətləri, cəsarətlə risk etmələri onların xilasına səbəb olub.

Əfqan Abdurahmanov oktyabrın 10-da Suqovuşan döyüşləri zamanı Qlobus yüksəkliyində şəhadətə ucalıb. Qəbələ rayonunun Əmirvan kəndində dəfn olunub. Sağlığında və ölümündən sonra onun təltifləri çox olub. Bu sırada ən başda "Vətən Müharibəsi Qəhrəmanı" medalı və əbədilik şərəfli adı durur.

***Ə.DOSTƏLİ***
***XQ***

# Elin yarı olan Elyar

**Şərəfli ölümündən sonra "Vətən müharibəsi Qəhrəmanı" adına layiq görülən hərbçilərimizdən biri də Xüsusi Təyinatlı Qüvvələrin giziri Elyar Arif oğlu Vəliyevdir. Cismən həyatda olmasa da, əfsanəvi döyüşçü kimi yaddaşlarda məskən salıb, həzin xatirələrdə yaşayır.**



2-ci Qarabağ savaşı başlananda Elyar Vəliyev artıq 10 illik təcrübəyə malik hərbçi idi. Odur ki, ölümün gözünə dik baxır, qisas hissi ilə elə hey irəliyə can atırdı. Yarıdırdı da. Cəbrayıl, Hadrut, Füzuli, Qubadlı və Şuşa uğrunda gedən döyüşlərdə misilsiz qəhrəmanlıq nümunələri göstərdi. Təsadüfi deyildi ki, cəsur döyüşçüyə "Canavar" ləqəbi verilmişdi.

Elin yarı olan Elyar yaralanmış döyüş dostlarının xilası üçün, sözün əsl mənasında, özünü odlara atıb. Çünki onların dəyərini yaxşı bilirdi. Elyar və silahdaşları Vətən müharibəsi zamanı düşmənin 12 tankını, 200-ə yaxın canlı qüvvəsini məhv edib, erməni əsgərlərini əsir götürüblər. Cəbrayılın azad edilməsi zamanı bir hərbi avtomobili partladıblar, yüksək rütbəli erməni zabitlərini, eləcə də "KamAZ" dolu quldur silahlıları cəhənnəmə vasil ediblər. Elyar qorxmadan düşmən qərargahına girib və erməni polkovniki ilə əlbəyaxa olaraq, onu gəbərdə bilib.

...Bir ara dostlarının gözünə görünmədiyi üçün ondan yana narahat olurlar. Bir də görürlər ki, budur, gəldi. Əlində də düşmən tərəfindən qənimət kimi götürdüyü 40 tapança. Hamı çaşıb qalır. Axı, tapança sırf zabitlərə aid silahdır. Deməli, düşmənin 40 zabiti "tərksilah" edilib.

...Oktyabrın 17-də, Elyarın ad günündə səngərdə olan hərbçilərimiz qəfildən bir erməni əsgərinin qaçdığını görürlər. Elyar cəld ayağa qalxaraq onun ardınca düşür. Bir az keçdikdən sonra görürlər ki, üstü-başı toz içində, əlində bıçaq və "ratsiya" geri qayıdır. Yeniyetmə çağlarında əlbəyaxa döyüş növü ilə məşğul olması müharibədə də, beləcə, dəfələrlə onun karına gəlib.

Həmin hadisədən 2 gün sonra Şuşadan 14 kilometr aralıda, Edilli-Qırmızı Bazar istiqamətində qanlı döyüşlər olub. Elyargil gülləri qurtarana qədər vuruşublar. O gün snayper gülləsi ilə ürəyindən ağır yaralanan Elyar son dəfə canından artıq sevdiyi Vətən torpağını qucaqlayıb.

Əfsanəvi xüsusi təyinatlı Elyar Vəliyev 1991-ci ildə Qobustan rayonunun Sədəfli kəndində anadan olub. O da, kiçik qardaşı da hərbçi olmağı arzulayıb və istəyinə nail olaraq Vətən qulluğuna yollanıb və qohum-əqrabanın, el-obanın başını daim uca edib.

Qobustan Gənclər evində onun açıq kitab şəklində olan monumenti diqqət çəkir. Elə bilirik ki, Elyar bu kitaba əbədiyyət sətirlərini qızıl qanı ilə özü yazıb. Qəhrəmanın örnək həyatı elin, obanın, millətin şöhrət tacıdır.

O, 5 övlad, o cümlədən üçəmlər atası idi. Elyarın ruhu onlardan nigaran deyil. Ona əyandır ki, balaları dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunublar. Tam əminik ki, Elyarın və bütün şəhidlərimizin övladları atalarının qalib etdiyi bu Vətəndə rahat şəkildə böyüyüb boya-başa çatacaq və onların ruhlarını şad edəcəklər.

***Əli NƏCƏFXANLI***
***XQ***

# "Rəşadət" ordenli Rəşad

**Haqqında söz açacağımız qəhrəmanlarımızdan biri də şəhid mayor Rəşad Ramiz oğlu Budaqov 1986-cı il martın 13-də Yevlax şəhərində anadan olub. Əslən Cəbrayıl rayonundan idi. 2003-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olan Rəşad təhsilini müvəffəqiyyətlə bitirib, 2008-ci ildən Azərbaycan Silahlı Qüvvələrində xidmətə başlayıb.**

Ömrünün 12 ilini xalqına ləyaqətlə xidmətdə olan mayor R.Budaqov Azərbaycanın ordu sıralarında tankçı zabit kimi qulluq edib. Rəşad xidməti dövründə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Silahlı Qüvvələrinin 90, 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları ilə təltif edilib.

Azərbaycanın bir çox regionlarında, daha çox isə cəbhə bölgələrində xidmət aparıb. Füzuli, Ağcabədi, Bərdə və Goranboyda yerləşən hərbi hissələrdə bölük komandiri, qərargah rəisi, hərbi hissə komandiri kimi çalışıb. Hər zaman düşmənlə döyüşə hazır olan şəhidimiz Yevlax rayonundakı N saylı hərbi hissədə briqada komandirinin maddi – texniki təminat üzrə müavini vəzifəsində fəaliyyət göstərib.

2016-cı ilin Aprel döyüşlərində iştirak edən Rəşad Budaqov Ağdam istiqamətində gedən döyüşlərdə düşmənin döyüş texnikanlarını sıradan çıxarıb. Ona təhkim edilən taborla Talış kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşub. Talış yüksəkliyinin işğaldan azad olunmasında böyük rolu olub.

Azərbaycan Ordusunun mayoru Rəşad Budaqov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan savaş zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə vuruşaraq şəhid olub. Yevlax şəhərinin Şəhidlər xiyabanında dəfn edilib.

Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Rəşad Budaqov ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Ağır döyüşlərin gedişində şəhid mayor yaralı olmasına rəğmən silahdaşlarını tək qoymayıb. Həkimlər ona bu vəziyyətdə döyüşməsinin təhlükəli olduğunu desələr də,



təkidlə yenidən döyüşlərə qatılıb. Talış kəndi istiqamətində döyüşlərdə növbəti dəfə ağır yaralanan Rəşad Budaqovun həyatını bu dəfə xilas etmək mümkün olmayıb. O, Vətən müharibəsində xalqına xidmətini şərəflə yerinə yetirərək şəhidlik zirvəsinə ucalıb.

***Müşfiq MİRZƏ***
***XQ***

# Qaraxanbəyli necə "Zəfər qapısı" oldu?

## *İlk şəhidlərin əbədiyyət ünvanı*

**...Füzuli rayonunun Qaraxanbəyli kəndindən keçən yolun kənarındakı yüksəklikdə "Vətən uğrunda canlarından keçən qəhrəmanların şəhid olduğu ilk yerlərdən biri" yazılan qaya – abidə diqqət çəkir. Buradan ötən maşınlar abidənin qarşısında dayanır, sərnişinlər döyüşlərin ilk günlərində igidlik, şücaət göstərərək şəhadətə ucalan oğullarımızı ziyarət edirlər.**

Ziyarətçilər 30 illik qəsbkarlıq zamanı bu daş salnamənin lap yaxınlığında yerləşən düşmən səngərinə, işğalçının qurduğu müdafiə xətlərinə baxır və Azərbaycan Ordusunun Vətən savaşında bu maneəni, qəsbkarın keçilməz saydığı bu istehkamı ölüm-itimdən qorxmayaraq qəhrəmanlıqla necə yardığını, buradan öz canlarını fəda edərək ləyaqətimizin, ədalətin bərpası, eləcə də xalqımızın doğma od-ocaqlarına qayıtması üçün yol açdıqlarını gözləri önündə canlandırırlar.



İnsanlar zirvədə qərarlaşan bu qaya – abidənin yanında dayanıb Şuşaya doğru uzanan Zəfər yolunun sağ-soluna tamaşa etdikcə erməni faşizminin ağrılı izlərini görür, şəhidlərimizin Qarabağ çöllərində qalib əsgər, qalib zabit kimi ruhunun azad, bəxtiyar dolaşdığını duyur, bu yolun başdan – başa şəhidlərimizin daş kitabəsinə çevrildiyini hiss edirlər. Eyni zamanda, şəhidlərimizin bu torpaqlara azadlıq gətirmələri, bizi doğma Yurdun – Azərbaycanın bu əsrarəngiz guşəsinin hər daş-qayası ilə yenidən qovuşdurmaları ilə özləri də Vətən daşına döndüklərini, ölkəmizin əbədiləşən, ölməzləşən vətəndaşı adını qazandıqlarını bir daha yəqinləşdirirlər.

Prezident İlham Əliyev 2022-ci il sentyabrın 27-də Füzuliyə səfəri zamanı rayonun Qaraxanbəyli kəndində qaya – abidəni ziyarət edərək bildirib ki, şəhidlərimizin şərəfinə bu qaya parçasının bu yerdə, Qaraxanbəyli kəndinin yaxınlığında ucaldılması təsadüfi deyil: "Qaraxanbəyli kəndi və digər 5 kənd Vətən müharibəsinin ilk günündə azad edilmişdir. Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı – Füzuli rayonunun kəndləri və Cəbrayıl rayonunun kəndləri – Böyük Mərcanlı və Nüzgar kəndi müharibənin ilk günündə azad edilmişdir. İlk şəhidləri biz məhz burada, bu yerdə vermişik. Bu abidənin yanında düşmənin səngəri yerləşirdi. Bu istiqamətdə beş – altı müdafiə xətti mövcud idi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bu müdafiə xəttini və bundan sonrakı müdafiə xətlərini yarmaq üçün ölümə gedirdi. Sözün əsl mənasında ölümə gedirdi, öz canını fəda edirdi ki, üçrəngli Bayrağımız Şuşada və o vaxt işğal altında olan digər bütün torpaqlarda dalğalansın. Öz canını fəda edirdi ki, Azərbaycan xalqı ləyaqətini bərpa etsin, ədaləti bərpa etsin və xalqımız öz torpaqlarına qayıtsın".

Dövlətimizin başçısı daha sonra qeyd edib ki, ordumuz bu istiqamətdən düşmənin birinci müdafiə xəttini yararaq Zəfər yürüşünə başlayıb. 44 gün ərzində Silahlı Qüvvələrimiz hər gün dayanmadan, durmadan, usanmadan, qan tökərək, şəhidlər verərək irəliyə, Zəfərə doğru gedib. Düşməni qova-qova döyüş meydanında tarixi Qələbə əldə edib. 44 gün ərzində 300-ə yaxın şəhər və kənd düşməndən geri alınıb. Beləliklə, işğalçı məcbur olub kapitulyasiya aktını imzalayaraq məğlubiyyətini qəbul edib.

Bəs 44 günlük Vətən müharibəsinin ilk şəhidləri kimlər olublar? Araşdırmalara əsasən, İkinci Qarabağ savaşı başladığı dəqiqələrdə Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının hərbi pilotları baş leytenant Xalid Gözəlov və mayor Abbas Qasımovun adları Azərbaycan tarixinə Vətən müharibəsinin ilk şəhidləri kimi yazılıb.

Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak edən və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirən Xalid Gözəlov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda" və "Qubadlının azad olunmasına görə" medalları və ilə təltif olunub.

Döyüş tapşırıqlarını şərəflə yerinə yetirən Abbas Qasımov isə ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib. 2021-ci ildə yaşadığı binanın divarına xatirəsini əbədiləşdirmək üçün xatirə lövhəsi vurulub.

***XQ***

# "Cəbrayıl əfsanəsi"

**19 yaşında canını Vətən yolunda fəda edən Cəbrayıl Dövlətzadə haqq savaşında mənfur düşmənə, sözün əsl mənasında, dağ çəkib. Şəhidimiz ondan artıq müxtəlif rütbəli düşmən hərbçisilə təkbaşına, üz-üzə savaşıb, ermənilərin bir generalını və polkovnikini öz əllərilə boğaraq məhv edib. Əsgərimiz o qədər cəsarətli imiş ki, yanındakı ailəli silahdaşlarına "siz qayıdın, ailəniz sizi gözləyir, mən tək döyüşəcəyəm", – deyərək düşmənin üzərinə şığıyıb. İndi onunla yalnız ailəsi deyil, bütün Azərbaycan fəxr edir...**

Cəbrayıl Dövlətzadə 2001-ci il sentyabrın 11-də Sumqayıtda doğulub. Ailədə bir bacı və iki qardaş olublar. Cəbrayıl orta təhsilinə Sumqayıt şəhəri "Təfəkkür" liseyində başlayıb, daha sonra 2 saylı Qubadlı rayon məktəbində oxumağa davam edib. Rəsm çəkib, musiqi bəstələyib, eyni zamanda, 9 il cüdo ilə məşğul olub, idman sahəsində mükafatlara layiq görülüb.

Cəbrayıl hərbi xidmətini Cəlilabadda Sərhəd Qoşunlarının sıralarında çəkib. Qayıtdıqdan sonra Xüsusi Təyinatlılara qoşulub. Tovuz döyüşlərində general Polad Həşimovun şəhid olması 19 yaşlı əsgəri olduqca məyus edib. Həmin gün verdiyi söz yerdə qalan iki aylıq həyatının devizinə çevrilib: "Polad Həşimovun qisasını alacağam!" ...Şir ürəkli gənc ərizə yazaraq xüsusi təyinatlı taborun sıralarına daxil olub. 44 günlük müharibə başlanan kimi könüllü olaraq döyüşə atılıb. Murovdağda düşmən mövqelərinin və xüsusi postların ələ keçirilməsi əməliyyatında 11 zabitlə yanaşı, 19 yaşlı Cəbrayıl da iştirak edib.





Yalın əllə düşmən generalının, polkovnikin üstünə gedəndə hədəfinə çatdığını yaxşı bilirdi. Onun qarşısındakı rütbəsindən, kimliyindən asılı olmayaraq Polad Həşimovun qatili idi... Cəbrayıl düşmən postunda 10 müxtəlif rütbəli erməni zabiti ilə üz-üzə qalıb. O, bu hücum zamanı öncə erməni generalını öldürüb. Əlbəyaxa döyüşdə isə düşmən polkovnikini yalın əlləri ilə boğub. İşini bitirib, sağ-salamat gülə-gülə geriyə qayıdan vaxt ermənilər onu minomyotla gülləyə tutublar. Ağır yaralanıb, ermənilər əsir götürmək istəyiblər, dostları onu döyüş zonasından çıxarıblar. Minomyot Cəbrayılın ayağının şah damarını parçalayıb. Cəmi bir gün döyüşən, son aylar ərzində qurduğu bütün planları bir günə, hətta bir neçə saata həyata keçirən Cəbrayıl Dövlətzadə 2020-ci ilin sentyabrın 28-də əməliyyat zamanı çoxlu qan itirdiyi üçün şəhidlik məqamına ucalıb.

Cəbrayıl Dövlətzadə II Fəxri xiyabanda general – mayor Polad Həşimovun yanında torpağa tapşırılıb. Qəhrəman el oğlu dillərə dastan igidliyi, qorxmazlığı, cəsurluğu, xalqı, Vətəni yolunda göstərdiyi misilsiz şücaətlərinə görə, ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Anası Məleykə xanım Cəbrayılın əsgərlikdə olanda narahatlıq keçirir. Oğlunun sağ-salamat gəlməsi üçün hər gün dualar edir. Çox keçmir ki Cəbrayıl sevincək ailəsinə XTQ-yə seçildiyi xəbərini verir: "bura kişilik məktəbidir". Xidməti dövründə adı şərəf lövhəsində olur. Vətən savaşına qatılanda belə ailəsinə demir. Öz arzusu ilə savaşa yollanıb. Ailəsi bunu sonradan öyrənir. Qorxu hissi Cəbrayıla yad olub.

Corat qəsəbəsində Vətən müharibəsində qəhrəmancasına şəhid olan Cəbrayıl Dövlətzadənin barelyefi qurulub. Yazıçı Azad Qaradərəli 19 yaşlı şəhid Cəbrayılın qısa ömür və döyüş yolundan bəhs edən "Cəbrayıl əfsanəsi" adlı roman yazıb. Əsər proloq, epiloq və 19 fəsildən ibarətdir. Hər fəsil igid ömrünün bir ilinə ithaf olunub.

***XQ***

# Yavuz Bülənt Bakilər əbədiyyətə qovuşdu

## *"Azərbaycanı ürəyində şah damar" sayan Turan sevdalısı*

**"Mən dayanacaqlarda avtobus gözlədiyim anlarda belə vaxtımı kitab oxumağa sərf etmişəm. Hər dəfə oxuduqca cahil insan olduğumun fərqinə varmışam. Cəhalətimdən utanıb, daha çox mütaliə etmişəm" Türk dünyasının ustad şairi Yavuz Bülənt Bakilər poeziyanın zirvəsinə bax belə ucalmışdı.**



Sözün qüdrəti onu yazan qələm sahibinin qəlbində şölələnir. Sözün alovu qəlbdə alışırsa, o xalqın səsinə, yaddaşına çevrilir. Bu alovu qəlbində daşıyan, ölməz əsərləri ilə qaranlıqlara aydınlıq bəxş edən Turan sevdalılarımızdan daha biri olan Yavuz bəy sentyabrın 28-də 89 yaşında dünyasını dəyişib. Vəfatı ilə ədəbi aləmi sarsıdan ədibin ölməz əsərləri oxucular üçün əbədi mirasdır.

Azərbaycan haqda çoxsaylı şeirlərin müəllifi, əslən qarabağlı olan Türkiyənin tanınmış yazıçısı və şairi Yavuz Bülənt Bakilər 1936-cı ildə Sivasda doğulub. Ulu babaları Qarabağdan Anadoluya köç edənlərdən olub. İlk və orta təhsilini Sivas, Qaziantep və Malatyada tamamlayıb. 1960-cı ildə Ankara Universitetində hüquq fakültəsini bitirdikdən qısa müddət sonra "Yeni İstanbul" qəzetində çalışıb. Daha sonra "TRT Ankara Radiosu"nun Mərkəzi Proqramlar İdarəsində müxtəlif mədəniyyət proqramları hazırlayıb. 1969–1975-ci illərdə Sivasda vəkil, daha sonra Ədalət Partiyasının sədri kimi siyasi fəaliyyət göstərib. 1979–1980-ci illərdə mədəniyyət və turizm nazirinə müavini təyin olunub. Türkiyə Silahlı Qüvvələrinin 12 sentyabr 1980-ci ildə həyata keçirdiyi çevrilişdən sonra 1992-ci ilə qədər nazirlikdə müşavir vəzifəsində xidmətini davam etdirib.

1982-ci ildə rəsmi dövlət qonağı kimi Bakıya səfəri zamanı jurnalistlərin "Qarabağa getmək istəyirsinizmi?" sualına verdiyi cavab şairin vətən sevgisinin necə dərin olduğunun sübutu idi: "İndi bura daha çox Qarabağı görmək üçün gəlmişəm. Qarabağdan iki ovuc torpaq aparmaq istəyirəm. O torpağın bir ovucunu Sivasda yatan atamın məzarına səpəcəyəm. Vəsiyyətim budur ki, ikinci ovuc torpağı da mən dünyadan köçəndə övladlarım məzarımın üstünə səpsinlər. Mən istəyirəm ki, həm Türkiyə, həm də Qarabağ torpağı ilə dəfn olunum".

Amma tale yenə ədibin yolunu kəsmiş, onun Qarabağa getməyinə icazə verilməmişdi, hətta dostlarının gətirdiyi Qarabağ torpağı da Moskvada əlindən alınmışdı. Yalnız 1986-cı ildə icazə alaraq Qarabağa, Ağdama gedə bilmişdi. O zaman gətirdiyi torpağı anasının və atasının məzarına səpmiş, bir ovucunu isə öz məzarı üçün saxlamışdı.

Bu, bir ömrün həsrəti idi. Qarabağ torpağı onun üçün vətənlə qovuşma, köklərinə qayıdış demək idi. Onun səsindəki titrəyiş, sözlərindəki yanğı qəlbi dağlayırdı. O, bu torpaqları görmədən sevən, xalqın dərdini öz dərdi bilən, həsrətini misralarına daşıyan qələm, ürək sahibi idi. Qarabağın adı keçəndə səsi titrəyər, sözü bir az da kəsərli olardı:

*Türkü türkdən başqa indi kim anlar,*
*Yaram dərin, məlhəmim yox, vaxtım dar.*
*Bir dastan yazar kimi yaz məni, Anar,*
*Duy məni, Bəxtiyar, duy məni, Şahmar!*

İlk nəsr kitabı "Üsküpdən Kosovaya" olmuşdu. O, bu əsəri bir səfərdən sonra gördüklərini qələmə alması xahişi ilə yazılmağa başlamışdı. Bakiler həmin xahişi sanki ağır məsuliyyət kimi qəbul etmiş, yazıya ciddiyyətlə yanaşmışdı. Kitab çap olunanda isə ədəbiyyatçılar onu "şahəsər" adlandırmışdılar. Azərbaycan ədəbiyyatının böyük şairi Bəxtiyar Vahabzadənin həmin kitabla bağlı dediyi bu cümlə hələ də yaddaşlardan silinmir: "Bu kitabı oxuyub ağlamayan türkün mən türk olduğuna inanmaram".

Bakilərin həyatına istiqamət verən simalar arasında Arif Nihat Asya, Necip Fazil, Nihal Atsız kimi böyük ədiblər də vardı. Onlardan öyrəndiyi ən əsas həqiqət isə dilin millətin şah damarı olması idi. "Kitabsız, kitabxanasız evlərin mağara qaranlığından heç bir fərqi yoxdur" – deyə söyləyirdi. Yavuz Büləntin fikrincə, Türkiyənin ən böyük faciəsi, insanların söz ehtiyatının daralması idi: "İngiltərə bu gün də Şekspiri uşaqlarına oxudur, biz isə cəmi 20 il əvvəlki ədəbiyyatımızdan belə qopmuşuq". Elə buna görə də gənclərə hər zaman bu nəsihəti verirdi: "Oxumaqdan başqa çıxış yolumuz yoxdur." Bu sözlər yalnız çağırış idi. Yavuz Bülənt Bakilər üçün oxumaq millətin ruhunu qorumağın yolu idi. Çünki sözlər milləti millət edən ən dərin bağdır.

O, Azərbaycanın Turan sevdalısı olan Xudu Məmmədov, Bəxtiyar Vahabzadə, Anar, Elçin, Sabir Rüstəmxanlı, Zəlimxan Yaqub, Şahmar Əkbərzadə kimi ziyalıları ilə yaxından dostluq edirdi. Çox sevdiyi Üzeyir Hacıbəylinin tədqiqatçısı Səadət Qarabağlıya "bacım" deyirdi.

Yavuz Bülənt Bakilərin misralarında canlanan Anadolu insanı, səbirli, dözümlü və möhkəm xarakterlidir. O, olindəkilərlə kifayətlənməyi bacaran, bir parça çörək və bir baş soğanla belə şükür etməyi unutmayan, zərbələrə səssizcə sinə gərən obrazdır. Bəlkə də, buna görə özü də 89 illik ömrü boyu sırf şeirləri və yazıları ilə deyil, həm də şəxsiyyətinin təmizliyi ilə silinməz izlər buraxdı. Heç vaxt dürüstlüyündən güzəştə getmədi. "Əgər mən şəxsi mənfəətlərim üçün çalışsaydım, indi on mənzillik sərvətim olardı" – deyərək vicdanını daim təmiz saxladı.

***Fidan ƏLİYEVA***
***XQ***

---

*Zəfər tarixi sənətdə*

**Sumqayıtda milli teatrımızın 153-cü, yerli teatrın isə 57-ci mövsümünün açılışı Milli Qəhrəman Natiq Qasımovun şərəfinə səhnələşdirilmiş möhtəşəm tarixi dramla reallaşdı.**

# "Qarabağ Mixaylosu" Natiq Sumqayıt səhnəsində



Tamaşadan əvvəl çıxış edənlər yeni mövsümün başlanması münasibətilə səvinc dolu ürək sözlərini söylədilər. Anım Gününə təsadüf edən bu günün məhz Vətən yolunda canını fəda etmiş bir igiddən – bayraqdar Natiqdən bəhs edən səhnə əsəri ilə əlamətdar olduğu bildirildi. Qarabağ müharibəsində şəhid olmuş Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Sonra teatrın pərdələri alqışlarla açıldı və "Ölməz" səhnəyə gəldi. "Heç kim unudulmur, heç nə yaddan çıxmır!" layihəsi üzrə müəllifi, yazıçı Elşən Sərxanoğlu, rejissoru Xalq artisti Firudin Məhərrəmov olan monotamaşa teatrsevərlərin könüllərini fəth edə bildi. Mətn və peşəkar quruluş, heyrətamiz mizanlar monolit vəhdət nümunəsi kimi sərgiləndi. Gənc aktyor Elay Xasiyev qəhrəmanın obrazını ustalıqla canlandırdı. Həyəcan dolu baxışlar 1 saatdan artıq çəkən tamaşa boyunca səhnəyə zilləndi. Videoqrafika ustası Rais Bəhraminin yaratdığı xəyali səhnələrin də diqqət çəkdiyini məxsusi qeyd etmək lazımdır. Yaradıcı səylərlə teatra xas şərtiliyi sanki bilavasitə real həyatda şahidi olduğumuz gerçək kimi anlamağımıza gətirib çıxardı.



Xatırladaq ki, Birinci Qarabağ savaşında könüllü olaraq cəbhəyə getmiş Natiq Qasımov Ağdamda Yaqub Rzayevin "Qarabağ şahinləri" dəstəsində vuruşub. Xocalının Xramort (indiki Pirlər) kəndi yaxınlığında 7 silahdaşı ilə alban kilsəsinin yerləşdiyi yüksəklik uğrunda döyüşdən sağ çıxıb və kilsədə mövqe tutaraq, təkbaşına 5 gün gecə-gündüz mübarizəni davam etdirib, düşmənləri posta yaxın buraxmayıb. Yalnız ermənilərin Natiq təslim olmasa, girov götürdükləri 22 nəfər Xocalı sakinini güllələyəcəkləri ilə bağlı hədəsindən sonra Azərbaycan bayrağına sarılaraq silahı yerə qoyub və üzə çıxıb. O, təslim olandan sonra Xocalı qətliamını törətmiş hərbi cani, cəllad general Vitali Balasanyan tərəfindən dindirilib və sonra "itkin" düşüb. Amma Natiqin işgəncələrlə öldürüldüyü bildirilir...

Qarabağ döyüşlərinin "Mixaylo"su – cəsur partizan Natiq Qasımov dindirilən zaman italyan müharibə fotoqrafı Enriko Sarsini də orada olub və şəkillər çəkib. Böyük Britaniyanın "Broken Pot Media" şirkətinin çəkdiyi "Oğul" sənədli filmində müsahibəsində Natiqdən bəhs edib. Sarsinin çəkdiyi fotolar 1992-ci ildə Moskvanın "Oqonyok" jurnalında da dərc olunub. Onun adı gündəmə gələndən sonra taleyi ilə bağlı araşdırmalar davam edib. Hələ də ermənilər əsl həqiqəti danır və Natiqlə bağlı hər hansı məlumat vermirlər.

Azərbaycan Respublikası Prezidentinin 25 iyun 2024-cü il tarixli Sərəncamı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülən Natiq Səlim oğlu Qasımovun ölməz obrazı Sumqayıt Dövlət Dram Teatrının səhnəsində böyük ustalıqla yaradılıb. Premyerada onun ailə üzvləri, şəhid anaları, Sumqayıt Şəhər İcra Hakimiyyətinin nümayəndələri, şəhər ictimaiyyətinin tanınmış simaları iştirak edirdilər. Qarabağ ruhu, şəhid yaddaşı, Vətən sevgisi – hamısı bu əsərdə, gerçək bir hekayədə cəmlənmişdi. Buna görə də əsər göz yaşları ilə izləndi, sonda isə hamı qururla ayağa qalxıb tamaşanı alqışladı.

**Sonra qəhrəmanın qardaşı Nofəl Qasımov gözəl səhnə əsərinə görə yaradıcı heyətə minnətdarlığını bildirdi. Natiq Qasımov rolunun ifaçısı Elay Xasiyev dedi:**

– Mən bu tamaşada Natiq Qasımovun səsi, nəfəsi, döyünən ürəyi olmağımla qürur duyuram. Bu, sadəcə, bir tamaşa deyil, bir millətin siması, bir xalqın həyatı, bir igidin hekayəsidir. Alqışlarınıza görə sağ olun.

***Əli NƏCƏFXANLI***
***XQ***

---

# Balkanşünasların Bakı konfransı

**Bakı Slavyan Universitetində (II Beynəlxalq Balkanşünaslıq Konfransı keçirilib. Mərasimi BSU-nun rektoru Anar Nağıyev açaraq balkanşünaslıq sahəsində beynəlxalq elmi əməkdaşlığı dərinləşdirmək, qarşılıqlı təcrübə mübadiləsi aparmaq və Azərbaycanla Balkan ölkələri arasında elmi-mədəni əlaqələri daha da inkişaf etdirmək baxımından konransın böyük əhəmiyyət daşıdığını vurğulayıb.**





Milli Məclisin sədr müavini, Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov Balkan ölkələrinin azərbaycanlılara, türklərə bir çox cəhətdən doğma olduğunu söyləyib.

Azərbaycanın Serbiya, Sloveniya, Bosniya, Albaniya, Xorvatiya, Makedoniya və Bolqarıstanla səmərəli əlaqələrin mövcud olduğunu deyən alim qeyd edib ki, Prezident İlham Əliyev bu ölkələrə çoxsaylı səfərlər edib. Davos İqtisadi Forumu çərçivəsində dövlət başçımızın Balkan ölkələrinin rəsmiləri ilə keçirdiyi görüşlər isə səmərəli nəticələr verməkdədir.

Akademik 7 ölkənin 100-dən artıq alimini qovuşduran konfransın dövlətlər və xalqlar arasındakı münasibət və əlaqələrin daha da yüksəlməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Energetika nazirinin müavini Elnur Soltanov, Şimali Makedoniyanın Skopye Müqəddəs Kiril və Mefodi Universitetinin rektoru Bilyana Angelova, Türkiyənin Ardahan Universitetinin rektoru Öztürk Emiroğlu, Albaniyanın Nyu-York Tirana Universitetinin rektoru Ali Güneş, Bolqarıstanın Müqəddəs Kliment Oxeidski adına Sofiya Universitetinin tədris məsələləri üzrə prorektoru Madlen Danova və başqaları konfransın elmi müzakirələrin aparılmasına gözəl fürsətlər yaratmaqla yanaşı, eyni zamanda, Azərbaycan ilə Balkan ölkələri, Türk dünyası ilə Balkanlar arasında elm, təhsil, tədqiqatlar mədəniyyət sahələrində əlaqələrin daha da genişləndirəcəyini söyləyiblər.

Konfransa onlayn qatılan ölkəmizin Albaniyadakı səfiri Anar Hüseynov Azərbaycanla Albaniya arasında müxtəlif sahələr üzrə mövcud əməkdaşlığından söz açaraq tədbirin hər iki ölkənin alim və tədqiqatçıları üçün gələcək elmi fəaliyyətlərində mühüm rol oynayacağını söyləyib.

Sonra tədbir bədii hissə ilə davam etdirilib.

***Qabil YUSİFOĞLU***
***XQ***

---

# "Yaşıl" hərəkata mədəni dəstək

**Azərbaycanın mədəniyyət naziri Adil Kərimli UNESCO-nun MONDIACULT 2025 konfransı çərçivəsində keçirilən "Mədəniyyətə əsaslanan İqlim Fəaliyyəti üzrə Dostlar Qrupu"nun III Yüksək Səviyyəli Nazirlər Dialoqunda çıxış edib.**




Nazir ev sahibliyinə görə İspaniyaya, təşəbbüsə dəstəyə görə Braziliya və BƏƏ-yə təşəkkürünü bildirib, COP28 və COP29-un nəticələrini xüsusi vurğulayıb. O qeyd edib ki, Bakıda keçirilmiş COP29 mədəniyyətin iqlim fəaliyyətində rolunu gücləndirmək üçün mühüm addım olub və qəbul edilən Bakı Maliyyə Məqsədi qlobal iqlim maliyyələşməsində tarixi dönüş nöqtəsi sayılır.

Adil Kərimli Azərbaycanın təqdim etdiyi "Culture for Climate" (C4C) təşəbbüsünü xatırladaraq Bakı İqlim Həftəsində də mədəniyyətin iqlim dəyişikliyi ilə mübarizədə rolunun müzakirə ediləcəyini bildirib.

Nazir vurğulayıb ki, Prezident İlham Əliyevin elan etdiyi "Yaşıl Dünya naminə Həmrəylik İli", azad olunmuş Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji" zonaları və Bakı Prosesi çərçivəsində keçirilən beynəlxalq forumlar Azərbaycanın dayanıqlı gələcəyə sadiqliyini göstərir.

Çıxışın sonunda o qeyd edib: "Mədəniyyət və ətraf mühit bir-birindən ayrılmazdır. Birgə səylərlə gələcək nəsillər üçün daha dayanıqlı dünya qura bilərik."

***XQ***

---

# AİB Azərbaycanda özəl sektorun inkişafına dəstəyi artırır

**Dünən maliyyə naziri Sahil Babayev Asiya İnkişaf Bankının (AİB) vitse-prezidenti Bharqav Dasquptanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Söhbət zamanı Azərbaycan və AİB arasında mövcud əməkdaşlıq, özəl sektorun inkişafı, bankın bu sahəyə mümkün dəstəyi, gələcək tərəfdaşlıq imkanları və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.**

Nazir AİB ilə uzunmüddətli əməkdaşlığı yüksək qiymətləndirərək kreditlər, qrantlar və texniki yardım vasitəsilə həyata keçirilən birgə təşəbbüslərin ölkəmizin inkişaf gündəliyinə əhəmiyyətli töhfə verdiyini bildirib, bankın 2025–2029-cu illər Azərbaycan üzrə Ölkə Tərəfdaşlıq Strategiyasının reallaşdırılmasında sıx əməkdaşlığın davam etdiriləcəyinə əminliyini ifadə edib.

S.Babayev cari iqtisadi vəziyyət barədə məlumat verərək qeyri-neft sektorunun inkişafı sahəsində əldə olunan nailiyyətləri diqqətə çatdırıb. Bakı və Abşeron yarımadasında su təchizatı və kanalizasiya sistemlərinin yaxşılaşdırılması, "Bakı Metropoliteni" QSC-nin infrastruktur ehtiyaclarının maliyyələşdirilməsi, dəmir yolu xətlərinin modernləşdirilməsi istiqamətində prioritetlər qeyd olunub.

B.Dasqupta Azərbaycanla AİB arasındakı əməkdaşlığın bütün sahələrdə, o cümlədən özəl sektorun dəstəklənməsi istiqamətində daha da möhkəmlənəcəyinə və qarşıdakı dövrdə də uzunmüddətli tərəfdaşlıq prinsipləri əsasında davam etdiriləcəyinə əminliyini ifadə edib.

***XQ***

# AZƏRBAYCAN RESPUBLİKASININ RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİNİN KOLLEGİYASI

## QƏRAR

**№ 3-27/3-7-12/2025**

**Bakı şəhəri** **18 sentyabr 2025-ci il**

**Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının "Ölkədaxili müntəzəm şəhərlərarası (rayonlararası), şəhərətrafı və qəsəbələrarası avtobus marşrutlarında sərnişindaşıma və şəhərlərarası (rayonlararası) müntəzəm avtobus marşrutlarında baqajdaşıma xidmətlərinin tariflərinin təsdiq edilməsi haqqında" 2024-cü il 20 iyun tarixli 3-27/3-7-8/2024 nömrəli, "Müntəzəm şəhərdaxili (rayondaxili) avtobus marşrutlarında sərnişindaşıma xidmətlərinin tariflərinin təsdiq edilməsi haqqında" 2024-cü il 28 iyun tarixli 3-27/3-7-9/2024 nömrəli və "Metro nəqliyyatında sərnişindaşıma xidməti üzrə tarifin tənzimlənməsi barədə" 2024-cü il 28 iyun tarixli 3-27/3-7-10/2024/1 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 3.0.7-ci yarımbəndini və 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

### qərara alır:

**1.** Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının "Ölkədaxili müntəzəm şəhərlərarası (rayonlararası), şəhərətrafı və qəsəbələrarası avtobus marşrutlarında sərnişindaşıma və şəhərlərarası (rayonlararası) müntəzəm avtobus marşrutlarında baqajdaşıma xidmətlərinin tariflərinin təsdiq edilməsi haqqında" 2024-cü il 20 iyun tarixli 3-27/3-7-8/2024 nömrəli, "Müntəzəm şəhərdaxili (rayondaxili) avtobus marşrutlarında sərnişindaşıma xidmətlərinin tariflərinin təsdiq edilməsi haqqında" 2024-cü il 28 iyun tarixli 3-27/3-7-9/2024 nömrəli və "Metro nəqliyyatında sərnişindaşıma xidməti üzrə tarifin tənzimlənməsi barədə" 2024-cü il 28 iyun tarixli 3-27/3-7-10/2024/1 nömrəli qərarlarında dəyişikliklər təsdiq edilsin (əlavə olunur).

**2.** Hüquq şöbəsi bu Qərarın qəbul edildiyi gündən 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

**3.** Bu Qərar 2025-ci il 1 oktyabr tarixindən qüvvəyə minir.

***Kollegiyanın sədri,***
***rəqəmsal inkişaf və nəqliyyat naziri***
***Rəşad Nəbiyev***

**Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2025-ci il 18 sentyabr tarixli 3-27/3-7-12/2025 nömrəli qərarı ilə təsdiq edilmişdir.**

Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının "Ölkədaxili müntəzəm şəhərlərarası (rayonlararası), şəhərətrafı və qəsəbələrarası avtobus marşrutlarında sərnişindaşıma və şəhərlərarası (rayonlararası) müntəzəm avtobus marşrutlarında baqajdaşıma xidmətlərinin tariflərinin təsdiq edilməsi haqqında" 2024-cü il 20 iyun tarixli 3-27/3-7-8/2024 nömrəli, "Müntəzəm şəhərdaxili (rayondaxili) avtobus marşrutlarında sərnişindaşıma xidmətlərinin tariflərinin təsdiq edilməsi haqqında" 2024-cü il 28 iyun tarixli 3-27/3-7-9/2024 nömrəli və "Metro nəqliyyatında sərnişindaşıma xidməti üzrə tarifin tənzimlənməsi barədə" 2024-cü il 28 iyun tarixli 3-27/3-7-10/2024/1 nömrəli qərarlarında edilmiş dəyişikliklər:

**1.** "Ölkədaxili müntəzəm şəhərlərarası (rayonlararası), şəhərətrafı və qəsəbələrarası avtobus marşrutlarında sərnişindaşıma və şəhərlərarası (rayonlararası) müntəzəm avtobus marşrutlarında baqajdaşıma xidmətlərinin tariflərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2024-cü il 20 iyun tarixli 3-27/3-7-8/2024 nömrəli qərarı üzrə:

1.1. 2-ci hissəyə "70 qəpik" sözlərindən sonra "(həmin marşrut üzrə istifadə edilən bütün avtobuslarda (sıxılmış qaz və ya elektrik mühərriki ilə işləyən, yaxud 2025-ci il 1 yanvar tarixindən sonra istehsal edilən və dizel mühərriki ilə işləyən) gediş haqqının ödəniş aləti vasitəsilə ödənildiyi halda həmin avtobuslara münasibətdə 80 qəpik)" sözləri əlavə edilsin;

1.2. həmin qərarla təsdiq edilmiş "Ölkədaxili müntəzəm şəhərətrafı və qəsəbələrarası avtobus marşrutlarında sərnişindaşıma xidmətlərinin tariflərinin yuxarı hədləri"nə aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

"Qeyd: Bakı şəhərinin inzibati ərazisində şəhərətrafı və qəsəbələrarası müntəzəm sərnişin daşımalarında istifadə olunan dizel mühərriki ilə təchiz edilmiş avtobuslar istisna olmaqla, şəhərətrafı və qəsəbələrarası müntəzəm sərnişin daşımalarında konkret marşrut üzrə istifadə edilən bütün avtobuslarda (sıxılmış qaz və ya elektrik mühərriki ilə işləyən, yaxud 2025-ci il 1 yanvar tarixindən sonra istehsal edilən və dizel mühərriki ilə işləyən) gediş haqqının ödəniş aləti vasitəsilə ödənildiyi halda həmin avtobuslara münasibətdə bu Cədvəldə qeyd olunan tariflərə əlavə 0,10 manat tarif tətbiq edilir.".

**2.** Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2024-cü il 28 iyun tarixli 3-27/3-7-9/2024 nömrəli qərarı ilə təsdiq edilmiş "Müntəzəm şəhərdaxili (rayondaxili) avtobus marşrutlarında sərnişindaşıma xidmətlərinin tariflərinin yuxarı həddi"nə aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

**"Qeyd:** *Bakı şəhərinin inzibati ərazisində şəhərdaxili müntəzəm sərnişin daşımalarında istifadə olunan dizel mühərriki ilə təchiz edilmiş avtobuslar istisna olmaqla, şəhərdaxili müntəzəm sərnişin daşımalarında konkret marşrut üzrə istifadə edilən bütün avtobuslarda (sıxılmış qaz və ya elektrik mühərriki ilə işləyən, yaxud 2025-ci il 1 yanvar tarixindən sonra istehsal edilən və dizel mühərriki ilə işləyən) gediş haqqının ödəniş aləti vasitəsilə ödənildiyi halda həmin avtobuslara münasibətdə bu Cədvəldə qeyd olunan tarifə əlavə 0,10 manat tarif tətbiq edilir.".*

**3.** "Metro nəqliyyatında sərnişindaşıma xidməti üzrə tarifin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2024-cü il 28 iyun tarixli 3-27/3-7-10/2024/1 nömrəli qərarının 1-ci hissəsində "50" rəqəmləri "60" rəqəmləri ilə əvəz edilsin.


# AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

## BAKI MÜHƏNDİSLİK UNİVERSİTETİ

***kafedralar üzrə aşağıdakı vəzifələri tutmaq üçün***

## MÜSABİQƏ ELAN EDİR

**Professor-müəllim vəzifələrini tutmaq üçün:**

| Kafedralar | Vəzifələr | Yerlər |
|---|---|---|
| Dövlət və bələdiyyə idarəetməsi kafedrası | Professor | 1 (1,0) |
| Ümumi fənlər kafedrası | Professor | 1 (0,5) |
| İnşaat mühəndisliyi kafedrası | Dosent | 1 (1,0) |
| Maliyyə və mühasibat kafedrası | Dosent | 1 (1,0) |
| Maliyyə və mühasibat kafedrası | Baş müəllim | 1 (1,0) |
| Sənaye mühəndisliyi kafedrası | Baş müəllim | 2 (1,0) |

**Qeyd**-müsabiqədə iştirak etmək üçün sənədlər Azərbaycan Respublikası Təhsil Nazirliyinin 7 avqust 1996-cı il tarixli 401 saylı əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında" Əsasnaməyə uyğun olaraq seçkinin elan olunduğu gündən başlayaraq 1 ay müddətində qəbul edilir.

**Müsabiqədə iştirak etmək üçün tələb olunan sənədlərin siyahısı:**

**1.** Kadrlar uçotunun şəxsi vərəqəsi.
**2.** Tərcümeyi-hal.
**3.** Ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri.
**4.** Elmi və elmi-metodiki işlərin siyahısı.
**5.** Kafedra müdiri və fakültə dekanının müvafiq struktur bölmənin inkişafı ilə bağlı platforması.

Sənədlər təlimata uyğun olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:

**Əlavə məlumat üçün:**
**Tel**efon- +994(012) 349-99-66/67+Daxili nömrə: (1113, 1115, 1117, 1155, 1504).
**Fax:** (+99412) 349-99-90/91.
**e-mail:** info@beu.edu.az **web sayt:** www/beu.edu.az.
**Ünvan-** Azərbaycan, Abşeron, AZ-0101, Xirdalan şəhəri, H.Əliyev küçəsi 120.

**REKTORLUQ**


*Xuntaçıların məhkəməsi*

# Ermənistan hərbçilərinin dinc əhaliyə raket hücumları





**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası sentyabrın 29-da davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmə prosesi cinayət işləri üzrə sənədlərin elan olunması ilə davam etdirilib.

Elan edilən sənədlərdən biri 2016-cı ildə Aprel döyüşləri zamanı mülki şəxslərə yetirilmiş bədən xəsarətləri, onların həyatlarına yönəlmiş qəsd, əmlaklarına vurulmuş ziyan və s. epizodlarla bağlı olub. Epizodlar üzrə tədqiq edilən sənədlərdən birində qeyd olunub ki, 2016-cı ilin aprel ayının 2-dən 28-dək olan dövrdə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Ağdam, Tərtər, Goranboy, Füzuli və Ağcabədi rayonlarının yaşayış məntəqələrinin ərazilərinə, həmçinin təhsil və tibb müəssisələrinə, eləcə də mülki əhaliyə və döyüşlərdə iştirak etməyən ayrı-ayrı mülki şəxslərə iriçaplı atıcı silahlardan, minaatan və qumbaralardan, artilleriya qurğularından intensiv atəş açmaqla, hərbi zərurət olmadan hücum edilməklə çoxsaylı cinayət əməlləri törədilib. Sənədlərin tədqiqi zamanı cinayət işləri üzrə hadisə yerindən fotolar da nümayiş olunub.

Sonra Tərtər rayonunun Əskipara kəndinin "ağ fosfor" tərkibli 122 millimetr kalibrli, P-4 markalı top mərmisi ilə atəşə tutulması, Qurbanov Çingiz Salman oğlunun öldürülməsi (ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib – red.), Əkbərli Hüseyn Zakir oğlunun öldürülməsi, işğal altında saxlanılmış ərazilərdə iqtisadiyyat və digər sahələrdə törədilmiş cinayət faktları üzrə və s. sənədlər oxunub.

Növbəti sənəd Allahverdiyeva Sahibə İdris qızının öldürülməsi və digər faktlar üzrə olub. Bildirilib ki, Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarının pozulması, milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə 2017-ci ildə 73 millimetr tankəleyhinə dəzgahlı minaatanlardan Füzuli rayonunun Alxanlı kəndinin atəşə tutulması nəticəsində 1966-cı il təvəllüdlü Allahverdiyeva Sahibə İdris qızı və onun nəvəsi 2016-cı il təvəllüdlü Quliyeva Zəhra Elnur qızı aldıqları qəlpə yaralarından ölüb, 1965-ci il təvəllüdlü Quliyeva Səlminaz İltifat qızı isə çoxsaylı qəlpə yaraları alıb.

Məhkəmə prosesində Tərtər rayonunun Qapanlı kənd sakini Əliyev Yusif Musa oğluna məxsus evin odlu silahlardan atəşə tutulması faktı, Ermənistan Milli Təhlükəsizlik Xidmətinin Hovik və Sasun Qriqoryan adlı əməkdaşlarının cinayət faktları, dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin təxribatının qarşısını alarkən general-mayor Polad Həşimovun, polkovnik İlqar Mirzəyevin və digərlərinin öldürülməsi (Tovuz döyüşləri – red.), eləcə də öldürülməyə cəhd edilməsi, Kəlbəcər rayonunun Ağdaban kəndində törədilmiş kütləvi qətliam, habelə Vətən müharibəsi zamanı Gəncə şəhərinə raketlərlə hücum faktları üzrə sənədlər də səsləndirilib.

Sonra Azərbaycan vətəndaşlarının öldürülməsi, xəsarət yetirilməsi və digər faktlar üzrə sənədlər elan olunub.

Mina partlayışı nəticəsində Səmidli Babək Mətləb oğlunun, İsmayılov Cavad Asif oğlunun, Muxtarov Sərxan İlqar oğlunun, Cavadov Rəşad Fərzəli oğlunun və digərlərinin öldürülməsi, eləcə də Səfərov Məcid Cəlil oğlunun, Novruzov Müslüm Mürsəl oğlunun və Bozuyev Yalçın Bəylər oğlunun, Vəliyev Kərim Tofiq oğlunun, Bəhramlı Tural Ağazadə oğlu və Mahmudov Cavad Əziz oğlunun, Həsənov Əlihəsən Tumar oğlunun, Əzizli Nurəddin Qurbəddin oğlunun, Hacızadə Ruhid Alim oğlunun, Ziyadov Rüstəm Əli oğlunun və Ələkbərov Sahil Dilsuz oğlunun və digərlərinin xəsarət almaları faktı üzrə sənədlər də tədqiq edilib.

Sənədlərin tədqiqi cinayət işlərinə aid fotolarla müşayiət olunub.

Məhkəmə prosesi oktyabrın 2-də davam etdiriləcək.

***XQ***

# Moldovanın Avropa seçimi yenidən qalib gəldi

**Moldovada parlament seçkilərinin yekun nəticələri açıqlanıb. Mərkəzi Seçki Komissiyası 100 faiz bülletenləri hesablayıb və son rəqəmlər ümumi mənzərəni dəyişməyib. Yeni parlamentdə üç siyasi partiya və iki blok təmsil olunacaq.**



Moldavada keçirilən prezident seçkilərində hakim "Fəaliyyət və Həmrəylik" Partiyası 50,2 faiz səs toplayaraq birinci yerdə qərarlaşıb.

İkinci nəticəni 24,17 faizlə sosialistlər, kommunistlər və "Moldovanın Gələcəyi" Partiyasını birləşdirən Patriotik Blok göstərib. Parlamentdə "Alternativ" bloku (7,96 faiz), "Bizim Partiya" (6,20 faiz) və "Evdə Demokratiya" Partiyası (5,62 faiz) yer alacaq. Seçici fəallığı 52 faiz təşkil edib.

Prezident Maya Sandu seçkidən sonra keçirdiyi mətbuat konfransında bildirib ki, nəticələr yalnız ayrı-ayrı siyasi qüvvələrin deyil, bütövlükdə, ölkənin uğurudur. Onun sözlərinə görə, seçkilər cəmiyyətin birliyini nümayiş etdirdi və Moldova xalqı təzyiq və təsir cəhdlərinə boyun əymədən gələcəyini qorumaq əzmini göstərdi. Sandu qeyd edib ki, əsas məqsəd bütün vətəndaşlar üçün sabit, təhlükəsiz və rifahlı gələcək yaratmaqdır və bu hədəfə çatmaq üçün ən qısa yol Avropa istiqamətidir.

Dövlət başçısı seçki kampaniyası dövründə xarici təsir cəhdlərinin müşahidə edildiyini, lakin institutların və cəmiyyətin daha dayanıqlı olduğunu vurğulayıb. Onun fikrincə, qarşıdakı mərhələdə əsas vəzifə məhkəmə sisteminin islahatı, qanunun aliliyinin təmin edilməsi və seçki prosesində səs alqısı hallarının tamamilə aradan qaldırılması olacaq. Siyasi partiyaların maliyyələşməsində şəffaflıq və dezinformasiya ilə mübarizə də prioritet istiqamətlər kimi göstərilib.

Seçkilərin nəticələri Moldovanın Avropa inteqrasiyası kursunun möhkəmləndiyini təsdiqləyir. Hakim partiyanın parlamentdə çoxluq qazanması bu siyasətin davam etdirilməsinə imkan yaradır. Eyni zamanda, digər siyasi blokların təmsilçiliyi ölkə daxilində siyasi balansın saxlanılmasına şərait yaradır. Analitiklər hesab edirlər ki, bu seçkilər təkcə daxili siyasi sabitliyin deyil, həm də Moldova ilə region ölkələri, o cümlədən Avropa İttifaqı və Rusiya arasındakı münasibətlərin gələcək trayektoriyasını müəyyənləşdirəcək.

***SE LAY***
***XQ***

# Özbəkistanlı qonaqlar Medianın İnkişafı Agentliyində



**Sentyabrın 29-da Medianın İnkişafı Agentliyində II Azərbaycan–Özbəkistan Media Forumunun qardaş ölkədən gəlmiş heyəti ilə görüş keçirilib.**

Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında media sahəsində əməkdaşlığın inkişafı üzrə "Yol xəritəsi"ndən irəli gələn məsələlərin icrasından bəhs edib. O, iki ölkə arasında müxtəlif sahələrdə, o cümlədən media sahəsində münasibətlərin uğurla inkişaf etdiyini diqqətə çatdırıb.

Nümayəndə heyətinin rəhbəri Özbəkistan Respublikası Prezidenti Administrasiyasının Kommunikasiya şöbəsinin sektor müdiri Dilşod Saidjanov Azərbaycanla strateji tərəfdaşlıq münasibətlərinin medianın inkişafı sahəsində də mühüm nəticələr verdiyini qeyd edib. O, informasiya mübadiləsinin intensivləşməsi və birgə media layihələrinin həyata keçirilməsinin vacibliyini vurğulayıb.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 209 (30903) 30 sentyabr 2025-ci il, çərşənbə axşamı

## İDMAN

### Taekvondoçularımız ilk gündə 11 medal qazandılar




**Azərbaycan taekvondoçuları III MDB Oyunlarının ilk günündə 3 qızıl, 2 gümüş və 6 bürünc medal qazanıblar.**

Kişilər arasında 54 kq, 63 kq, 74 kq və 87 kq, qadınlarda isə 46 kq, 53 kq və 62 kq çəki dərəcələrinə qaliblər müəyyənləşib. Azərbaycan təmsilçiləri Ziya Həsənli (63 kq), Humay Dadaşova (46 kq) və Məryəm Məmmədova (53 kq) finalda qalib gələrək, III MDB Oyunlarının qızıl medalını qazanıblar. Elcan Əliyev (74 kq) və Ümid Rəhimzadə (54 kq) isə məğlub olaraq, gümüş medala yiyələniblər.

Eyni zamanda, 6 taekvondoçumuz yarışları 3-cü pillədə başa vurublar – kişilərdə Tamerlan Yaqubov (54 kq), Allahverdi Məmmədov və Zeynal Əliyev (hər ikisi 87 kq), qadınlarda isə Səlimə Quliyeva (46 kq), Nilufər Borji (53 kq) və Nərgiz Kazımova (62 kq).

### Samboçularımızın 8 medalı



**III MDB Oyunlarında sambo yarışları başa çatıb. Göygöl Olimpiya İdman Kompleksində təşkil olunan yarışlarda 8 idmançımız fəxri kürsüyə yüksəlib.**

Samboçularımızdan Abdullətif Musayev (53 kiloqram), Nihad Rəhimov (64 kiloqram) qızıl, Əbubəkir Hüseynov (98 kiloqram), Rəsul Səmədli (+98 kiloqram), Rüstəm Qasımzadə (58 kiloqram) gümüş, Sadiq Nadirov (79 kiloqram), Mikayıl Əmirov (71 kiloqram ) və Xəzər Əmrahlı (88 kiloqram) isə bürünc medal qazanıblar.

### Stend atıcılarımızın gümüş və bürüncü



**Ölkəmizin ev sahibliyi etdiyi III MDB Oyunlarında stend atıcılığı üzrə yarışlara start verilib. Azərbaycan idmançısı Nərmin Cəfərova gümüş medal qazanıb. İdmançımız stend atıcılığında ikinci nəticə göstərib.**

Birinci yeri hədəfi daha sərrast vuran Rusiya idmançısı Alina Axatova tutub. Digər stend atıcılarımız Cavid Həsənov və Cəmilə Paşayeva isə bürünc medal qazanıblar.

Rusiyalı İlya Kuşaqin və Yelizaveta Yevqrafova qızıl, qazaxıstanlı Maksim Poşivalov və Lidiya Başarova gümüş mükafata sahib çıxıblar.

Stend atıcılığı üzrə yarışlara oktyabrın 1-də yekun vurulacaq.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Bar-bərəkət mövsümü*

# Masallıda çəltik və düyü festivalı

**Masallı şəhərinin mərkəzi meydanında əsl bayram əhval-ruhiyyəsi hiss olunurdu. Səliqə ilə düzülmüş köşklərdə rayonun kənd əməkçilərinin becərdikləri məhsullar, toxum növləri, ərzaq, sənaye və düyüdən hazırlanan məhsullar, xalq sənətkarlığı nümunələri, istedadlı gənclərin rəsm əsərləri nümayiş etdirilirdi.**



Aqrar sahədə ənənələrin yaşadılması və innovativ texnologiyaların təşviqi məqsədilə Masallı Rayon İcra Hakimiyyətinin və Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin birgə təşkilatçılığı ilə “Çəltik və düyü” festivalı, toxum sərgi-satış yarmarkası keçirilirdi.

Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov festival iştirakçılarını salamlayaraq Azərbaycan Prezidenti İlham Əliyevin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsinin hazırlandığını, aqrar sahədə strateji inkişaf hədəflərinə çatmaq üçün yol xəritəsində qarşıya qoyulmuş vəzifələrin uğurla icra olunduğunu diqqətə çatdırdı. İcra başçısı qeyd etdi ki, ölkəmizdə qeyri-neft sektorunun inkişafı istiqamətində davamlı işlər görülür, kənd təsərrüfatı məhsulları istehsalçılarına güzəştli şərtlərlə texnika, texnoloji avadanlıqlar, sertifikatlı, keyfiyyətli və məhsuldar toxum sortları verilir, digər aqrotexniki xidmətlər göstərilir.



Masallı aqrar sahədə böyük potensiala, zəngin ənənələrə malikdir. Rayonda 24 min 907 hektar əkinə yararlı torpaq sahəsi mövcuddur. Torpaqların 17 min 933,3 hektarında kənd təsərrüfatı məhsulları yetişdirilir, bunun da10 min 131 hektarında suvarma suyundan istifadə edilir.

“Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı”nda qarşıya qoyulan vəzifələr Masallı rayonunda da uğurla icra olunur. Burada çəltik istehsalı ildən-ilə artırılır. Cari ildə 179,3 hektar sahədə çəltik əkini aparılıb. Orta məhsuldarlıq 35-40 sentnerə çatıb. “Masallı Nemətləri” MMC tərəfindən müasir avadanlıqlarla təchiz olunmuş sutkalıq gücü 20 ton olan çəltik emalı zavodu istifadəyə verilib. Dövlətimizin başçısı 2018-ci il sentyabrın 18-də Masallıya növbəti səfəri zamanı zavodun açılışında iştirak edib.



Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov aqrar biznes festivallarının ənənəvi xarakter aldığını, artıq 9-cu festivalın keçirildiyini vurğulayaraq fermerlərin yeni texnologiyalar və innovativ yanaşmalarla tanışlığı baxımından tədbirin əhəmiyyətindən söhbət açdı. Festivalın kənd təsərrüfatı məhsulları istehsalçılarını və istehlakçılarını bir araya gətirdiyini, qarşılıqlı əməkdaşlıq imkanlarının genişləndirilməsinə şərait yaratdığını bildirdi.

Milli Məclisin deputatı Məşhur Məmmədov festival çərçivəsində aqrar məhsulların istehsalı və satışı ilə məşğul olan şirkətlərin, bank və kredit təşkilatlarının, həmçinin dövlət qurumlarının fermerlərlə birbaşa ünsiyyət quraraq onların ehtiyaclarını öyrəndiklərini, yeni əməkdaşlıq imkanları yarandığını qeyd etdi, festivalın rayonun kənd təsərrüfatının inkişafında əhəmiyyətindən danışdı.

Milli Məclisin deputatı Cavanşir Paşazadə bölgələrdə təşkil olunan festivalların aqrar sahədə çalışan fermerlər və sahibkarlar üçün öz məhsullarını nümayiş etdirmək, yeni satış ünvanları tapmaq və təcrübə mübadiləsi aparmaq baxımından gözəl bir platformaya çevrildiyini bildirdi.

“Okean Pro” MMC-nin təsisçisi Elxan Qubadov, Mahmudavar kənd sakini “Baba bulağı” MMC-nin rəhbəri Zəmanə Babayeva-Cəfərzadə və Qızılağac kəndindən fermer Anar Abbasov çəltikçiliyin rayonun iqtisadiyyatında önəmli yer tutduğunu, festivalın çəltik və düyü istehsalına stimul verəcəyini bildirdilər.

Festivalda rayonda çəltikçilik sahəsində görülən işlər və bu sahənin potensialı geniş təqdim olundu. Özəl aqrar şirkətlər tərəfindən müxtəlif kənd təsərrüfatı məhsulları, texnika və avadanlıqlar sərgiləndi. Həmçinin, mövsümün növbəti beşinci toxum sərgi-satış yarmarkası keçirildi. Fermerlərin rayonlaşdırılmış, sertifikatlı toxumlara əlçatanlığını təmin etmək və aqrar sektorda keyfiyyətli toxum istehsalını təşviq etmək məqsədilə müxtəlif çeşiddə toxum nümunələri nümayiş olundu.

Fermerlərə toxum, gübrə və pestisidlər, kənd təsərrüfatı texnikaları, müasir suvarma texnologiyaları və əkin prosesində aqrotexniki qaydaların tətbiqi, torpaq-iqlim xüsusiyyətlərinə uyğun sortların seçimi barədə ətraflı məlumat verildi.

Festival rayonun mədəniyyət işçilərinin iştirakı ilə konsert proqramı ilə yekunlaşdı.

*Əlisəfa HƏSƏNOV,*
*XQ-nin bölgə müxbiri*

## Stolüstü tennisçilərimiz ikinci oldular




**III MDB Oyunlarında stolüstü tennis yarışlarının başa çatıb. Yarışları birinci yerdə başa vuran Rusiya komandası 9 qızıl, 1 gümüş medal qazanıb. 6 gümüş, 3 bürünc medalla Azərbaycan idmançıları ikinci, 1 gümüş, 6 bürünc mükafatla Belarus isə üçüncü olub.**

Özbəkistan 1 gümüş, 6 bürünc medalla 4-cü, Qazaxıstan isə 3 bürünc medalla 5-ci yeri tutub.

Qeyd edək ki, Azərbaycan stolüstü tennis yarışlarında 3 qız və 3 oğlan idmançı ilə təmsil olunub.

## 4 üzgüçümüz fəxri kürsüdə

**Azərbaycanın 4 üzgüçüsü III MDB Oyunlarında medal qazanıb.**

Süleyman İsmayılzadə 200 metr məsafəyə sərbəst üsulla üzməkdə ikinci yeri tutub.

200 metr məsafəyə “butterfly” üsulu ilə üzməkdə uğurlu çıxış edən üzgüçülər Mehri Əbdürəhmanlı gümüş, Anastasiya Qnussina isə bürünc mükafat əldə edib.

Həmin növdə ölkəmizi təmsil edən Oktay Hüseynov da gümüş mükafata sahib çıxıb.

Kişilərin və qadınların 4x100 metr məsafəyə sərbəst üsulla yarışında eyni nəticə qeydə alınıb – Rusiya millisi birinci, Belarus ikinci, Qazaxıstan kollektivi isə üçüncü yeri tutub.

Beləliklə, üzgüçülük yarışlarında ikinci günə yekun vurulub.

*Q.ƏLİYEV*
*XQ*



## Hava

### Gündüz əsasən yağmursuz, axşam bəzi yerlərdə yağış və dolu



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi, lakin axşam bəzi yerlərdə yağış yağacağı proqnozlaşdırılır. Mülayim şimal-qərb küləyi axşam arabir güclənəcək.**

Havanın temperaturu gecə 15-17, gündüz 18-22 dərəcə isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunundan 762 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi şərq rayonlarında, axşamdan isə əksər rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağışın leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 12-16, gündüz 18-23, dağlarda gecə 3-8, gündüz 9-14 dərəcə isti olacağı bildirilir.

*Q.ƏLİYEV*
*XQ*

*✓ Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Kiçik Həcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti tərəfindən Vəliyev Rahil Kərim oğlunun adına verilmiş AA seriyalı, 030759 nömrəli gəmi bileti və AA seriyalı, 09193 nömrəli texniki talon itdiyi üçün etibarsız sayılır.*

*✓ Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən Mustafayev Məhərrəm Səhrab oğlu adına verilmiş 01.11.2024 ci il tarixli 208 nömrəli xidməti vəsiqə itirildiyi üçün etibarsız sayılır.*

*✓ “Studiya Dizayn” Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN:1404255511) “GREENROOM” Məhdud Məsuliyyətli Cəmiyyətinə (VÖEN: 1601185131) qoşulması nəticəsində ləğv olunur.*

*✓ “GREENROOM” Məhdud Məhdud Cəmiyyəti (VÖEN: 1601185131) “Studiya Dizayn” Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN:1404255511) ona qoşulması nəticəsində yenidən təşkil olunur.*

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidova atası

**MİRHEYDƏR SEYİDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3528
SİFARİŞ 1945
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00